


# QANUNÇULUQ

HÜQUQ JURNALI

Azərbaycan Respublikası Ədliyyə Nazirliyinin orqanı





№ 05 - may 2019



Azərbaycan Respublikası demokratik, hüquqi, dünyəvi dövlət quruculuğu yolu ilə əzmlə irəliləyir.

**Heydər ƏLİYEV,**
**Azərbaycan xalqının ümummilli lideri**



**Əminəm ki, ədliyyə və məhkəmə orqanları hüquqi dövlət quruculuğu istiqamətində səylərini bundan sonra da davam etdirəcək və qarşıda duran vəzifələri layiqincə yerinə yetirəcəklər.**

**İlham ƏLİYEV,**
**Azərbaycan Respublikasının Prezidenti**

# QANUNÇULUQ

## hüquq jurnalı

**№ 05 - may 2019**



TƏSİSÇİ:
**Azərbaycan Respublikasının Ədliyyə Nazirliyi**

BAŞ REDAKTOR:
**Fikrət Məmmədov**

REDAKSİYA HEYƏTİ:
**Fuad Ələsgərov**
**Toğrul Musayev**
**Azər Cəfərov**
**Adil Əliyev**
**Fuad Cavadov**
**Cavid Hüseynov**
**Elçin Xələfov**

BURAXILIŞA MƏSUL:
**Rasim Həsənov**




**Qaynar xətt**
**539-76-75**

# Mündəricat



## HEYDƏR ƏLİYEV - 96


Prezident İlham Əliyev Fəxri xiyabanda ulu öndər Heydər Əliyevin məzarını ziyarət edib .............4
Ümummilli lider Heydər Əliyevin anadan olmasının 96-cı ildönümünə və Heydər Əliyev Fondunun yaradılmasının 15 illiyinə həsr olunmuş təntənəli mərasim .............6
Ulu öndər Heydər Əliyevin doğum gününə həsr olunan ağacəkmə aksiyası .............8

Ümummilli lider Heydər Əliyevin doğum günü ədliyyə orqanlarında geniş qeyd olunub .............9
Məhərrəm Əliyev: "Ulu Öndər dövlətlə xalqın birliyini təmin etdi" .............11




## ƏDLİYYƏ XƏBƏRLƏRİ


Ölkə Prezidentinin 2019-cu il 3 aprel tarixli Fərmanının icrası diqqət mərkəzindədir .............14
Fərmandan irəli gələn məsələlərə dair ictimai müzakirələr .............15
Ədliyyə Nazirliyində görüşlər .............26
Ədliyyə naziri və nazir müavinləri cənub bölgəsində vətəndaşları qəbul ediblər .............28
Latviyanın ədliyyə naziri ilə görüş .............28
Birləşmiş Krallığın ölkəmizdəki səfiri ilə görüş .............29
Londonda Azərbaycan-Böyük Britaniya Hökumətlərarası Komissiyanın 3-cü iclası keçirilib .............29
Gənc ədliyyə könüllüləri ilə görüş .............30
"Azərbaycanda penitensiar islahatlara əlavə dəstək - 2" layihəsinin təqdimatı olub .............32

Penitensiar xidmətin nümayəndəsi beynəlxalq tədbirdə iştirak edib ....33
Avropa Şurasının konfransında Azərbaycan uğurlu siyasət aparan ölkə kimi qeyd olunub ....33
Ədliyyə orqanlarında işləmək istəyən namizədlər üçün test imtahanı....34
"Nəsimi ili" çərçivəsində "Kitab günü" keçirilib ....35
Beynəlxalq Ailə Gününə həsr olunmuş tədbir ....36
Notariat sahəsində beynəlxalq seminar keçirilib ....37
Alternativ icra mexanizmlərinin tətbiqi ilə bağlı beynəlxalq təcrübə öyrənilir ....39
Ədliyyə Akademiyasının məlumatları ....39
"Ədliyyə könüllüləri" layihəsi çərçivəsində tələbələr ədliyyə fəaliyyəti üzrə təcrübə keçiblər....47

## MƏQALƏ

Ələddin Cəfərov. Azərbaycanın məhkəmə sistemi yeni çağırışlara adekvat olaraq müasirləşir ....48

## YENİ QANUNLAR, FƏRMANLAR...

"Azərbaycan Respublikasının İnzibati Xətalar Məcəlləsində dəyişiklik edilməsi haqqında" Azərbaycan Respublikasının 2019-cu il 29 mart tarixli, 1534-VQD nömrəli Qanunu ....53
"Azərbaycan Respublikasının Mülki Prosessual Məcəlləsində və "İpoteka haqqında" Azərbaycan Respublikasının Qanununda dəyişiklik edilməsi barədə" Azərbaycan Respublikasının 2019-cu il 29 mart tarixli, 1535-VQD nömrəli Qanunu ....54
"Azərbaycan Respublikası Mülki Məcəlləsinin 1164-cü maddəsinin bəzi müddəalarının şərh edilməsinə dair" Azərbaycan Respublikası Konstitusiya Məhkəməsi Plenumunun 2019-cu il 1 may tarixli Qərarı....55
"Azərbaycan Respublikası İnzibati Xətalar Məcəlləsinin 128-ci maddəsi baxımından həmin Məcəllənin 109-cu maddəsinin şərh edilməsinə dair" Azərbaycan Respublikası Konstitusiya Məhkəməsi Plenumunun 2019-cu il 3 may tarixli Qərarı....60

"Qanunçuluq" jurnalı redaksiyasının kompüter mərkəzində yığılıb səhifələnmiş, "Ədliyyə Nəşriyyat Evi" MMC-də çap olunmuşdur.
"Ədliyyə Nəşriyyat Evi" MMC-nin ünvanı:
Xaqani küç., 14, tel.: 598-26-77, 498-55-69

Bank rekvizitləri: "Ədliyyə Nəşriyyat Evi" MMC
VÖEN 1700212121 H/h 384974 AZM 380701
Azərbaycan Beynəlxalq Bankın Səbail
filialı, kod 805551, VÖEN 9900001881,
M/h 0137010002031, SWIFT/Bik IBAZAZ-2x
Sifariş: 1835 Tiraj:1100 ədəd



# Prezident İlham Əliyev Fəxri xiyabanda ulu öndər Heydər Əliyevin məzarını ziyarət edib

**Mayın 10-u müasir müstəqil Azərbaycanın memarı və qurucusu, görkəmli dövlət xadimi, xalqımızın dahi oğlu və ümummilli lideri Heydər Əliyevin anadan olmasının 96-cı ildönümü günüdür.**

Yaşarı dünyasından sonra xalqın yaddaşında qalmaq hər kəsə nəsib olmur. Xalq yalnız sevdiklərini yadda saxlayır və yaşadır. Heydər Əliyev misilsiz xidmətlərinə görə hər zaman Vətəni, xalqı üçün əziz olaraq qalacaq. Çünki bu dahi insan xalqımız qarşısındakı xidmətləri ilə hələ sağlığında ikən tarixin yaddaşında əbədiləşmiş böyük azərbaycanlıdır.

İstedadlı insanlar, böyük şəxsiyyətlər üçün zaman və məkan məhdudiyyəti yoxdur. Onlar heç bir zaman və məkana sığmırlar. Bu, əsrlərin sınağından çıxan və öz təsdiqini tapan bir fikirdir. Zaman onu da sübut edir ki, dünyanın tarixi böyük şəxsiyyətlərin tərcümeyi-halıdır. Heydər Əliyevin tərcümeyi-halı isə Azərbaycan tarixidir. Çünki onun hakimiyyətdə olduğu illərdə Azərbaycana bəxş etdiklərini tarix boyunca heç bir hakimiyyət sahibi etməyib. O, Azərbaycan salnaməsində təkrarolunmaz rəhbər, qüdrətli dövlət başçısı, fədakar insan kimi qalıb. Çünki o, Azərbaycanı dünyaya tanıdıb, dünyanı Azərbaycana gətirib. O, Azərbaycanı qorumaq üçün yaşayıb, Azərbaycanı yaşatmaq üçün qurub-yaradıb. Heydər Əliyevin parlaq dühası onu Azərbaycan xalqının Ümummilli Liderinə, üstəlik dünya siyasətinin nəhənglərindən birinə çevirib. Odur ki, Azərbaycan xalqı bu böyük övladı ilə haqlı olaraq da öyünür.

"Mənim həyat amalım yalnız bütün varlığım qədər sevdiyim Azərbaycan xalqına, dövlətçiliyimizə, ölkəmizin iqtisadi, siyasi, mədəni inkişafına xidmət olub", - deyən Heydər Əliyev istər sovet dönəmində, istərsə də müstəqillik illərində qüdrəti və zəkası, böyük müdrikliyi və uzaqgörənliyi ilə Azərbaycanı dünya məmləkətləri sırasında layiqli yerə çıxarıb. O, keçmiş SSRİ-nin ən nüfuzlu siyasətçilərindən biri




idi. Bu səbəbdən də "Azərbaycan sənin üçün kiçikdir, sən ittifaqa lazımsan", - deyə onu Moskvaya dəvət etdilər. Amma burada o, həm də onu gözü götürməyən məkrli qorbaçovların xəyanətinə tuş gəldi, Vətəninə döndü. Bu qayıdış isə daha möhtəşəm oldu. Ümidlə, inamla yolunu gözləyən xalqının arzusu ilə yenidən hakimiyyətə gəldi. Milyonları öz ətrafında, bir bayraq altında birləşdirə bildi. Sözünün qüdrəti ilə hər kəsi inandırdı. Əməlləri ilə sözünü gerçəyə çevirdi.

Azərbaycan dövlət quruculuğu prosesini sürətlə keçdi. Çünki ulu öndər Heydər Əliyevin yaratdığı təməl prinsiplər düzgün yerinə yetirilmişdi. Dahi siyasi xadimin xidmətləri sayəsində dövlətçilik, azərbaycançılıq, dünyəvilik, müasirlik kimi ideyalar cəmiyyətin dünyagörüşü sisteminin ayrılmaz hissəsinə çevrildi, müasir Azərbaycanın mövcudluğunun və inkişafının ideya əsasını təşkil etdi. Heydər Əliyev öz fəaliyyəti ilə Azərbaycanda demokratik cəmiyyətə keçid mexanizmini yaratdı, müstəqil və demokratik cəmiyyət formalaşdırmaq kimi tarixi missiyanın öhdəsindən uğurla gəldi. Ulu Öndər güclü dövlət, səmərəli iqtisadiyyat və azad insan amillərinə əsaslanan konsepsiyası ilə müstəqil Azərbaycanın tarixində qızıl səhifələr yazdı. Heydər Əliyevin quruculuq salnaməsi azərbaycanlıların həyatına birdəfəlik daxil oldu. Onun Azərbaycana rəhbərlik illəri milli intibah dövrü kimi əbədiləşdi.

Meydana silahsız gələn bu insan qüdrətli Azərbaycan Ordusu yaratdı, cəbhədə atəşkəsə nail oldu, iqtisadiyyatı dirçəltdi, ölkəmizdə böyük neft erasının əsasını qoydu. Azərbaycanın müasir tarixində misilsiz işlərə imza atdı. Heydər Əliyev dövrü Azərbaycan tarixinin, mədəniyyətinin, elminin, təhsilinin qızıl dövrünə çevrildi. Türk dünyasının bu böyük oğlu güclü dövlətçilik məktəbi də yaratdı. Heydər Əliyev ən mürəkkəb ziddiyyətli tarixi proseslərin gərdişindən bacarıqla baş çıxaran, ən çətin vəziyyətlərdə belə təmkinini itirməyən və dünyadakı geosiyasi dəyişiklikləri realistcəsinə qiymətləndirib mənsub olduğu xalqın, ölkəsinin çıxarlarını praqmatik ağılla və təcrübəsi ilə dəqiqliklə hesablayan bir lider idi.

Xalqımızın xilaskar oğlunun doğum günündə Azərbaycan Respublikasının Prezidenti İlham Əliyev, birinci xanım Mehriban Əliyeva və ailə üzvləri Ümummilli Liderin Fəxri xiyabanda məzarını ziyarət

ediblər.

Dövlətimizin başçısı ümummilli lider Heydər Əliyevin məzarı önünə əklil qoyub, Ulu Öndərin xatirəsini ehtiramla anıb.

Azərbaycan Respublikasının dövlət himni səsləndikdən sonra Prezident İlham Əliyev və ailə üzvləri Ulu Öndərin ömür-gün yoldaşı, görkəmli oftalmoloq-alim, akademik Zərifə xanım Əliyevanın xatirəsini ehtiramla anaraq məzarı üzərinə gül dəstələri qoyublar.

Görkəmli dövlət xadimi Əziz Əliyevin və tanınmış həkim-alim Tamerlan Əliyevin məzarları üzərinə də gül dəstələri düzülüb.

Ümummilli lider Heydər Əliyevin məzarının ziyarət olunması mərasimində Baş nazir Novruz Məmmədov, Milli Məclisin sədri Oqtay Əsədov, Prezident Administrasiyasının rəhbəri Ramiz Mehdiyev, nazirlər, komitə və şirkət rəhbərləri, Milli Məclisin deputatları iştirak ediblər.

# Ümummilli lider Heydər Əliyevin anadan olmasının 96-cı ildönümünə və Heydər Əliyev Fondunun yaradılmasının 15 illiyinə həsr olunmuş təntənəli mərasim

**Mayın 10-da Azərbaycan xalqının ümummilli lideri Heydər Əliyevin anadan olmasının 96-cı ildönümünə və Heydər Əliyev Fondunun yaradılmasının 15 illiyinə həsr olunmuş təntənəli mərasim keçirilib.**

Azərbaycan Respublikasının Prezidenti İlham Əliyev, xanımı Mehriban Əliyeva və ailə üzvləri mərasimdə iştirak ediblər.

Dövlətimizin başçısı mərasimdə nitq söyləyib. "Azərbaycan xalqı Heydər Əliyevi sevirdi, ona inanırdı, ona həmişə dəstək olurdu. O isə öz həyatını Azərbaycan xalqına həsr eib. Bütün dövrlərdə Heydər Əliyev öz xalqına ləyaqətlə xidmət edib", - deyən Prezident İlham Əliyev bildirib ki, sovet dövründə Heydər Əliyevin Azərbaycana rəhbərlik illəri respublikamızın inkişafında mühüm dövr olub. O, Sovet İttifaqında yüksək vəzifə tutanda da Azərbaycanı



heç vaxt unutmayıb.

1993-cü ildə ulu öndər Heydər Əliyevin hakimiyyətə qayıdışından sonra da ölkədə inkişaf dövrünün başlandığını, Azərbaycan dövlətçiliyinin əsaslarının qoyulduğunu, hərtərəfli islahatların aparıldığını deyən dövlətimizin başçısı 2003-cü ildə xalqın yenidən Heydər Əliyev siyasətinə səs verdiyini bildirib. Həmin dövrdən ölkəmizin qazandlğı uğurlardan, daxili və xarici siyasətdə əldə olunan nailiyyətlərdən danışan Prezident İlham Əliyev çıxışında Ermənistan-Azərbaycan Dağlıq Qarabağ münaqişəsinə toxunub. "Dağlıq Qarabağ əzəli, tarixi Azərbaycan torpağıdır və bizim mövqeyimiz ondan ibarətdir ki, münaqişə beynəlxalq hüquq normaları, ölkəmizin ərazi bütövlüyü əsasında həll olunmalıdır, - deyən ölkə rəhbəri ordu quruculuğu, həmçinin məcburi köçkünlərin həyat



şəraitinin yaxşılaşdırılması istiqamətində görülən işlərdən də bəhs edib.

Ölkədə digər sosial layihələrin də uğurla icra edildiyini, iqtisadiyyatın şaxələndirildiyini, neft-qaz amilindən asılılığın aşağı salındığını vurğulayan Azərbaycan Prezidenti ölkəmizin bundan sonra da islahatlar yolu ilə gedəcəyini qeyd edib.

Heydər Əliyev Fondunun fəaliyyətinə toxunan Prezident İlham Əliyev 15 illik fəaliyyəti dövründə Fondun ölkəmiz və xalqımız üçün bir çox vacib layihələrin icra etdiyini, təhsil, səhiyyə, mədəniyyət sahəsində əhəmiyyətli işlər gördüyünü bildirib.

"Bütün planlar reallaşacaq. Buna bizim iradəmiz də çatır, gücümüz də var, xalq da bizim siyasətimizi dəstəkləyir", - deyən Prezident İlham Əliyev bundan sonra da ölkəmizin yalnız və yalnız uğurlar və qələbələr yolu ilə gedəcəyinə əminliyini ifadə edib.

Sonra Prezident İlham Əliyev Azərbaycanın neft sənayesinin inkişafında xüsusi xidmətlərinə görə Dövlət Neft Şirkətinin birinci vitse-prezidenti, akademik Xoşbəxt Yusifzadəyə Heydər Əliyev Mükafatını təqdim edib.

Daha sonra Heydər Əliyev Fondu tərəfindən təsis edilən "Qızıl çinar" beynəlxalq mükafatının 2019-cu il üçün təqdimetmə mərasimi keçirilib.

Fondun prezidenti Mehriban Əliyeva milli musiqi irsimizin yaşadılması və dünyada tanıdılmasına xidmət edən layihələrdə fəal iştirakına və səmərəli əməkdaşlığına görə Üzeyir Hacıbəyli adına Azərbaycan Dövlət Simfonik Orkestrinin dirijoru, Əməkdar artist Fuad İbrahimova, həmçinin xüsusi qayğıya ehtiyacı olan uşaqlara göstərdiyi diqqət və qayğıya, böyüməkdə olan gənc nəslin hərtərəfli inkişafına verdiyi töhfələrə görə Daun Sindromlu Şəxslərin Reabilitasiya Mərkəzinin di-



rektor müavini Zərifə Məmmədovaya "Qızıl çinar" beynəlxalq mükafatını təqdim edib.

Tədbirdə geniş konsert proqramı təqdim olunub. Konsertdə tanınmış incəsənət ustalarının ifaları maraqla qarşılanıb.

Sonda BP-nin Azərbaycan, Gürcüstan və Türkiyə üzrə regional prezidenti Qəri Counz Ulu Öndərin əlyazmasını Heydər Əliyev Fonduna təqdim edib. Prezident İlham Əliyev və birinci xanım Mehriban Əliyeva, həmçinin mədəniyyət və incəsənət xadimləri ilə görüşüblər.

# Ulu öndər Heydər Əliyevin doğum gününə həsr olunan ağacəkmə aksiyası





**Mayın 10-da Azərbaycan Respublikasının Prezidenti İlham Əliyev, birinci xanım Mehriban Əliyeva və ailə üzvləri Zığ dairəsi-Heydər Əliyev Beynəlxalq Aeroportu avtomobil yolunun 28-ci kilometrliyində salınan yaşıllıq sahəsində ulu öndər Heydər Əliyevin doğum gününə həsr olunan ağacəkmə kampaniyasında iştirak ediblər.**

Dövlətimizin başçısının tapşırığına əsasən Suraxanı rayonunda keçmiş yod-brom zavodunun ərazisində həyata keçirilən layihələr çərçivəsində lay suları, duz, yod və digər tullantılarla çirklənmiş 67 hektar sahənin təmizlənərək bərpa edilməsi, kollektor-drenaj sisteminin qurulması işləri uğurla icra olunub. Ümumilikdə, indiyədək bu ərazidə yerli iqlim şəraitinə uyğun 50 mindən çox müxtəlif növ ağac əkilərək böyük yaşıllıq zolağı salınıb.

Prezident İlham Əliyev, birinci xanım Mehriban Əliyeva və ailə üzvləri ərazidə ağac əkiblər.

Aksiyada 4 hektar ərazidə, ümumilikdə, 3250 ağac əkilib. Ağaclar əraziyə çəkilmiş müasir, avtomatlaşdırılmış damcılı suvarma sistemi vasitəsilə suvarılır. Suvarma üçün su isə Hövsan Aerasiya Stansiyasından götürülür və təmizləyici qurğularda təmizləndikdən sonra suvarmaya ötürülür. Damcılı suvarma sisteminin elektrik enerjisi ilə təchizatı Suraxanı Günəş Elektrik Stansiyası hesabına təmin ediləcək.

Prezident İlham Əliyev və birinci xanım Mehriban Əliyeva aksiyada iştirak edən gənclərlə görüşüblər. Dövlətimizin başçısı gənclərə ekoloji durumun yaxşılaşdırılması ilə bağlı gördüyü işlərə görə təşəkkürünü bildirib. Azərbaycan gənclərinin çox önəmli sosial-ekoloji layihələr icra etdiyini deyən dövlətimizin başçısı Bakının daha da gözəlləşdiyini, yaşıllaşdığını vurğulayıb.

# Ümummilli lider Heydər Əliyevin doğum günü ədliyyə orqanlarında geniş qeyd olunub











**Ulu öndər Heydər Əliyevin Azərbaycan xalqı qarşısında müstəsna xidmətləri, ölkəmizin müstəqilliyinin qorunub möhkəmləndirilməsində, demokratik hüquqi dövlətin qurulmasında və onun hərtərəfli inkişafında misilsiz fəaliyyəti xalqımız tərəfindən daim yüksək fəxr hissi ilə qeyd olunaraq, əziz xatirəsi hədsiz məhəbbətlə və böyük ehtiramla anılır.**

Müasir tariximizdə danılmaz rolu olan ümummilli lider Heydər Əliyevin anadan olmasının 96-cı ildönümü münasibətilə ədliyyə orqanlarında silsilə tədbirlər təşkil edilib, o cümlədən ədliyyə fəaliyyətinə cəlb olunmuş böyük bir qrup gənc könüllülərlə nazirliyin rəhbərliyinin görüşü keçirilib, ədliyyə



işçiləri qanvermə aksiyasına qoşularaq fəallıq nümayiş etdiriblər. Eyni zamanda, nazirlikdə Heydər Əliyev muzeyində zəngin və maraqlı ekspozisiyalarla tanışlıq olub, kinozalda Ümummilli Liderə həsr olunmuş filmlər, eləcə də foto-slaydlar nümayiş etdirilib, ədliyyə işçiləri və hakimlər tərəfindən mətbuatda çıxışlar edilib.

Ədliyyə işçiləri mayın 10-da Fəxri xiyabanda ulu öndər Heydər Əliyevin məzarını ziyarət edərək önünə gül dəstələri düzüb, əbədi ehtiramlarını bildiriblər.

Ədliyyə Nazirliyində Ulu Öndərin doğum gününə həsr olunmuş geniş yığıncaq keçirilib. Əvvəlcə əbədiyaşar liderin nazirlikdəki büstü önünə tər çiçəklər qoyulub, əziz və işıqlı xatirəsi yad edilib.

Tədbirdə Ulu Öndərin şərəfli və mənalı ömür yolundan, dövlətçilik irsindən ətraflı bəhs olunub, Ümummilli Liderin zəngin fəaliyyətinə həsr olunmuş xüsusi film nümayiş etdirilib.

Ədliyyə naziri Fikrət Məmmədov çıxış edərək doğma Vətəninə və xalqına daim sədaqətlə xidmət edən ulu öndər Heydər Əliyevin çətin tarixi şəraitdə xilaskarlıq missiyasından, milli dövlətçilik tariximizdə misilsiz xidmətlərindən, o cümlədən hüquqi döv-

lət quruculuğu naminə müstəsna fəaliyyətindən, ədliyyə və məhkəmə sisteminə qayğısından danışıb, Ümummilli Liderin müəyyən etdiyi inkişaf strategiyasına uyğun olaraq bu gün möhtərəm Prezidentimiz İlham Əliyevin rəhbərliyi ilə ölkəmizin hərtərəfli davamlı tərəqqisini və əldə olunan yüksək nailiyyətləri qeyd edib.

Dahi öndərin ideyalarının və ölkəmizin nailiyyətlərinin dünyada geniş təbliğ olunmasında Azərbaycan Respublikasının Birinci vitse-prezidenti Mehriban xanım Əliyevanın rəhbərliyi ilə 15 illiyi qeyd olunan Heydər Əliyev Fondunun səmərəli xidmətləri, çoxşaxəli nəcib və xeyirxah fəaliyyəti vurğulanıb.

Yığıncaqda Azərbaycanın özü qədər əbədi olan dahi şəxsiyyətin şərəfli ömrünün və siyasi irsinin indiki və gələcək nəsillərə nümunə olduğu, ümummilli lider Heydər Əliyevin işıqlı xatirəsinin xalqımızın yaddaşında daim yaşayacağı qeyd edilib, ədliyyə işçilərinin Ulu Öndərin dövlətçilik prinsiplərinə sadiq qalacaqları, respublikamızın inkişafı və müasirləşməsi naminə yorulmaz fəaliyyətində ölkə Prezidentinə layiqli yardımçı olmaqla qanunun aliliyinin, insan hüquq və azadlıqlarının qorunması üçün əllərindən gələni əsirgəməyəcəkləri bildirilib.



Ağacəkmə aksiyası



Tərbiyə müəssisəsində "açıq qapı" günü



4 saylı cəzaçəkmə müəssisəsində qadın məhkumlar üçün xeyriyyə tədbiri

**Ümummilli lider Heydər Əliyevin anadan olmasının 96-cı ildönümü münasibətilə Penitensiar xidmətdə elmi-praktiki konfrans keçirilib.**

Ədliyyə nazirinin müavini, Penitensiar xidmətin rəisi Ceyhun Həsənov adı müstəqil Azərbaycan Respublikasının tarixinə xilaskar kimi yazılmış ümummilli liderimizin keçdiyi şərəfli ömür yolundan və siyasi fəaliyyətindən, millət qarşısında misilsiz xidmətlərindən söz açaraq, bu zəngin irsin bütün bəşəriyyət üçün böyük töhfə olduğunu qeyd edib.

Nazir müavini ulu öndərin xalqın yaddaşında əbədi yaşayacağını və onun milli dövlətçilik ənənələrinin Azərbaycan Respublikasının Prezidenti cənab İlham Əliyev tərəfindən uğurla davam etdirildiyini vurğulayaraq, bu gün dövlət başçısının çoxcəhətli fəaliyyəti sayəsində Azərbaycanın ictimai-siyasi həyatının bütün sahələrində islahatların həyata keçirildiyini, iqtisadi sabitlik və davamlı iqtisadi inkişafın təmin olunduğunu bildirib.

Toplantıda iştirak edən Yeni Azərbaycan Partiyasının Siyasi Şurasının üzvü, millət vəkili Musa Quliyev dahi şəxsiyyət Heydər Əliyevin misilsiz fəaliyyətindən söz açaraq, dövlətimizin xarici siyasət strategiyasının müəyyənləşdirilməsində və həyata keçirilməsində ulu öndərin tarixi xidmətlərindən danışıb.

Ulu Öndərin doğum günü münasibətilə Penitensiar xidmət rəhbərliyinin iştirakı ilə ağacəkmə aksiyası keçirilib, Bakı şəhəri Binə qəsəbəsində yerləşən cəzaçəkmə müəssisələrinin qarşısında və ətraf ərazilərdə genişmiqyaslı abadlıq işləri aparılıb və 1500-dən çox

müxtəlif növ ağaclar əkilib.

Bununla yanaşı, xidmətin Tərbiyə müəssisəsində saxlanılan yeniyetmə məhkumların valideynləri və qohumları üçün "Açıq qapı" günü təşkil olunub, 4 saylı cəzaçəkmə müəssisəsində cəza çəkən qadın məhkumlara mənəvi dəstək verilməsi və onların cəmiyyətə inteqrasiyasına yardım göstərilməsi məqsədilə xeyriyyə tədbiri keçirilib.

# Məhərrəm Əliyev: "Ulu Öndər dövlətlə xalqın birliyini təmin etdi"

## Ədliyyə nazirinin müavini ümummilli lider Heydər Əliyevlə bağlı xatirələrini bölüşüb

***Mayın 10-u Azərbaycan xalqının ümummilli lideri Heydər Əliyevin anadan olmasının 96-cı ildönümüdür. Bu əlamətdar gün münasibətilə Heydər Əliyevlə yaxından təmasda olan, müstəqil Azərbaycan dövlətinə rəhbərlik etdiyi dövrlərdə müxtəlif vəzifələrdə çalışan ictimai-siyasi xadimlər, görkəmli şəxsiyyətlər onunla bağlı xatirələrini bölüşür, dahi şəxsiyyətin əziz xatirəsini dərin ehtiramla yad edirlər.***



*Uzun illər Bakı Şəhər Baş Polis İdarəsinin rəisi olan, daha sonra Azərbaycan Prezidentinin Müdafiə məsələləri üzrə köməkçisi xidmətinin Müdafiə məsələləri şöbəsinin müdiri işləyən, hazırda Ədliyyə nazirinin müavini vəzifəsində çalışan general-leytenant Məhərrəm Əliyevin də dahi şəxsiyyətlə bağlı xoş və unudulmaz xatirələri var.*

Hər bir xalqın, dövlətin inkişafında dahi şəxsiyyətlərin, siyasi liderlərin çox böyük rolu olduğunu deyən M.Əliyev hesab edir ki, Azərbaycan xalqı xoşbəxt xalqdır ki, onun taleyində əsaslı dönüş yaradan, müstəqilliyi itirmək təhlükəsindən xilas edən, dövlətçiliyi əbədi və dönməz edən Heydər Əliyev kimi dahi rəhbəri olub: "Hələ Moskvada xüsusi orta milis məktəbində təhsil aldığım illərdə Ulu Öndərin çıxışlarını izləyir, hətta imtahanlar verərkən Heydər Əliyevdən sitatlar gətirirdim. Bu, dahi şəxsiyyətə xüsusi rəğbətimin təzahürü idi. Yaxşı xatirimdədir ki, hələ o dövrdə Heydər Əliyevə çox böyük maraq var idi. Hər kəs onun iti zəkasına, idarəçilik məharətinə həsəd aparır, barəsində çox müsbət fikirlər səsləndirirdi. Çünki Heydər Əliyevin qüsursuz, anlaşıqlı, dolğun şəkildə çıxışları həm də onu ustad bir müəllim kimi xarakterizə edirdi".

### "Heydər Əliyev dəmir iradəyə və zəngin idarəçilik təcrübəsinə malik idi"

Heydər Əliyevlə yaxından tanış olmaq imkanı nəsib olduğu üçün özünü bəxtəvər insanlardan hesab edən M.Əliyev dahi şəxiyyətlə ilk görüşündən danışıb: "Sovet rəhbərliyinin 1990-cı ilin yanvarında xalqımıza qarşı qanlı faciə törətdiyi ən ağır vaxtda Heydər Əliyev həyatını təhlükə altına ataraq, Azərbaycanın Moskvadakı daimi nümayəndəliyinə gələrək mətbuat konfransı keçirib, 20 Yanvar faciəsinə siyasi qiymət verərək, mərkəzin və respublika rəhbərliyinin hüquqazidd

əməllərini ifşa etmişdi. Tarixin məsuliyyətli və çətin, lakin şərəfli dövründə xalqı ilə olmağı, ona kömək etməyi vacib bilən Heydər Əliyev həmin ilin iyulunda Bakıya gəlir və onu qarşılayanlardan biri kimi Ulu Öndərlə ilk tanışlığımız olur. Həmin vaxt qardaşı Cəlal Əliyevin evində qalan Heydər Əliyevə qarşı təhdidlər səngimir, onu Bakını tərk etmədiyi təqdirdə istənilən hadisənin baş verə biləcəyi ilə hədələyirlər. Heydər Əliyev Naxçıvana getmək məcburiyyətində qalır. Yaxşı xatirimdədir, Cəlal Əliyevlə görüşümüzdən sonra ertəsi günü Heydər Əliyevi Naxçıvana yola salmaq üçün aeroporta apardıq və onu təyyarənin salonunadək ötürdük. Sonralar Naxçıvanda olarkən də Ulu Öndərlə görüşlərimiz oldu. Yaşının çox və səhhətində müəyyən problemlərin olmasına baxmayaraq, hər zaman qamətli duruşu, daxili gücə və özgüvənə sahib olması, simasında ifadə olunan möhkəm iradə və qətiyyət, səsindəki amiranəlik Ümummilli Liderin bundan sonra da xalqına xidmət etmək iqtidarında olduğunu ifadə edirdi. Təbiətən çox təmkinli olsa da, baş verən haqsızlıqlara qarşı hər zaman barışmaz mövqedə idi. O, güclü siyasi fəhmə, taleyüklü məsələləri həll etmək bacarığına, dəmir iradəyə və zəngin idarəçilik təcrübəsinə malik idi".

**"Ulu öndər dövlətlə xalqın birliyini təmin etdi"**



Nazir müavininin sözlərinə görə, azərbaycançılıq məfkurəsinin parlaq daşıyıcısı olan Heydər Əliyev öz müdrik siyasəti, dönməz əqidəsi və tarixi uzaqgörənliyi sayəsində milli dövlətçilik ideyasının gerçəkləşdirilməsinə, müasir Azərbaycan dövlətinin qurulmasına və xalqımızın müstəqillik arzusuna çatmasına nail olub: "1991-ci ildə öz dövlət müstəqilliyini bərpa edən xalqımız çox çətin sınaqlardan keçmiş, qanı bahasına qazandığı müstəqilliyi yenidən itirmək təhlükəsi ilə üzləşmişdi. Həmin dövrdə Azərbaycanda müstəqil dövlətçilik maraqları ilə üst-üstə düşməyən, bir çox hallarda isə onlara zidd olan qeyri-ardıcıl, səriştəsiz siyasətin aparılması, silahlı birləşmələrin özbaşınalığı, xaos və vətəndaş qarşıdurması, erməni təcavüzü bu təhlükəni daha da dərinləşdirirdi. Məhz belə bir ağır dövrdə - 1993-cü ildə xalqımızın təkidi və iradəsi ilə ümummilli lider Heydər Əliyev hakimiyyətə qayıdaraq müstəqilliyimizi məhv olmaqdan xilas etmək kimi çox çətin və şərəfli missiyanı öz üzərinə götürdü. O dövrdə təsəvvür etmək çətin idi ki, ömrünün müdrik çağında olan və çoxsaylı təhdidlərə məruz qalan Heydər Əliyev yenidən hakimiyyətə qayıtsın. Buna rəğmən bu güclü şəxsiyyətin heç nədən çəkinmədən, öz həyatını belə təhlükəyə ataraq meydana atılması xalqı və dövləti qarşısında misilsiz fədakarlığı idi. Məhz Ulu Öndərin apardığı müdrik siyasət nəticəsində müstəqilliyimiz qorunub, atəşkəsə nail olunub, dövlətlə xalqın birliyi təmin edilib".

**"Heydər Əliyev Azərbaycanı çox sevirdi, azərbaycanlı olması ilə fəxr edirdi"**

10 ilə yaxın müddətdə bu dahi şəxsiyyətlə birgə çalışdığı, onun rəhbərliyi ilə keçirilən tədbirlərdə iştirak etdiyi üçün qürur hissi duyduğunu deyən M.Əliyev Ümummilli Liderin müvafiq qərarı ilə 1993-cü ildən uzun müddət Bakı şəhəri

Baş Polis İdarəsinin rəisi vəzifəsində fəaliyyət göstərdiyini xatırladıb: "1993-1998-ci illər Azərbaycanda ən gərgin illər idi. Bu illərdə Bakı kimi böyük bir şəhərin təhlükəsizliyi, sözsüz ki, təmin olunmalı idi. Az qala hər gün mitinqlər keçirilir, müxtəlif təxribat xarakterli addımlar atılırdı. Bütün bunların öhdəsindən gəlmək isə asan iş deyildi. Ancaq dahi rəhbərin qarşımızda qoyduğu tapşırıqları yerinə yetirmək ən ümdə vəzifəmiz idi". M.Əliyevin sözlərinə görə, Heydər Əliyevin böyüklüyü, dövlətçilik səriştəsi həm də onda idi ki, o, hüquqi dövlət quruculuğu işində humanizm prinsiplərindən yerində və düzgün istifadə etməyi uzaqgörənliklə, müdrikliklə bacarırdı: "Ümummilli liderin hər zaman xalqının yanında olduğuna, onu böyük bir izdihamın müşayiət etdiyinə, hər bir vətəndaşa qayğı ilə yanaşdığına şahid olmuşam. Heydər Əliyev Azərbaycanı Vətən, dövlət olaraq çox sevirdi, azərbaycanlı olması ilə fəxr edirdi. Azərbaycan kəlməsini gözləri yaşara-yaşara söyləməsi onun Vətənə olan sevgisinin əyani təzühürü idi. Xalqın əbədi sevgisini qazanan ulu öndər Heydər Əliyev daxili və xarici qüvvələrin dövlət çevrilişi, sui-qəsd və təxribat cəhdlərinə baxmayaraq, öz həyatı, sağlamlığı bahasına gecəli-gündüzlü fədakar əməyi hesabına dövlət müstəqilliyimizi yenidən bərqərar etdi. Azərbaycan dağılmaqda olan ölkədən inkişaf edən ölkəyə, vətəndaş müharibəsi astanasında olan ölkədən vətəndaş həmrəyliyi olan ölkəyə çevrildi".

**"Prezident İlham Əliyevin ətrafında sıx birləşməli, ona öz fəaliyyətimizlə dəstək olmalıyıq"**

Heydər Əliyevin siyasi kursunun bu gün Prezident İlham Əliyev tərəfindən uğurla davam etdirildiyini, Azərbaycan dövlətinin müasir dövrün çağırışlarına uyğun olaraq bütün sahələrdə dərin islahatlar yolu ilə daim irəliyə doğru getdiyini deyən general hesab edir ki, bizim ən böyük vəzifəmiz Ümummilli Liderin ideyalarının inkişafı və Azərbaycan tarixinin yeni şanlı səhifələrinin yazılması naminə Prezident İlham Əliyevin ətrafında sıx birləşmək, ona öz fəaliyyətimizlə dəstək olmaqdır. Nazir müavini xüsusi vurğulayıb ki, hər kəs üzərinə düşən vəzifənin məsuliyyətini dərindən anlamalıdır: "Ulu öndər qeyd edirdi ki, "Vəzifəli adam öz xalqına qulluq etməlidir". Birinci növbədə vəzifə sahibləri məhz xalqa ləyaqətlə xidmət etməlidirlər, sui-istifadə hallarına yol verilməməlidir".

Azərbaycan dövlətinin ildən-ilə daha da gücləndiyini, beynəlxalq nüfuzunun artdığını, dünyada sayılıb-seçilən, mövqeyinə hörmətlə yanaşılan ölkələrdən birinə çevrildiyini deyən M.Əliyev son 20 ili ölkəmizin sürətli inkişaf dövrü kimi xarakterizə edib. Lakin müəyyən problemlərin, çatışmazlıqların da olduğunu qeyd edən general Ermənistan-Azərbaycan, Dağlıq Qarabağ probleminin həllinin dövlətimizin qarşısında ən vacib məsələ olduğunu diqqətə çatdırıb: "Torpaqlarımızı düşmən tapdağından azad etmək üçün daim Ordumuzun gücünü artırmalıyıq. Təsadüfi deyil ki, Prezident İlham Əliyev bu sahənin inkişafına xüsusi diqqət yetirir, Silahlı Qüvvələrimizin maddi-texniki bazasını gücləndirir, hərbçilərimizin xidmət şəraitini, sosial vəziyyətini daha da yaxşılaşdırır. Bütün bunlar onu göstərir ki, Azərbaycan dövləti və xalqı işğal faktı ilə heç vaxt barışmaq fikrində deyil, hər an torpaqlarını düşməndən azad etməyə hazırdır. Ona görə də xalqımız bir olmalı, dövlətimizin apardığı siyasəti dəstəkləməli, görülən işlərin ahəngini daha da zənginləşdirməlidir ki, gələcək nəsillər üçün bu problemləri saxlamayaq. Biz bu problemləri bu gün həll etməliyik".

# Ölkə Prezidentinin 2019-cu il 3 aprel tarixli Fərmanının icrası diqqət mərkəzindədir

## ◆ Fərmanın icrası üzrə görülən işlərin Məhkəmə-Hüquq Şurasında müzakirəsi

**Məhkəmə-Hüquq Şurasının mayın 13-də keçirilmiş iclasında məhkəmə-hüquq islahatlarının dərinləşdirilməsi haqqında dövlət başçısı cənab İlham Əliyevin 03.04.2019-cu il tarixli Fərmanı üzrə görülən işlər müzakirə edilib.**

Ədliyyə naziri Fikrət Məmmədovun sədrliyi ilə keçirilən tədbirdə bildirilib ki, Fərmanın icrasından irəli gələn məsələlər dərhal bütün apellyasiya məhkəmələri sədrlərinin, hakim assosiasiyaları rəhbərlərinin, vətəndaş cəmiyyəti və KİV nümayəndələrinin iştirakı ilə Şurada geniş müzakirə edilərək kompleks tədbirlər müəyyən olunub.

Qarşıya qoyulmuş məsələlərin icrasının təşkili məqsədilə Ədliyyə Nazirliyi, Məhkəmə-Hüquq Şurası, Ali Məhkəmə və Baş Prokurorluğun məsul vəzifəli şəxslərindən ibarət xüsusi işçi qrupu yaradılıb. Ədalət mühakiməsinin səmərəliliyinin artırılması, sahibkarlığın inkişafının sürətlənməsi, məhkəmələrə müraciət imkanının asanlaşması, "Elektron məhkəmə" informasiya sisteminin tam tətbiqi üzrə vətəndaş cəmiyyəti və KİV nümayəndələrinin iştirakı ilə geniş və silsilə ictimai müzakirələr keçirilib, televiziya və digər kütləvi informasiya vasitələrində yüzlərlə çıxışlar edilib.



Həmçinin məhkəmə fəaliyyətinin təkmilləşdirilməsi üzrə mütərəqqi beynəlxalq təcrübələrin öyrənilməsi məqsədilə xarici dövlətlərə ezamlar təşkil edilib, birgə işçi qrup tərəfindən bu sahədə bir sıra mühüm qanunvericilik layihələri hazırlanıb.

İclasda hakimlərin müstəqilliyinin təmin edilməsi, məhkəmələrin fəaliyyətinə müdaxilə və digər neqativ halların aradan qaldırılması məqsədilə Şurada "Qaynar Xətt"in yaradılması, zəruri layihələrin hazırlanması vurğulanıb. Qeyd edilib ki, məhkəmələrdə monitorinqlər keçirilərək qeyri-prosessual münasibətlərə şərait yaradan və vətəndaşların haqlı narazılığını doğuran pozuntular yerində dərhal aradan qaldırılıb, daha kobud nöqsanlara yol vermiş 2 hakim barədə intizam icraatı başlanılıb.

Eyni zamanda iclasda Fərmandan irəli gələn məsələlər üzrə əlavə tədbirlər müəyyən olunub, təcrübəli hakimlərin və "ASAN" xidmətlə əməkdaşlıq çərçivəsində könüllülərin Şuranın fəaliyyətinə cəlb olunması təqdir edilib.

Şurada qanunvericiliyin tələblərinin kobudcasına pozulmasına və korrupsiyaya şərait yaradan hallara, süründürməçiliyə və digər pozuntulara yol verdiklərinə görə bir sıra hakimlər intizam məsuliyyətinə cəlb edilib, o cümlədən Tərtər rayon məhkəməsinin hakimi Mübariz Məmmədovun hakimlik səlahiyyətlərinə vaxtından əvvəl xitam verilməsi, Quba rayon məhkəməsinin hakimi Zamin Tahirovun tutduğu vəzifədən azad olunaraq başqa işə keçirilməsi barədə qərarlar qəbul edilib.

## ◆ Fərmanla qarşıya qoyulan vəzifələrə dair müşavirə

**Mayın 16-da Ədliyyə naziri Fikrət Məmmədov Lənkərana səfəri çərçivəsində ədliyyə işçiləri və hakimlərlə müşavirə keçirib.**

Nazir ölkə Prezidenti cənab İlham Əliyevin "Məhkəmə-hüquq sistemində islahatların dərinləşdirilməsi" haqqında 2019-cu il 3 aprel tarixli Fərmanının müstəsna əhəmiyyətini qeyd edərək bu mühüm sənədin ədliyyə və məhkəmə fəaliyyətinin gələcək inkişafı üçün "yol xəritəsi" olduğunu, bu sahədə islahatların yeni inkişaf mərhələsinə keçdiyini vurğulayıb, kompleks qanunvericilik, institusional və praktiki tədbirlər nəzərdə tutan proqram xarakterli Fərmandan irəli gələn vəzifələrin vaxtında, dürüst və dönmədən icrasının təmin olunmasını diqqətə çatdırıb.

Müşavirədə, həmçinin ədliyyə və məhkəmə fəaliyyətinin dövlət başçısının tələbləri səviyyəsində təkmilləşdirilməsi, məhkəmə qərarlarının ədalətliliyinin və icrasının təmin olunması, vətəndaş məmnunluğunun yüksəldilməsi, etik davranış qaydalarına dönmədən əməl olunması, korrupsiyanın yolverilməzliyi ilə bağlı tapşırıq və tövsiyələr verilib.

# Fərmandan irəli gələn məsələlərə dair ictimai müzakirələr

## ◆ Lənkəranda vətəndaşların və sahibkarların hüquqlarının müdafiəsində Fərmanın əhəmiyyəti mövzusunda tədbir





**Prezident İlham Əliyevin "Məhkəmə-hüquq sistemində islahatların dərinləşdirilməsi haqqında" 2019-cu il 3 aprel tarixli Fərmanının icrası üzrə Ədliyyə Nazirliyi tərəfindən ardıcıl tədbirlər görülür, bu mühüm sənədin müstəsna əhəmiyyəti, o cümlədən məhkəmə icraatının effektivliyinin yüksəldilməsi, "Elektron məhkəmə" informasiya sisteminin tətbiqi, mediasiya institutunun təşviqi, sahibkarların hüquqlarının etibarlı müdafiəsi və digər məsələlər barədə geniş maarifləndirmə işləri aparılır.**

Mayın 16-da Lənkəran şəhəri Heydər Əliyev Mərkəzində Ədliyyə Nazirliyi və Məhkəmə-Hüquq Şurasının təşkilatçılığı ilə "Vətəndaşların və sahibkarların hüquqlarının müdafiəsində Azərbaycan Respublikası Prezidentinin "Məhkəmə-hüquq sistemində islahatların dərinləşdirilməsi haqqında" 03.04.2019-cu il tarixli Fərmanının əhəmiyyəti" mövzusunda ictimai müzakirələr keçirilib.

Əvvəlcə ümummilli lider Heydər Əliyevin Lənkəran şəhərindəki abidəsi ziyarət olu-

naraq önünə gül dəstələri qoyulub, əziz xatirəsi dərin ehtiramla yad edilib.

Tədbirdə Ədliyyə naziri, Məhkəmə-Hüquq Şurasının sədri Fikrət Məmmədov, nazir müavinləri və nazirliyin digər məsul şəxsləri, Lənkəran şəhər İcra Hakimiyyətinin başçısı Taleh Qaraşov, Şirvan Apelyasiya və ətraf rayon məhkəmələrinin sədrləri, hakimlər, vəkillər, regional və yerli ədliyyə qurumlarının rəhbərləri, çoxsaylı sahibkarlar, vətəndaş cəmiyyətinin və ictimaiyyətin digər nümayəndələri, KİV-lər iştirak ediblər.

Tədbiri açan Ədliyyə naziri ölkə Prezidenti cənab İlham Əliyevin rəhbərliyi ilə respublikamızın davamlı tərəqqisini, sahibkarlığın inkişafına dövlət qayğısını vurğulayıb, ölkədə aparılan hərtərəfli islahatların məhkəmə-hüquq sistemini də əhatə etdiyini, ötən dövrdə bu sahədə bir çox mühüm tədbirlərin həyata keçirildiyini bildirib, dövlət başçısının 3 aprel tarixli Fərmanının ədliyyə və məhkəmə fəaliyyətinin gələcək inkişafı üçün "yol xəritəsi" olduğunu və bu mühüm sənədin icrası, o cümlədən sahibkarların hüquqlarının məhkəmə müdafiəsinin gücləndirilməsi üzrə görülən işləri qeyd edib.

Lənkəran şəhər İcra Hakimiyyətinin başçısı ölkədə sosial-iqtisadi inkişafın təmin edildiyini, respublikanın bütün bölgələrində, o cümlədən Lənkəran rayonunda uğurların əldə olunduğunu diqqətə çatdırıb, məhkəmə-hüquq sistemində aparılan islahatların vətəndaşların, habelə sahibkarların məhkəmələrə müraciət imkanlarının asanlaşdırılmasına xidmət etdiyini bildirib.

Tədbirdə dövlət başçısının Fərmanının məhkəmələrə əlçatanlığın və müraciət imkanlarının yaxşılaşdırılmasında rolu, sahibkarların hüquqlarının müdafiəsində məhkəmə təminatının vacibliyi, məhkəmə qərarlarının icrası işinin yaxşılaşdırılmasının sahibkarların və digər tələbkarların hüquqlarının bərpasında əhəmiyyəti, məhkəmə-hüquq islahatlarının dərinləşdirilməsində müasir texnologiyaların tətbiqi barədə çıxışlar edilib, "Elektron məhkəmə", "Elektron icra" informasiya sistemlərinin imkanları və ədliyyə sahəsində digər innovasiyalar əyani təqdimatla nümayiş etdirilib.

Bildirilib ki, son vaxtlar sahibkarlıq fəaliyyəti ilə bağlı mübahisələrin həllinin tezləşdirilməsi ilə bağlı mühüm addımlar atılıb, o cümlədən iqtisadi mübahisələr üzrə işlərə elektron qaydada baxılmasına keçilib, sahibkarların hüquqlarının təmin olunmasında məhkəmə qərarlarının icrasının yaxşılaşdırılması üzrə tədbirlər görülüb.

Sonra tədbir iştirakçıları ilə sual-cavab sessiyası keçirilib, müzakirələr aparılıb. Qeyd olunub ki, dövlət başçısının Fərmanına əsasən vergi və gömrük ödənişləri, habelə sahibkarlıq fəaliyyəti ilə bağlı digər mübahisələrə dair işlər üzrə ixtisaslaşmış məhkəmənin yaradılması, bu məqsədlə mülki-prosessual qanunvericiliyin təkmilləşdirilməsi sahibkarların hüquqlarının etibarlı müdafiəsinə, onların məhkəmələrə müraciət imkanlarının genişləndirilməsinə xidmət edir.

Tədbirə yekun vuran nazir məhkəmə-hüquq sisteminin inkişafında yeni mərhələ olan ölkə Prezidentinin Fərmanının icrası nəticəsində ədalət mühakiməsinin keyfiyyətinin və səmərəliliyinin artırılmasına, əlçatanlığın asanlaşdırılmasına, yüksək vətəndaş məmnunluğuna, sahibkarlığın inkişafının sürətlənməsinə nail olunacağını vurğulayıb.

## ◆ Azərbaycanda Amerika Ticarət Palatası ilə birgə müxtəlif biznes sahələri və diplomatik korpus nümayəndələri üçün məhkəmə-hüquq islahatlarına dair konfrans

**Mayın 6-da "Azərbaycanda məhkəmə-hüquq islahatları: Azərbaycanda Amerika Ticarət Palatası ilə ictimai müzakirələr" mövzusunda konfrans keçirilib.**

Tədbir Azərbaycan Prezidentinin 2019-cu il 3 aprel tarixli "Məhkəmə-hüquq sistemində islahatların dərinləşdirilməsi haqqında" Fərmanından irəli gələn məsələlərin ictimai müzakirəsi məqsədilə Azərbaycanda Amerika Ticarət Palatası (AmCham) ilə birgə təşkil olunub. Konfransda Birinci vitse-prezidentin kömək-




çisi Gündüz Kərimov, Prezident Administrasiyasının Hüquq-mühafizə orqanları ilə iş və hərbi məsələlər şöbəsinin sektor müdiri Vüsal İsayev, Ədliyyə nazirinin müavini Azər Cəfərov, müxtəlif biznes sahələrinin 150-dən çox təmsilçisi və diplomatik korpusun nümayəndələri iştirak ediblər.

AmCham-ın icraçı direktoru Natəvan Məmmədova və prezidenti Nuran Kərimov tədbirin keçirilməsinin məqsədi və aparılan islahatların ölkə iqtisadiyyatı üçün xüsusi əhəmiyyəti barədə danışıblar. Qeyd edilib ki, konfrans hüquq sahəsində aparılan islahatların biznes ictimaiyyətinin fəaliyyətinə təsirlərinin, özəl sektorun bu istiqamətdə rəy və təkliflərinin nəzərə alınması üçün təşkil olunub.

Azərbaycan Respublikasının Birinci vitse-prezidentinin köməkçisi Gündüz Kərimov çıxışında vurğulayıb ki, Prezident İlham Əliyevin məhkəmə-hüquq sistemində islahatlarla bağlı imzaladığı Fərman bu sahədə mühüm dəyişikliklərin həyata keçirilməsini nəzərdə tutur. Odur ki, həm cəmiyyət, həm də biznes ictimaiyyətinin bu islahatların müzakirəsində iştirakı əhəmiyyətlidir. Hazırkı konfrans və bu qəbildən olan digər silsilə tədbirlər Azərbaycan Respublikasının Birinci vitse-prezidenti Mehriban xanım Əliyevanın təşəbbüsü və tapşırığı ilə keçirilir və bütün ölkə üçün əhəmiyyət kəsb edən məhkəmə-hüquq islahatlarının reallaşmasına ictimaiyyətin cəlb edilməsi məqsədi daşıyır.

Hüquq və iqtisadiyyatın qarşılıqlı əlaqədə fəaliyyət göstərdiyini qeyd edən Gündüz Kərimov idarəetmənin və tənzimləmənin təkmilləşdirilməsinin Azərbaycanda iqtisadi inkişafa təkan verdiyini, ölkəmizin iqtisadi müstəqilliyinin, iqtisadi-sosial gücünün möhkəmlənməsində özünəməxsus rol oynadığını deyib.

"Prezidentin Fərmanında dövlət orqanlarına, qurumlarına və təşkilatlarına məhkəmə-hüquq sisteminin müxtəlif sahələri üzrə tapşırıq və tövsiyələr verilib. Fərmanda göstərilmiş müddətlərdə bu orqan və qurumlar həmin tapşırıqların icrası məqsədilə qanunların və digər normativ hüquqi aktların layihələrini hazırlayıb Prezident Administrasiyasına təqdim etməlidirlər. Bu konfransın keçirilməsinin əsas məqsədlərdən biri də bu qurumlar tərəfindən təqdim ediləcək layihələrə baxılarkən biznes və hüquq ictimaiyyətinin islahatlara aid əsaslandırılmış, rasional və obyektiv təkliflərinin nəzərə alınmasının təmin edilməsidir", - deyə Birinci vitse-prezidentin köməkçisi bildirib.

AmCham-ın Direktorlar Şurasının üzvü, "Ekvita" şirkətinin idarəedici partnyoru İlqar Mehti məhkəmə sistemindəki hazırkı vəziyyət və təmsil etdiyi qurumun münasib sayılan dəyişikliklərlə bağlı fikirlərini bölüşüb. Ölkədə arbitraj məh-




kəmələrinin yaradılmasının vacibliyindən danışan Direktorlar Şurasının üzvü qeyd edib ki, bu, kommersiya qurumları arasında mübahisələrin həllində daha səmərəli olacaq. O, məhkəmələrdə işlərin aparılması, vəkillik fəaliyyəti, bir sıra prosessual qaydaların müasir tələblərə cavab verməsi ilə bağlı təkliflərini səsləndirib.

Prezident İlham Əliyevin məhkəmə-hüquq sistemində islahatların dərinləşdirilməsi ilə bağlı Fərmanı əsasında həyata keçirilən yeniliklərin sahibkarlar və biznes nümayəndələri ilə birgə müzakirəsinin mühüm əhəmiyyətə malik olduğunu diqqətə çatdıran Prezident Administrasiyasının Hüquq-mühafizə orqanları ilə iş və hərbi məsələlər şöbəsinin sektor müdiri Vüsal İsayev deyib: "Hazırda ölkədə Prezident İlham Əliyevin rəhbərliyi ilə bütün sahələrdə mühüm islahatlar həyata keçirilir. Məhkəmə-hüquq sistemində islahatların dərinləşdirilməsi ilə bağlı Fərmanın məqsədi bu sahədə müsbət dəyişiklikləri daha da sürətləndirmək, onun inkişafına yeni impuls vermək, vətəndaşların hüquqlarını daha effektiv qorumaq, ədalət mühakiməsi mexanizmlərini təkmilləşdirmək, sahibkarların hüquqlarını daha etibarlı müdafiə etməkdir. Məhz bu Fərmanla məhkəmə-hüquq sistemində yeni mərhələ başlanıb".

Sektor müdiri qeyd edib ki, Fərmanın hazırlanması üçün ilk növbədə ölkədə hüquq sistemi təhlil olunub və müəyyən nəticəyə gəldikdən sonra hər bir istiqamət üzrə atılmalı olan addımlar müəyyənləşdirilib. İslahatların əsas istiqamətlərindən biri də cəza siyasətinin humanistləşdirilməsidir. Prezident İlham Əliyevin bununla bağlı 2017-ci ildə imzaladığı Fərmanın icrası nəticəsində Cinayət Məcəlləsinə 300-ə yaxın dəyişiklik olunub. Humanistləşdirmə tədbirləri 14 minə yaxın şəxsə tətbiq olunub. Həmçinin 9 minə yaxın şəxs istintaq və məhkəmə mərhələsində məsuliyyətdən azad olunub, 1800 şəxs cəzadan azad edilib. Onların 800 nəfəri azadlıqdan məhrumetmə cəzasına məhkum edilmiş şəxslərdir.

Vüsal İsayev Prezidentin son Fərmanında da cəza siyasətinin humanistləşdirilməsi məsələsinə önəm verilməsinin görülən işlərin effektiv olmasından və bu tədbirlərin daha da təkmilləşdirilməsi məqsədindən irəli gəldiyini bildirib.

Ədliyyə nazirinin müavini Azər Cəfərov tədbirdə çıxış edib *(Çıxışın tam mətni jurnalımızın bu sayında oxuculara təqdim olunur).*

Konfransda Bakı şəhər Yasamal Rayon Məhkəməsinin hakimi, Avropa Şurası Ədalət Mühakiməsinin Səmərəliliyi üzrə Avropa Komissiyasının (CEPEJ) prezidenti Ramin Qurbanov elektron məhkəmə və elektron icra sistemi, "Ata Holding"in hüquq departamentinin direktoru Qorxmaz Ağayev icra sisteminin təkmilləşdirilməsi, özəl icra şirkətləri, alternativ ekspert rəyləri, "Dentos Bakı"nın idarəedici partnyoru Ceyms Hoqan mediasiya və arbitraj fəaliyyətinin inkişafı barədə təqdimatlarla çıxış ediblər.

Sonra özəl sektor nümayəndələri ilə açıq sual-cavab sessiyası keçirilib, sahibkarları maraqlandıran məsələlər barədə müzakirələr aparılıb.

# Ədliyyə nazirinin müavini Azər Cəfərovun konfransda ÇIXIŞI

**Hörmətli tədbir iştirakçıları,**
**Xanımlar və cənablar!**

Azərbaycanda ədalət mühakiməsi işinin daha yüksək səviyyədə təmin edilməsinə yönəlmiş vacib bir sənəddən - ölkə Prezidenti cənab İlham Əliyevin məhkəmə-hüquq sistemində islahatların dərinləşdirilməsi haqqında aprel ayının əvvəlində qəbul etdiyi Fərmandan irəli gələn həllərin ictimai müzakirəsində iştirakdan məmnun olduğumu bildirirəm.

Fərmnada yer almış məhkəməyə müraciət imkanlarının genişləndirilməsi, məhkəmə fəaliyyətinin effektivliyinin yüksəldilməsi, onun şəffaflığının artırılması, məhkəmə tezliyi, qərarlarının vaxtında icra edilməsi, hakimlərin, məhkəmə aparatı işçilərinin sosial müdafiəsinin yaxşılaşdırlması məsələləri bu gün məhkəmə hakimiyyəti üçün tale yüklü məsələlərdir.

Əlbəttə, müstəqil və qərəssiz məhkəməyə aparan yol bir qədər əvvəl başlamışdır.

Növbəti müstəqilliyinin son 25 ilində Azərbaycan məhkəmə-hüquq sahəsində mükəmməl qanunvericilik bazası yaratmış, o cümlədən məhkəmə hakimiyyətini hakimiyyətin müstəqil qolu kimi tanıyan konstitusiya, habelə çoxsaylı məcəllələr və qanunlar qəbul etmiş, məhkəmə üzərində hər cür nəzarəti ləğv edərək insanların hüquq və azadlıqlarını məhdudlaşdırıran məcburiyyət tədbirlərini məhkəmənin səlahiyyətlərinə vermiş, Konstitusiya Məhkəməsi, üç pilləli məhkəmə sistemi, demokratiyanın inkişaf etdiyi dövlətlərdə tətbiq olunan təcrübəyə əsaslanaraq məhkəmənin özünüidarə orqanlarını yaratmış, hakimlərin maddi və sosial təminatlarının gücləndirilməsi üçün tədbirlər görmüş və sair.

Qısa zaman kəsiyində baş vermiş bütün bunlar artıq arxadadır və onlar barəsində təfsilatı ilə məlumat verməklə vaxtınızı almaq niyyətində deyiləm.

Mənə verilən imkandan istifadə edib ölkəmizdə həyata keçirilən məhkəmə islahatlarının hazırki mərhələsində daha çox diqqət yetirilən, sözügedən Fərmanda qırmızı xətlə keçən və, fikrimizcə, çox maraqlı və mühüm bir problem - məhkəməyə müraciət imkanları, ona əlçatanlıq məsələləri ətrafında danışacağam.

Ümumiyyətlə, Azərbaycanda ədalət mühakiməsinin inkişafı siyasi-hüquqi, sosial-iqtisadi xarakterli məsələlərlə yanaşı özündə məhkəmə quruluşu və məhkəmə icraatının modernləşdirilməsi məsələlərini də ehtiva edir ki, bu da nəticə etibarilə vətəndaşların və hüquqi şəxslərin ədalət mühakiməsinə əlçatanlığının genişləndirilməsinə gətirib çıxarır.

Avropa Şurası Nazirlər Komitəsinin "Ədalət mühakiməsinə müraciət imkanlarının asanlaşdırılması yolları haqqında" və "Əhalinin aztəminatlı təbəqəsinin qanuna və ədalət mühakiməsinə əlçatanlığının səmərəliliyi barədə" adlı tövsiyələrində, İnsan haqları üzrə Avropa Məhkəməsinin bir sıra qərarlarında (məsələn, Qolder Birləşmiş Krallığa, Deyever Belçikaya qarşı) ədalət mühakiməsinə asan çıxışın insanın ayrılmaz hüququ olduğu, onun təmin olunmasının vacibliyi göstərilir.

Beynəlxalq birliyin nəzərdən keçirilən problemə diqqəti onunla şərtlənir ki, əslində ədalət mühakiməsinə çıxış işlə, təhsillə, yaşayış yeri ilə, tibbi xidmətlə təminat hüquqi ilə - bunlar nə qədər vacib olsalar da - müqayisə oluna bilməz. Ədalətli ədalət mühakiməsi bütün demokratik cəmiyyətlərdə olduğu kimi bizim siyasi sistemin əsasıdır. Bu da təbiidir, çünki istənilən ölkədə məhkəmənin əlçatanlığı bir növ cəmiyyətdə insan və vətəndaş hüquq və azadlıqlarının təmin olunma vəziyyətinin göstəricisidir.

Məhkəməyə əlçatanlıq məhkəmə sisteminin quruluşundan, xüsusilə də ixtisaslaşdırılmış və regional məhkəmələrdən çox asılıdır. Çünki bu məhkəmələr rayon (şəhər) məhkəmələri ilə müqayisədə əhalidən bir qayda olaraq daha çox aralı yerləşirlər.

Bu problemi həll etmək, bu cür məhkəmələri insanlara, hüquqi şəxslərə yaxınlaşdırmaq üçün son dövrlər xeyli işlər görülmüş və bu gün ölkə ərazisində 6 regional apelyasiya, çoxlu sayda ixtisaslaşmış, o cümlədən 7 inzibati-iqtisadi məhkəmə fəaliyyət göstərir. Bunlara baxmayaraq bizdə ixtisaslaşdırılmış məhkəmələrin sayı orta Avropa göstəricisindən təxminən 3 dəfə aşağıdır (500 min nəfərə bir məhkəmə).

Fərman bu sahədə islahatların davam etdirilməsini və yeni ixtisaslaşdırılmış məhkəmələrin yaradılmasını nəzərədə tutur. Bununla əlaqədar sahibkarlıq fəaliyyəti ilə bağlı məhkəmələrə edilən müraciətlər təhlil olunmuş, beynəlxalq təcrübə öyrənilmiş və müvafiq təkliflər hazırlanmışdır. Yeni məhkəmələrdə vergi və gömrük ödənişləri, məcburi dövlət sosial sığorta haqlarının ödənilməsi ilə bağlı yaranan mübahisələrə, habelə sahibkarlıq fəaliyyəti ilə əlaqədar digər məsələlərə baxılacağı gözlənilir. Belə bir ixtisaslaşma həm də bu kateqoriya mübahisələrin daha peşəkar hakimlər tərəfindən həll olunacağını ehtiva edir.

Hakilərin sayının kifayət qədər olmaması onların iş yükünü artırır, məhkəmələrə müraciət imkanlarını məhdudlaşdırır.

Ölkə üzrə onların sayı 2006-cı ildə iki dəfə artırılaraq 600-ə çatdırılmışdır. Lakin həmin vaxtdan etibarən məhkəmələrdə mülki xarakterli işlərin sayı təxminən 5 dəfə artmışdır. Beləliklə, bu gün bizdə 100 min nəfərə düşən hakimlərin sayı 6-ya yaxın olmaqla, Avropa ölkələri üzrə orta göstəricidən üç dəfə, Avropa Şurasında olan keçmiş postsovet ölkələri üzrə orta göstəricidən isə 2,5 dəfə azdır.

Bu ona gətirib çıxartmışdır ki, məsələn, ümumi yurisdiksiya məhkəməsi hakimi hər ay orta hesabla 145 işə baxaraq hədsiz ağır yük çəkməli olur.

Hakimlərin sayının az olması işlərin həlli keyfiyyətinin aşağı düşməsinə, həmçinin ədalətli məhkəmə prinsipinin, işlərə ağılabatan müddətlərdə və əsassız ləngitmələrə yol vermədən baxılması kimi vacib bir aspektin də pozulması ilə nəticələnir.

Sözügedən problemin yaratdığı fəsadlar gördüyünüz kimi az deyil, bunları hələ davam etdirmək də olar. Ona görə də Fərmanla onların sayının xeyli - 200 nəfər artırılması müstəsna əhəmiyyətə malikdir və bu addım məhkəmə fəaliyyətinin daha optimal şəkildə qurulması, ədalət mühakiməsinin keyfiyyətinin yüksəldilməsi və təbii ki, məhkəmələrdə işlərə baxılması müddətlərinin qısaldılması üçün çox vacibdir.

Ancaq onu da qeyd etməliyəm ki, yeni hakimlərin tez bir zamanda fəaliyyət göstərəcəklərini gözləmək düz olmazdı. Azərbaycanda yüksək standartlara müvafiq hazırlanmış və artıq 15 ilə yaxın müddətdir ki, uğurla tətbiq olunan hakimliyə namizədlərin seçim proseduru çoxmərhələli imtahan və intervyulardan, habelə təlim prosesindən ibarət olmaqla yeni ştatlardan istifadə olunmasına ən yaxşı halda yalnız iki-üç ilə imkan verəcəkdir.

Son vaxtlar məhkəmənin, xüsusilə də sahibkarlıq fəaliyyəti ilə bağlı mübahisələrin həlli zamanı tezliyin təmin olunması istiqamətində müəyyən işlər görülmüşdür.

Belə ki, il yarım bundan əvvəl və ötən ilin dekabrında qanunvericiliyə edilmiş dəyişikliklərə görə artıq iddia qiyməti kiçik olan (müvafiq olaraq iki min və on min manatdan aşağı) mülki və iqtisadi mübahisələr üzrə işlərə sadələşdirilmiş prosedurlarla, o cümlədən qısaldılmış müddətlərdə baxılır, bu işlər üzrə icraat apellyasiya instansiyası məhkəməsində bitmiş olur. Müvafiq Məcəllədə ümumi qaydada baxılan mülki və iqtisadi mübahisələr üzrə məhkəmənin hazırlıq iclasının və baxışının təyin edilməsi müddətləri, məhkəmə baxışının təxirəsalınmalarının maksimal həddi barədə və s. əhəmiyyətli yeniliklər edilmişdir.

Lakin Fərmandan göründüyü kimi, bu tədbirləri kifayət edəcək hesab etmək olmaz. Orada verilmiş tapşırıq və tövsiyələrə əsasən hazırda mülki və iqtisadi mübahisələr üzrə məhkəmə icraatının effektivliyinin artırılması, sahibkarlıq fəaliyyəti ilə bağlı məsələlərin məhkəmələrdə daha sürətli və səmərəli həllinin təmin edilməsi, işlər üzrə məhkəmə ekspertizasının keçirilməsi və ekspert rəyinin verilməsi müddətlərinin dəqiqləşdirilməsinə yönələcək təkliflərin hazırlanması üçün müvafiq qanunvericilik bir daha ətraflı təhlil edilir və bu sahədə beynəlxalq

təcrübə öyrənilir.

Məlum olduğu kimi müasir məhkəmə infrastrukturunun mövcudluğu, məhkəmələrin fəaliyyətində yüksək informasiya və komunikasiya texnologiyalarının tətbiqi məhkəməyə asan müraciət üçün şərait yaradır.

Məhkəmə infrastruturu həm də məhkəmənin nüfuzuna təsir edən faktorlardandır. Razılaşarsınız ki, hələ 1215-ci ildə tərtib olunmuş Böyük Azadlıqlar Xartiyasında "mülki iddialar məhkəməsi West Minister sarayında işləməlidir" sözləri təsadüfi yer almamışdır.

Son dövrlər 14 məhkəmə üçün ən müasir tələblərə cavab verən informasiya texnologiyaları ilə tam təchiz olunmuş məhkəmə bina və kompleksləri inşa edilmiş, 6 məhkəmə üçün onların inşası davam etdirilir.

Elektron məhkəməyə gəldikdə qeyd edilməlidir ki, bu sistem dövlət başçısının 2014-cü il fevral Sərəncamına əsasən yaradılmışdır və hazırda o ölkə məhkəmələrinin və icra qurumlarının əksəriyyətində, müvafiq olaraq 61 və 40 faizində tətbiq olunur.

Sistem özündə Məhkəmələrin Vahid Portalını, Məhkəmə Prosesi İştirakçısının Şəxsi Kabinetini, Elektron İcranı, Məhkəmə Qərarlarının Vahid bazasını və bir sıra digər altsistem və modulları birləşdirir. İstifadəçilər onun vasitəsi ilə məhkəmələrə müxtəlif məsələlər üzrə elektron qaydada onlayn rejimdə daha rahat müraciət etmək, cavab almaq, məhkəməyə müraciət nümunələri ilə tanış olmaq imkanı əldə edirlər, şəbəkənin digər çoxsaylı funksiyalarından yararlana bilirlər.

Bildiyiniz kimi, indi iqtisadi mübahisələr üzrə məhkəmə icraatı yalnız elektron qaydada bu sistem vasitəsi ilə, digər mülki işlər üzrə isə ənənəvi yolla yanaşı, həm də bu sistemin vasitəsi ilə həyata keçirilir.

Bir neçə gün əvvəl sistemin imknalarının vətəndaş cəmiyyəti və KİV nümayəndələri ilə ictimai müzakirəsi keçirilmişdir. Mənim çıxışımdan sonra gözlənilən təqdimatımızda da sistemin əsas məziyyətləri barədə daha ətraflı məlumat veriləcəkdir.

Fərman bu hər iki arxivacib məsələyə xüsusi diqqət yetirir, o məhkəmə infrastrukturunun bundan sonra da təkmilləşdirilməsinə, elektron məhkəmənin ölkəmizin bütün ərazisi üzrə genişləndirilməsinə və onun bütövlükdə ahəng işlənilməsinin təmin olunmasına yönəlmişdir.

Haqlı olaraq hesab olunur ki, hakimin maddi təminatı onun yüksək statusuna və yerinə yetirdiyi işlərin həcminə uyğun olmalı, məhkəmələr üçün vəsaitlər isə məhkəmə hakimiyyətinin müstəqilliyi prinsipinə ciddi əməl olunmaqla ayrılmalıdır.

Hələ XVIII əsrin axırlarında ABŞ Konstitusiyası belə bir norma müəyyən etdi ki, hakimin əmək haqqı onun səlahiyyət müddəti ərzində azaldıla bilməz. Beləliklə, hakimlərin əmək haqqının və digər sosial təminatlarının, yaxud məhkəmə sistemi büdcəsinin kəsilməsi cəhdi məhkəmə müstəqilliyinin pozulması kimi qiymətləndirilirdi. Bu prinsip geniş yayılmağa başladı və məhkəmə müstəqilliyini təmin edən fundamental postulatlardan biri kimi qəbul olundu.

Yeri gəlmişkən yada salım ki, statusuna uyğun rahat yaşaması üçün hakimin əməyinin kifayət qədər yaxşı ödənilməsinin vacibliyi barədə fikirlərə çox-çox əvvəllər, VII əsrin ortalarında, təxminən 655-ci ildə Ərəb Xilafətinin xəlifi Əli Talibin Misirin əmirinə ünvanlanmış məşhur tövsiyə məktubunda da rast gəlinir.

Hakimlərin Statusu Haqqında Avropa Xartiyasında (1998) qeyd edilir ki, hakim üçün elə bir əmək haqqı səviyyəsi müəyyən olunmalıdır ki, bu onu qərar və hərəkətlərinə, başqa sözlə, müstəqilliyinə və qərəzsizliyinə təsir və təzyiqlərdən qoruya bilsin. Həmin ideya sonradan Avropa Şurasının bir sıra mühüm sənədlərində, o cümlədən məhkəmə sisteminin müstəqilliyi barədə Venetsiya Komissiyasının məruzəsində də əks etdirilmişdir.

Qeyd olunan prinsip və tövsiyələr nəzərə alınaraq Azərbaycan dövləti hakimlərin, məhkəmələrin, məhkəmə özünüidarə orqanlarının maddi təminatının yaxşılaşdırılması üçün ardıcıl olaraq tədbirlər həyata keçirir.

Yeni məhkəmə sisteminin fəaliyyəti dövründə hakimlərin maaşları dəfələrlə artırılmış, onların əmək haqlarının azaldılması qanunla qadağan olunmuşdur. Məhkəmə büdcəsi son on ildə 25 dəfə artırılmışdır. Qanuna görə Məhkəmə-Hüquq Şurasına ayrılmış

illik vəsaitlər isə əvvəlki maliyyə ilinə nisbətdə azaldıla bilməz və s.

Nəticədə bir müddət əvvəl, misal üçün 2014-cü ildə, yəni manatın devalvasiyasınadək ölkəmizdə hakimin əmək haqqının səviyyəsi (yeni təyin olunmuş hakim üçün illik 25300 avro) Avropa ölkələri üzrə orta göstəriciyə yaxınlaşmışdı, onların bir çoxundakı (Bosniya və Hersoqovina, Bolqarıstan, Xorvatiya, Macarıstan, Rumıniya, Serbiya, Türkiyə) səviyyədən aşağı deyildi. Avropa Şurasında olan keçmiş postsovet dövlətləri sırasında isə ikinci göstərici ilə (Estoniyadan sonra) xarakterizə olunurdu.

Əlbəttə, hazırda bu sahədə vəziyyət əsasən qeyd etdiyim səbəbdən dəyişmişdir və dövlət başçısının Fərmanı hakimlərin sosial müdafiəsinin gücləndirilməsi məqsədi ilə onların maddi təminatının əhəmiyyətli dərəcədə artırılmasını ehtiva etməklə bu məsələnin əsaslı şəkildə həllini nəzərədə tutur.

Onu da qeyd edək ki, Fərmanda hakimlərlə yanaşı məhkəmə aparatı işçilərinin də sosial müdafiəsinin gücləndirilməsi barədə tədbirlər müəyyən edilmişdir ki, buna da çox ehtiyac duyulurdu.

Hörmətli tədbir iştirakçıları, fürsətdən istifadə edib Fərmanın icrası ilə bağlı görülən digər işlər barədə də ümumiləşdirilmiş qısa məlumat vermək istərdim.

Nazirlik, Ali Məhkəmə və Məhkəmə-Hüquq Şurası tərəfindən dediklərimdən əlavə bir sıra qanunvericilik layihələri işlənib hazırlanmışdır (məhkəmələrdə baxılan işlər üzrə ödənilən dövlət rüsumunun dərəcələrinin verilən iddiaların qiymətinə müvafiq olaraq diferensasiya edilməsiinə, məhkəmə iclaslarının fasiləsiz audio yazısının aparılmasına, kargüzarlığın aparılması ilə bağlı dövlət büdcəsində nəzərədə tutulmuş vəsaitin birbaşa hakimlərin bank hesablarına köçürülməsinə və s. məsələlərə dair). Onların bəziləri razılaşdırılma prosesindədir, o cümlədən maliyyə qurumları ilə, bir sıra layihələrin hazırlanması işi isə hələ ki davam edir.

Bu layihələr, xüsusilə də alternativ icra və ekspertiza fəaliyyəti üzrə sənədlər hazırlanarkən Azərbaycan Amerika Ticarət Palatasının White Paper hesabatında verdiyi tövsiyələr diqqətlə nəzərədən keçirilir. Yeri gəlmişkən sənədin müəlliflərinə təşəkkürümüzü bildiririk.

Həmçinin hakimlərin müstəqilliyinin təmin edilməsi, məhkəmələrin fəaliyyətinə müdaxilə və digər neqativ halların aradan qaldırılması ilə bağlı Məhkəmə-Hüquq Şurasında "qaynar xətt", informasiya texnalogiyaları və innovasiyalar, habelə məhkəmə monitorinqi üzrə xüsusi qurumlar yaradılmış və onlar fəaliyyətə başlamışlar.

Sonda bildirim ki, Fərmanın icrasını təmin etmək məqsədi ilə qanunvericiliyin təkmilləşdirilməsi üzrə, habelə institutsional və praktiki xarakterli tədbirlər aidiyyəti qurumlarla əməkdaşlıq şəraitində intensiv surətdə davam etdirilir.

*Diqqətinizə görə sağ olun.*

## Məhkəmə-hüquq islahatlarının əsas istiqamətlərinin sahibkarlarla ictimai müzakirəsi

**Mayın 20-də "Məhkəmə-hüquq islahatlarının əsas istiqamətlərinin sahibkarlarla ictimai müzakirəsi" mövzusunda tədbir keçirilib.**

Müzakirələrdə Birinci vitse-prezidentin köməkçisi Gündüz Kərimov, Prezident Administrasiyasının hüquq-mühafizə orqanları ilə iş və hərbi məsələlər şöbəsinin sektor müdiri Vüsal İsayev, ədliyyə nazirinin müavini Azər Cəfərov, Ali Məhkəmənin səlahiyyətli nümayəndələri və sahibkarlar iştirak ediblər.

Tədbirdə çıxış edən Azərbaycan Respublikası Sahibkarlar (İşəgötürənlər) Təşkilatları Milli Konfederasiyasının (ASK) prezidenti Məmməd Musayev bildirib ki, "Məhkəmə hüquq sistemində islahatların dərinləşdirilməsi haqqında" Azərbaycan Respublikası Prezidentinin 2019-cu il 3 aprel tarixli Fərmanı ölkəmizin məhkəmə-hüquq sistemində islahatların dərinləşdirilməsi məqsədi daşıyır. İslahatlar davam edir və yeni iqtisadi formasiyaya keçid bu




islahatların daha dərin aparılmasını zəruri edir.

O qeyd edib ki, dövlətimizin başçısının imzaladığı bu Fərman isə formalaşdırılmış məhkəmə-hüquq sisteminin daha da təkmilləşdirilməsi, səmərəliliyinin artırılması, ən mütərəqqi beynəlxalq təcrübənin tətbiqini nəzərdə tutur. ASK sədri Fərmanda Azərbaycanda sahibkarların şikayətlərinin daha çevik həll edilməsi, qərarların icrasının daha sürətli həyata keçirilməsi üçün özəl icra qurumunun yaradılmasının nəzərdə tutulduğunu qeyd edib. Eyni zamanda, elektron məhkəmə sisteminin əhatə dairəsinin genişləndirilməsi, məhkəmə işlərinə baxılmasında elektron resurslardan istifadənin səviyyəsinin yüksəlməsi, elektron imzanın tətbiqi sahələrinin artırılması məsələlərinin əksini tapdığı vurğulanıb. Bildirilib ki, bununla yanaşı, vergi, gömrük, sosial sığorta ödənişləri üzrə ixtisaslaşmış məhkəmələrin, sahibkarlıq subyektləri ilə bağlı məhkəmə mübahisələri üzrə alternativ həll mexanizmlərinin - arbitraj, mediasiya institutlarının tətbiqi mübahisələrin həllində çevikliyinin artırılması təmin olunacaq. Nəticədə proseslərin müddətinin uzadılmasının qarşısı alınacaq və şikayətlərə baxılma müddətləri azalacaq. Hazırda məhkəmələrin iş yükü çoxdur və yeni alternativ mexanizm və ixtisaslaşmış məhkəmələrin yaradılması bu iş yükünün azalması və daha qısa müddətdə, ixtisaslaşmış hakimlər tərəfindən baxılmasına imkan verəcək. Sabit məhkəmə praktikasının formalaşdırılması isə hüquq sisteminə inamın güclənməsinə səbəb olacaq.

M.Musayev qeyd edib ki, Fərmanda Azərbaycan Sahibkarlar Konfederasiyasına tövsiyə edilmiş məsələlərlə bağlı sahibkarlardan, hüquqşünaslardan ibarət işçi qrup yaradılıb. Fərmanın icrası ilə əlaqədar Ədliyyə Nazirliyi yanında yaradılmış işçi qrupda da Azərbaycan Sahibkarlar Konfederasiyası da təmsil olunur.

Azərbaycan Respublikasının Birinci vitse-prezidentinin köməkçisi Gündüz Kərimov çıxışında bu müzakirələrin Birinci vitse-prezident Mehriban xanım Əliyevanın təşəbbüsü ilə aparıldığını bildirək deyib: "Hesab edirik ki, ictimai müzakirələr Fərmanın səmərəli həyata keçirilməsinə dəstək olacaq və belə müzakirələr bundan sonra da davam etdiriləcək. Dövlət orqanları ilə sahibkarların münasibətlərinin institusionallaşması nəzərdə tutulur. 2019-cu ildə bir sıra islahatlar aparıldı və Vergi Məcəlləsindəki dəyişiklik növbəti addım üçün zəmin yaratdı. Növbəti addım isə məhkəmə-hüquq sistemində islahatların aparılmasıdır".

Gələn il Rəqabət Məcəlləsinin qəbulunun da paket məsələlər sırasına daxil edildiyini vurğulayan G.Kərimov mübahisələrin alternativ həll variantlarının yaradılmasının sahibkarlığın inkişafına kömək məqsədi daşıdığını bildirib. Birinci vitse-prezidentin köməkçisi 6 mindən çox üzvü olan Azərbaycan Sahibkarlar Konfederasiyasının tərkibində Mediasiya Məktəbinin yaradılmasını təklif edib, yerli arbitraj məhkəmələrinin fəaliyyətə başlamasının məhkəmələrin iş yükünü azaldacağını vurğu-

layıb.

Prezident Administrasiyasının hüquq-mühafizə orqanları ilə iş və hərbi məsələlər şöbəsinin sektor müdiri Vüsal İsayev bildirib ki, bu gün Azərbaycanda bütün sahələrdə islahatlar davam etdirilir. Azərbaycanda məhkəmə-hüquq sahəsində yeniliklərlə bağlı müvafiq Fərman imzalanıb. Prezident İlham Əliyevin məhkəmə islahatları ilə bağlı imzaladığı Fərmanda əsas istiqamətlərdən biri məhz sahibkarlığın inkişafına şərait yaratmaqdır. Son dövrlərdə həyata keçirilən islahatlar bunu deməyə əsas verir ki, məhkəmə-hüquq sistemində davam edən islahatların dəstəklənməsinə ehtiyac var.

Bildirilib ki, Fərmanın əsas məqsədi ədalət mühakiməsinin səmərəliliyinin təmin edilməsi, ədalət mühakiməsinə əlçatanlığın təmin olunması, məhkəmələrin nüfuzunun artırılmasıdır. Fərmanda hər bir sahə üzrə konkret tapşırıqlar verilib. Belə ki, cinayət mühakiməsi icraatı istiqamətində qanunvericiliyin humanistləşdirilməsinin davam etdirilməsi, prokurorluq və vəkilliklə bağlı konkret tapşırıqlar müəyyənləşdirilib.

Ədliyyə nazirin müavini Azər Cəfərov deyib ki, müzakirələrin əsasını təşkil edən həmin Fərman bilavasitə məhkəmə-hüquq sisteminin islahatı ilə bağlı olsa da, o, həm də bir sıra əlaqəli sahələrdə fəaliyyətin optimallaşmasına, özəl sektorun daha rahat fəaliyyət göstərə bilməsinə yönəlib.

Nazir müavini bildirib ki, sahibkarlıq fəaliyyətinə əlverişli şəraitin yaradılması daim dövlətimizin diqqət mərkəzindədir. Son vaxtlar kiçik və orta sahibkarlığın inkişafı, biznes mühitinin yaxşılaşdırılması, investisiya cəlbediciliyinin artırılması üçün xeyli işlər görülüb, bu sahədə qanunvericilik, dövlət dəstəyi mexanizmləri təkmilləşdirilib, idxal-ixrac, vergi, gömrük prosedurları sadələşdirilib. Bu yeniliklər "Doing Business"in sonuncu hesabatında nəzərə alınıb və ölkəmizin mövqeləri xeyli yaxşılaşıb. Hazırda Azərbaycan ən islahatçı 10 dövlət sırasındadır. Proses bununla səngiməyib, əksinə, daha intensiv qaydada davam edir. Dövlətimizin başçısının Sərəncamı ilə yaradılmış Biznes mühiti və beynəlxalq reytinqlər üzrə Xüsusi Komissiya, Komissiyanın tərkibində fəaliyyət göstərən 18 işçi qrup tərəfindən mövcud təcrübə və qanunvericilik həmin məqsədlər baxımından əsaslı şəkildə təhlil olunub, mütərəqqi və məhkəməyə çıxışı asanlaşdıran təkliflər hazırlanıb.

Azər Cəfərov bildirib ki, bütün bu işlərin davamı olaraq Fərman, özəl sektor üçün də maraq kəsb edən bir sıra əlavə mühüm tədbirlər müəyyənləşdirib. Bununla yanaşı, Fərmanda verilmiş digər tapşırıqlara uyğun olaraq icra və məhkəmə ekspertizası fəaliyyətinin alternativ, o cümlədən özəl qurumlar tərəfindən həyata keçirilməsinə dair ən yaxşı və ölkəmiz üçün daha münasib təcrübə barədə təkliflər də hazırlanacaq. Bütün bunlar, özəl sektorun məhkəməyə əlçatanlığını xeyli asanlaşdıracaq.

Tədbirdə "Sahibkarların qanuni maraqlarının qorunması və məhkəmə hüquq islahatları" mövzusunda çıxış edən Kiçik və Orta Biznesin İnkişafı Agentliyinin İdarə Heyətinin sədri Orxan Məmmədov Agentliyin mühüm mandatlarından birinin də kiçik və orta biznes (KOB) subyektlərinin qanuni maraqlarının müdafiəsi olduğunu, bunun qurumun digər istiqamətlər üzrə fəaliyyətinin səmərəliliyinə birbaşa təsir etdiyini vurğulayıb. Bildirib ki, ötən illər ərzində məhkəmə-hüquq sahəsində həyata keçirilən islahatlar məhkəmə institutunun möhkəmləndirilməsində əhəmiyyətli nəticələrlə müşayiət edilib. Dövlətimizin başçısının Fərmanında da qeyd edildiyi kimi, ölkənin davamlı inkişafının təmin edilməsi istiqamətində bütün sahələrdə reallaşdırılan islahatlar məhkəmə-hüquq sisteminin inkişafında yeni mərhələnin başlanmasını və bu sahədə islahatların dərinləşdirilməsini zəruri edir. Bu baxımdan "Məhkəmə-hüquq sisteminin təkmilləşdirilməsi" barədə Fərmanda əksini tapmış tədbirlər ədalət mühakiməsinin keyfiyyətinin və səmərəliliyinin artırılmasına və bunun nəticəsi olaraq, ölkədə investisiya və biznes mühitinin yaxşılaşdırılmasına xidmət göstərəcək əhəmiyyətli məsələləri əhatə edir.

Orxan Məmmədov Fərmanda qeyd edilən məsələlərin sahibkarların hüquqlarının qorunması, KOB subyektlərinin problemlərinin həlli baxımından əhəmiyyətini diqqətə çatdırıb, hakimlərin sahibkar-

lıqla bağlı biliklərinin artırılmasına və bu sahədə Agentliyin təlim sisteminin potensialından istifadə imkanlarına, sahibkarlar üçün vahid məhkəmə təcrübəsi barədə maarifləndirici tədbirlərin keçirilməsinə, məhkəmə sistemində elektron kargüzarlığa keçidə, məhkəmə qərarlarının məzmununun sadələşdirilməsinə dair təkliflərini səsləndirib.

İqtisadiyyat nazirinin müavini Niyazi Səfərov qeyd edib ki, Azərbaycanda sahibkarlıq fəaliyyətinin həyata keçirilməsi, sahibkarların hüquqlarının müdafiəsinin təmin olunması, biznes və investisiya mühitinin mükəmməl təşkili ilə bağlı dövlətimizin başçısının strateji qərarlarının icrası nəticəsində böyük nailiyyətlər əldə olunub.

Ali Məhkəmənin hakimi Xəqani Məmmədov vahid məhkəmə təcrübəsinin formalaşdırılması, ASK-nın baş katibinin müavini Xəqan Hümmətzadə sahibkarlıqla bağlı mübahisələrin həll edilməsi mexanizmlərinin səmərəliliyinin artırılması, Azərbaycan Banklar Assosiasiyasının prezidenti Zakir Nuriyev məhkəmə qərarlarının icrasının alternativ mexanizmləri, Ədliyyə Nazirliyinin "Elektron məhkəmə" informasiya sistemi üzrə işçi qrupunun rəhbəri, hakim Ramin Qurbanov "Elektron məhkəmə" və "Elektron icra" informasiya sistemləri barədə təqdimatlarla çıxış ediblər.

Sonra özəl sektor nümayəndələri ilə açıq sual-cavab sessiyası keçirilib, sahibkarları maraqlandıran məsələlər barədə müzakirələr aparılıb.

Qeyd edək ki, 2019-cu il aprelinə olan məlumata görə, Azərbaycanda 996 min 296 sahibkarlıq subyekti fəaliyyət göstərir. Onlardan 133 min 541-i müəssisə və 862 min 755-i isə fərdi sahibkarlıq subyektidir. Azərbaycanda qeydiyyatda olan müəssisələrin 90,9 faizi və ya 121 min 336-sı xüsusi müəssisələrdir.

## "Məhkəmə-hüquq islahatlarına vəkil baxışı" mövzusunda konfrans






**Mayın 31-də Bakıda Azərbaycan Respublikası Vəkillər Kollegiyasının təşkilatçılığı ilə "Məhkəmə-hüquq islahatlarına vəkil baxışı" mövzusunda konfrans keçirilib.**

Konfransda çıxış edən Vəkillər Kollegiyasının sədri Anar Bağırov "Məhkəmə-hüquq sistemində islahatların dərinləşdirilməsi haqqında" Azərbaycan Respublikası Prezidentinin 2019-cu il 3 aprel tarixli Fərmanının əhəmiyyəti, bu



mühüm sənəddə qeyd olunan göstəriş və tövsiyələrin icrası ilə bağlı Vəkillər Kollegiyası tərəfindən həyata keçirilmiş tədbirlər və qarşıda duran vəzifələr barədə tədbir iştirakçılarına məlumat verib.

Konfransın Azərbaycan Respublikası Vəkillər Kollegiyasına edilmiş tövsiyələrin icra vəziyyəti və bu tarixi sənədin Vəkillər Kollegiyasının üzvləri arasında təşviqi məqsədilə təşkil edildiyi diqqətə çatdırılıb.

Birinci vitse-prezidentin köməkçisi, Vəkillər Kollegiyasının üzvü Gündüz Kərimov tədbirdə çıxış edərək deyib ki, son bir il yarım ərzində Azərbaycanda vəkillərin sayı 800-dən 1500 nəfərə qədər artıb. Bu, çox yaxşı haldır. Ancaq

bununla yanaşı, qanunvericilikdə olan məhdudiyyətlər, xüsusilə də nümayəndəlik institutu ilə bağlı məhdudiyyətlər bəzi kateqoriyalı şəxslərin, xüsusilə Bakıdan kənarda yaşayan şəxslərin məhkəməyə müraciət etmək imkanlarına maneələr yaradıb. Ona görə də vəkilliyə qəbul qaydalarının və ixtisas suallarının yüngülləşdirilməsinə ehtiyac var.

Prezident Administrasiyasının hüquq-mühafizə orqanları ilə iş və hərbi məsələlər şöbəsinin sektor müdiri Vüsal İsayev diqqətə çatdırib ki, dövlət başçısı İlham Əliyevin rəhbərliyi ilə həyata keçirilən islahatlar çərçivəsində vəkillik institutunun inkişafına şərait yaradacaq yeni yanaşmalar tətbiq olunub.

Bildirilib ki, "ASAN xidmət"lə Vəkillər Kollegiyasının imzaladığı memorandum əhaliyə daha keyfiyyətli hüquqi yardımın göstərilməsinə şərait yaradır. Bu, həm paytaxtda, həm də regionlarda hüquqi yardımın əhatəsinin genişləndirilməsinə səbəb olacaq. Vurğulanıb ki, Prezidentin 2019-cu il 3 aprel tarixli Fərmanı ilə cəza siyasətinin humanistləşdirilməsinə dair növbəti tapşırıqlar verilib və bu istiqamətdə layihələr hazırlanacaq.

Baş prokurorun müavini Namiq Əsgərov bildirib ki, Vəkillər Kollegiyası ilə prokurorluq orqanları arasında yeni əməkdaşlıq mərhələsinə start verilib. Diqqətə çatdırılıb ki, məhkəmə-hüquq islahatlarında hər bir Azərbaycan vətəndaşı yaxından iştirak etməlidir. Vəkillər ədalət mühakiməsinin əsas təmsilçiləridir. Vəkillər və prokurorlar insan hüquqları və azadlıqlarının müdafiəsini təmin edirlər. Azərbaycanda 1500 vəkil, 1200 prokurorluq əməkdaşı var. Bu gün vaxtilə prokuror işləmiş insanlar vəkil kimi fəaliyyət göstərirlər.

Qeyd edilib ki, Prezident İlham Əliyevin məhkəmə-hüquq sistemində islahatlarla bağlı imzaladığı Fərmanda Baş Prokurorluğa edilmiş iki tövsiyə var. Baş prokurorun göstərişi ilə Baş Prokurorluqda 15 nəfərdən ibarət işçi qrupu yaradılıb. Göstəriş verilib ki, Prezidentin Fərmanının icrası ilə əlaqədar qanun layihəsi hazırlansın. Həm Ali Məhkəməyə, həm də Ədliyyə Nazirliyinə 200-dən çox təklif göndərilib. Hazırda Ali Məhkəmə, Ədliyyə Nazirliyi və Baş Prokurorluğun işçiləri birlikdə Fərmanda qeyd olunan məsələləri yekunlaşdırmaq üzrədir. Layihə aidiyyəti üzrə müvafiq quruma göndəriləcək.

Sonra Vəkillər Kollegiyasının sədri Anar Bağırov "Vəkilliyin məhkəmə-hüquq islahatlarında yeri və rolu", Məhkəmə-Hüquq Şurası aparatının rəhbəri Cavid Hüseynov "Hakim-vəkil münasibətlərinin deontoloji aspektləri" mövzularında çıxış ediblər.

Konfrans müzakirələrlə davam edib.

# Ədliyyə Nazirliyində görüşlər

**Mayın 3-də Ədliyyə naziri Fikrət Məmmədov Amerika Birləşmiş Ştatlarının ölkəmizdəki səfiri Örl Litzenberqer ilə görüşüb.**

Azərbaycanın ABŞ-la əməkdaşlığa böyük əhəmiyyət verdiyini və əlaqələrin müxtəlif istiqamətləri əhatə etdiyini vurğulayan nazir hüquqi sahədə əməkdaşlıqdan bəhs edib, Prezident İlham Əliyevin rəhbərliyi ilə aparılan məhkəmə-hüquq islahatları, o cümlədən elektron məhkəmənin tətbiqi, hakimlərin ən şəffaf seçimi və tədrisi barədə məlumat verib, həyata keçirilən tədbirlərdə ABŞ-ın ölkəmizdəki Səfirliyinin iştirakını qeyd edib.

Ö.Litzenberqer iki ölkə arasında əlaqələrin inkişafının və səfərlərin intensivləşməsinin mühüm prioritetlərdən olduğunu vurğulayıb, ABŞ-ın Azərbaycana investisiya marağını qeyd edərək ölkəmizdə bu sahədə mühüm addımların atıldığının şahidi olduğunu söyləyib, məhkəmə-hüquq islahatlarına maraq göstərib.

Söhbət zamanı dövlətimizin başçısının "Məhkəmə-hüquq sistemində islahatların dərinləşdirilməsi haqqında" 2019-cu il 3 aprel tarixli Fərmanının müstəsna əhəmiyyəti qeyd olunaraq bu mühüm sənədin icrası üzrə görülən işlərdən danışılıb.

Azərbaycan Prezidentinin Fərmanını alqışlayan səfir bildirib ki, Fərmanın icrası məhkəmə ictimai inamın artmasına, ədalət mühakiməsinin səmərəliliyinə və məhkəmə sisteminin şəffaflığına xidmət edəcək. O, Ədliyyə Nazirliyinin qanunun aliliyinin təmin




olunmasında mühüm rolunu qeyd edərək səmərəli qarşılıqlı fəaliyyətin davam etdirilməsinə dair niyyətini ifadə edib.

Görüşdə həmçinin qanunvericiliyin təkmilləşdirilməsi, insan hüquqlarının təminatı, məhkəmə qərarlarının icrası, qeydiyyat məsələləri və digər konkret mövzularda ətraflı fikir mübadiləsi aparılıb, əməkdaşlıq perspektivləri müzakirə olunub

Qonaq nazirlikdə Ədliyyə tarixi muzeyi ilə tanış olub.





**Ölkəmizdə səfərdə olan Avropa Şurası Siyasi Məsələlər Direktorluğunun rəhbəri Aleksandr Qesselin başçılıq etdiyi nümayəndə heyəti mayın 6-da Ədliyyə Nazirliyində olub.**

Ədliyyə nazirinin müavini Azər Cəfərov ilə keçirilmiş görüşdə Avropa Şurasının Ədliyyə Nazirliyi ilə əməkdaşlığının səviyyəsindən məmnunluq ifadə olunub, ölkə Prezidenti İlham Əliyevin cəza siyasətinin humanistləşdirilməsinə dair 2017-ci il 10 fevral tarixli Sərəncamının icrası üzrə görülmüş işlər, o cümlədən cinayət qanunvericiliyinə edilmiş əhatəli və konseptual dəyişikliklər barədə ətraflı məlumat verilib. A.Qessel Azərbaycan Prezidentinin Sərəncamının Avropa Şurasında çox yüksək qiymətləndirildiyini vurğulayaraq, həyata keçirilən tədbirlərin, o cümlədən bu sahədə qanunvericilikdəki mühüm yeniliklərin hüquq sisteminin təkmilləşməsinə yönəldiyini, vətəndaşlara birbaşa müsbət təsirini xüsusilə qeyd edib.

Eyni zamanda məhkəmə-hüquq sistemindəki islahatlar, o cümlədən vətəndaşların məhkəmələrə müraciət imkanlarının asanlaşdırılması məqsədilə qanunvericiliyə edilmiş dəyişikliklər, "Elektron məhkəmə" və "Elektron icra" informasiya sistemlərinin tətbiqi

barədə məlumat maraqla qarşılanıb. Ölkə Prezidentinin "Məhkəmə-hüquq sistemində islahatların dərinləşdirilməsi haqqında" 2019-cu il 3 aprel tarixli Fərmanını alqışlayan qonaq bu mühüm sənədin qısa müddətdə icrasını, həmçinin bu sahədə Ədliyyə Nazirliyinin vətəndaş cəmiyyəti institutları ilə əməkdaşlığını yüksək qiymətləndirib və Avropa Şurasının bu əlaqələri dəstəkləməyə hazır olduğunu bildirib.

Sonra ədliyyə naziri Fikrət Məmmədov Avropa Şurasının nümayəndə heyəti ilə görüşüb.

Azərbaycan və Avropa Şurası arasında səmərəli əməkdaşlığı qeyd edən nazir ölkə Prezidenti İlham Əliyevin rəhbərliyi ilə məhkəmə-hüquq sisteminin inkişafında yeni mərhələnin başlandığını və dövlət başçısının proqram xarakterli yeni Fərmanının müstəsna əhəmiyyətini vurğulayıb, bu sahədə qarşılıqlı fəaliyyət üçün yaxşı imkanların olduğunu bildirib.

Səfər zamanı açıq və konstruktiv müzakirələrin aparıldığını söyləyən Qessel Prezident Fərmanının icrasının məhkəmə-hüquq sistemində çox böyük dəyişikliklərə gətirib çıxaracağını qeyd edib, onun icrası üzrə görülən tədbirləri təqdir edərək Avropa Şurasının Fərmanın icrasına dəstək göstərməyə hazır olduğunu vurğulayıb.

Söhbət zamanı əməkdaşlığın perspektivlərinə dair faydalı fikir mübadiləsi aparılıb.

Görüşdə Avropa Şurasının Bakıdakı ofisinin rəhbəri səfir Zoltan Hernyes iştirak edib.

# Ədliyyə naziri və nazir müavinləri cənub bölgəsində vətəndaşları qəbul ediblər

**Ölkə Prezidenti cənab İlham Əliyevin dövlət qurumları tərəfindən insanlara layiqli xidmət göstərilməsi, vətəndaşların müraciətlərinə qayğı və həssaslıqla yanaşılması barədə tapşırıqlarına uyğun olaraq Ədliyyə Nazirliyi tərəfindən vətəndaşların bölgələrdə qəbuluna xüsusi diqqət yetirilir.**

Dövlət başçısının tapşırığına və bölgələrdə vətəndaşların qəbulu cədvəlinə uyğun olaraq mayın 16-da ədliyyə naziri Fikrət Məmmədov Lənkəran şəhərində, nazir müavinləri Toğrul Musayev Lerik, Vilayət Zahirov Astara rayonlarında vətəndaşların qəbulunu keçiriblər.

Qəbullar zamanı ədliyyə fəaliyyəti ilə bağlı müraciətlərə baxılıb, hər bir vətəndaş diqqətlə dinlənilib, müraciətlərdə qaldırılan məsələlərin bir qismi elə yerindəcə öz həllini tapıb, digər müraciətlər üzrə nazirliyin qəbulda iştirak edən aidiyyəti məsul işçilərinə müvafiq tapşırıqlar verilib.

Vətəndaşlar bölgə sakinlərinin qəbulu və müraciətlərinə baxılması üçün rahat və əlverişli şərait yaradılmasından razılıqlarını ifadə edərək, göstərilən diqqət və qayğıya görə Prezident İlham Əliyevə minnətdarlıqlarını bildiriblər.

# Latviyanın ədliyyə naziri ilə görüş

**Latviya Azərbaycan ilə ədliyyə sahəsində əməkdaşlığa böyük önəm verir.**

Bunu Latviyanın ədliyyə naziri Yan Bordan Azərbaycanın bu ölkədəki səfiri Cavanşir Axundov ilə görüşündə deyib.

Nazir iki ölkə arasında ədliyyə sahəsində münasibətlərin səviyyəsini yüksək qiymətləndirib. Yan Bordan bildirib ki, Azərbaycan ilə ədliyyə sistemində islahatlar, probasiya institutunun inkişafı və s. sahələrdə uğurlu əməkdaşlıq həyata keçirilir.

Söhbət zamanı 2017-ci il sentyabrın 13-də imzalanan "Azərbaycan və Latviya Ədliyyə nazirlikləri arasında əməkdaşlığa dair Anlaşma Memorandumu" çərçivəsində əlaqələrin bundan sonra da uğurla davam etdiriləcəyinə əminlik ifadə olunub.



# Birləşmiş Krallığın ölkəmizdəki səfiri ilə görüş




**Mayın 17-də Ədliyyə nazirinin müavini Toğrul Musayev Böyük Britaniya və Şimali İrlandiya Birləşmiş Krallığının Azərbaycandakı səfiri xanım Kerol Meri Kroftsu onun xahişi ilə qəbul edib.**

Azərbaycan və Birləşmiş Krallıq arasında əlaqələrin inkişaf etdiyini bildirən nazir müavini ötən il Prezident İlham Əliyevin Böyük Britaniyaya səfərini xatırladıb, qarşılıqlı səfərlərin ikitərəfli münasibətlərin genişlənməsində əhəmiyyətini qeyd edib.

Ölkəmizdə intensiv məhkəmə-hüquq islahatlarının aparıldığı bildirilərək dövlət başçısının "Məhkəmə-hüquq sistemində islahatların dərinləşdirilməsi haqqında" 2019-cu il 3 aprel tarixli Fərmanının müstəsna əhəmiyyəti və icrası üzrə görülən işlər barədə məlumat verilib, hüquqi sahədə qarşılıqlı fəaliyyətin geniş perspektivlərinin olduğu vurğulanıb.

Səfir Azərbaycanın qısa müddətdə sürətli inkişaf yolu keçdiyini və fəaliyyəti dövründə müsbət dəyişikliklərin şahidi olduğunu söyləyib, ölkəmizin dövlət başçısının Birləşmiş Krallığa səfərinin çox məhsuldar keçdiyini qeyd edib, əməkdaşlığın müxtəlif istiqamətlərdə inkişafında maraqlı olduğunu bildirərək, bu əlaqələrin "Breksit"dən sonra yeni mərhələyə yüksələcəyinə əminliyini ifadə edib, iki ölkə arasında iqtisadi əməkdaşlıq üzrə Birgə Hökumətlərarası Komissiyanın Londonda keçiriləcək növbəti iclası ilə bağlı fikir mübadiləsi aparıb.

O, həmçinin, iqtisadi və digər sahələrdə islahatların uğurla aparıldığını qeyd edərək həyata keçirilən birgə layihələrdən söz açıb, ədliyyə sahəsində əlaqələrin genişləndirilməsi ilə bağlı niyyətini bildirib.

Səmimi şəraitdə keçən görüşdə qarşılıqlı maraq doğuran digər məsələlər müzakirə olunub.

Qonaq nazirlikdə Ədliyyə tarixi muzeyi ilə tanış olub.

# Londonda Azərbaycan-Böyük Britaniya Hökumətlərarası Komissiyanın 3-cü iclası keçirilib

**Mayın 22-də Londonda Azərbaycan Respublikası Hökuməti ilə Böyük Britaniya və Şimali İrlandiya Birləşmiş Krallığının Hökuməti arasında iqtisadi əməkdaşlıq üzrə Birgə Hökumətlərarası Komissiyanın 3-cü iclası keçirilib.**

Energetika naziri Pərviz Şahbazovun və Böyük Britaniyanın Ticarət Siyasəti üzrə dövlət naziri Corc Hollinqberinin həmsədrliyi ilə keçirilmiş iclasda hər iki ölkənin komissiyada təmsil olunan müvafiq qurumlarının rəsmiləri iştirak ediblər.

İclasda iqtisadiyyat, ticarət, enerji, vergi və gömrük, kənd təsərrüfatı, qida təhlükəsizliyi, rabitə və yüksək texnologiyalar, kosmik, elektron hökumət, təhsil, turizm, hərbi, təhlükəsizlik




və digər sahələrdə mövcud əməkdaşlıq və əlaqələrin genişləndirilməsi perspektivləri müzakirə olunub.

Azərbaycan və Böyük Britaniya arasında iqtisadi əlaqələrin, müxtəlif sahələrdə uğurlu əməkdaşlığın olduğu qeyd olunan iclasda ölkə Prezidenti cənab İlham Əliyevin rəhbərliyi ilə iqtisadiyyatın şaxələndirilməsi və dayanıqlı inkişaf siyasətinin həyata keçirildiyi vurğulanıb, əməkdaşlığımızın qeyri-neft sektorunda inkişafı üçün yaxşı imkanların olduğu bildirilib.

C.Hollinqberi ölkəsinin Azərbaycanla çoxşaxəli əlaqələrinin inkişafında maraqlı olduğunu, bu məqsədlə birgə fəaliyyətin mühüm rol oynayacağını söyləyib.

İclasda ölkələrimiz arasında əməkdaşlıqda neft-qaz sektorunun mühüm rolundan bəhs edilib, ticarət və investisiya üçün daha yaxşı biznes mühitinin yaradılmasında əməkdaşlıq maraqları ifadə olunub, kənd təsərrüfatı, turizm və qeyri-neft sektorunun digər sahələrində Böyük Britaniya şirkətlərinin iştirakının vacibliyi qeyd edilib, əməkdaşlığın prioritetlərinə dair faydalı fikir mübadiləsi aparılıb.

Sonda iclasın yekunlarına dair Protokol imzalanıb. Komissiyanın növbəti iclasının 2020-ci ildə Bakıda keçirilməsi razılaşdırılıb.

Tədbirdə komissiyanın üzvü, Ədliyyə nazirinin müavini Toğrul Musayev iştirak edib.

# Gənc ədliyyə könüllüləri ilə görüş

**Müasir Azərbaycan gəncliyinin hərtərəfli inkişafı ümummilli lider Heydər Əliyevin adı ilə bağlıdır. Dahi öndərin bu sahədə təməlini qoyduğu dövlət siyasəti ölkəmizdə gənclərin cəmiyyətin bütün sahələrində, o cümlədən dövlət idarəçiliyində fəal iştirakına əlverişli şərait yaradıb. Dövlət gənclər siyasəti ölkə Prezidenti İlham Əliyevin rəhbərliyi ilə uğurla həyata keçirilərək ictimai-siyasi həyatda gənclərin fəallığı, təşəbbüskarlığı, irimiqyaslı layihələrin icrasında və idarəetmədə rolu artıb, vətənpərvərlik ruhu və vətəndaşlıq mövqeyi möhkəmlənib, könüllülük hərəkatı genişlənib.**

İstedadlı gənclərin dəstəklənməsi, onların innovativ potensiallarının və bacarıqlarının üzə çıxarılması istiqamətində Azərbaycanın Birinci vitse-prezidenti Mehriban xanım Əliyevanın mühüm fəaliyyəti xüsusi qeyd olunmalıdır.

Cəmiyyətin fəal üzvünə çevrilən gənclər bu gün həm də könüllülük hərəkatının aparıcı qüvvəsi olmaqla səmərəli fəaliyyətləri ilə fərqlənirlər.






Xalqımızın ümummilli lideri Heydər Əliyevin anadan olmasının 96-cı ildönümü ərəfəsində ədliyyə sahəsində könüllü fəaliyyətə cəlb olunmuş növbəti böyük bir qrup gənclərlə Ədliyyə Nazirliyində görüş keçirilib.

Tədbirdən öncə könüllülər ümummilli lider Heydər Əliyevin nazirlikdəki büstü önünə əklil qoyub, əziz xatirəsini ehtiramla yad edib, Ulu Öndərin adını daşıyan muzeydə zəngin və maraqlı ekspozisiyalarla tanış olublar.

Görüşdə çıxış edən Ədliyyə nazirinin müavini Toğrul Musayev Azərbaycanın bugünkü uğurlu inkişafının təməlində dayanan, xalqın və dövlətin gələcəyinə işıq salan Heydər Əliyev dühasından, zəngin irsindən bəhs edib, möhtərəm Prezidentimiz cənab İlham Əliyevin rəhbərliyi ilə dövlət gənclər siyasəti sahəsində həyata keçirilən çoxşaxəli tədbirlərdən danışıb.

Ədliyyə orqanlarında könüllülərin fəaliyyətə geniş təşviq edildiyini bildirən nazir müavini ölkə başçısının cari ilin fevralında gənclərlə keçirdiyi respublika toplantısında verdiyi tapşırıqlara və çağırışlara uyğun olaraq görülən işlər barədə məlumat verib, gənclərin ədliyyə sahəsində könüllü fəaliyyət üçün birbaşa elektron qaydada müraciət etmək imkanlarının yaradıldığını, müvafiq ali təhsil müəssisələri və tələbə-gənclər təşkilatları, eləcə də Vətəndaşlara Xidmət və Sosial İnnovasiyalar üzrə Dövlət Agentliyi ilə səmərəli əlaqələrin genişləndirildiyini bildirib.

Hazırda 600-dən çox ədliyyə könüllüsü nazirliyin aparatında, icra və probasiya xidmətlərində, qeydiyyat və notariat orqanlarında, Ədliyyə Akademiyasında və regional ədliyyə idarələrində, habelə "ASAN School" proqramı çərçivəsində müvafiq məhkəmə aparatlarında fəaliyyətə cəlb olunub.

Nazir müavini gənclərə zəruri təcrübə toplamaları, milli və vətənpərvərlik ruhunda tərbiyə almaları, xalqa və dövlətə bağlılığı, müstəqilliyimizin möhkəmləndirilməsi, ədliyyə idarəçiliyində şəffaflığın və vətəndaş məmnunluğunun artırılmasında, ictimai nəzarətin həyata keçirilməsində fəal iştirak etmələri barədə tövsiyələr verib.

Tədbirdə iştirak edən "ASAN Könüllüləri" Təşkilatının sədri Səbinə Cabarova son illər Azərbaycanda könüllülər hərəkatının geniş vüsət aldığını, minlərlə gəncin müxtəlif təşkilatlarda, o cümlədən "ASAN Könüllülər" şəbəkəsində fəaliyyətə cəlb edildiyini bildirib, bu sahədə Ədliyyə Nazirliyi ilə səmərəli əməkdaşlığı qeyd edib.

Ədliyyə naziri yanında İctimai Komitənin üzvü Şahin Camalov ədliyyə fəaliyyətində, o cümlədən qulluğa qəbul prosesində hər zaman şəffaflığa, ictimai iştirakçılığa böyük önəm verildiyini, gənclərə gələcək karyeralarını qurmaları işinə xüsusi qayğı ilə yanaşıldığını vurğulayıb.

Eyni zamanda, ədliyyə könüllülərinin fəaliyyət göstərdikləri sahələr üzrə təşəbbüsləri, innovativ ideyaları və təklifləri dinlənilib, gənclərin uğurla fəaliyyət göstərəcəklərinə, müstəqil Azərbaycanımızın hərtərəfli inkişafı üçün sədaqətlə və əzmkarlıqla çalışacaqlarına əminlik ifadə olunub.

Sonda ədliyyə könüllülərinə xüsusi hazırlanmış suvenirlər, həmçinin vəsiqə və nişan təqdim olunub, xatirə şəkli çəkdirilib.

# "Azərbaycanda penitensiar islahatlara əlavə dəstək - 2" layihəsinin təqdimatı olub

**Mayın 8-də Avropa Şurasının Azərbaycan üzrə 2018-2021-ci illər üçün Fəaliyyət Planı çərçivəsində Avropa Şurasının və Avropa İttifaqının "Azərbaycanda penitensiar islahatlara əlavə dəstək - 2" (SPERA - 2) adlı birgə layihəsinin təqdimatı keçirilib.**






Cəzaçəkmə müəssisələrində səhiyyə xidmətinin təşkili, müəssisələrin idarə olunması və keçmiş məhkumların cəmiyyətə inteqrasiyasını qabaqcıl Avropa standartlarına və təcrübəsinə uyğunlaşdıraraq Azərbaycanda məhkumların müdafiəsinin gücləndirilməsi məqsədi daşıyan layihəyə həsr olunmuş tədbirdə açılış nitqi ilə çıxış edən Ədliyyə nazirinin müavini-Penitensiar xidmətin rəisi Ceyhun Həsənov ölkəmizin Avropa Şurası ilə səmərəli əməkdaşlığını qeyd edib, ümummilli lider Heydər Əliyevin əsasını qoyduğu və Prezident İlham Əliyevin uğurla davam etdirdiyi hüquqi islahatların penitensiar sahəni də əhatə etdiyini vurğulayaraq, beynəlxalq əməkdaşlığın, xüsusilə Avropa Şurası ilə münasibətlərin bu islahatlara böyük töhfə verdiyini bildirib.

Vurğulanıb ki, Azərbaycan Respublikasının Prezidentinin "Penitensiar sahədə fəaliyyətin təkmilləşdirilməsi, cəza siyasətinin humanistləşdirilməsi və cəmiyyətdən təcridetmə ilə əlaqədar olmayan alternativ cəza və prosessual məcburiyyət tədbirlərinin tətbiqinin genişləndirilməsi barədə" 10 fevral 2017-ci il tarixli Sərəncamı və "Məhkəmə-hüquq sistemində islahatların dərinləşdirilməsi haqqında" 3 aprel 2019-cu il tarixli Fərmanı ədliyyə, o cümlədən penitensiar sistemdə aparılan islahatların daha geniş vüsət almasına güclü təkan verib.

Ümumilikdə 2006-cı ildən etibarən səmərəli əməkdaşlıq nəticəsində penitensiar sistemin təkmilləşdirilməsi istiqamətində 5 layihə uğurla həyata keçirilib. İcrası 2018-ci ildə yekunlaşdırılmış Avropa Şurasının və Avropa İttifaqının"Penitensiar islahatlara əlavə dəstək" adlı birgə layihəsi çərçivəsində həbsxanaların tibb heyətinin imkanlarının inkişaf etdirildiyi, cəzaçəkmə müəssisələrinin rəhbərlərinin peşəkarlığının təkmilləşdirildiyi diqqətə çatdırılıb.

Nazir müavini yeni layihənin icrasının da birgə səylər nəticəsində uğurla başa çatdırılacağına əminliyini ifadə edib.

Tədbirdə çıxış edən Ədliyyə Nazirliyi Tibb baş idarəsinin rəisi Rəfail Mehdiyev aparılan islahatların nəticəsi olaraq penitensiar sistemdə tibb xidməti üzrə əldə olunmuş nailiyyətlər barədə məlumat verib. O, "SPERA 2" layihəsinin əvvəlki layihə çərçivəsində hazırlanan cəzaçəkmə müəssisələrində səhiyyə xidmətlərinin təşkili, psixi sağlamlıq və cəzaçəkmə müəssisələrinin idarə olunmasına dair üç qiymətləndirmə hesabatının nəticələri və tövsiyələri əsasında ərsəyə gəldiyini bildirib, səhiyyə xidmətinin təkmilləşdirilməsi məqsədilə müxtəlif rejimli cəzaçəkmə müəssisələrində pilot layihələrin həyata keçirilməsi baxımından mühüm əhəmiyyət kəsb etdiyini nəzərə çatdırıb.

Avropa Şurasının Bakı Ofisinin rəhbəri Zoltan Hernyeş, Avropa İttifaqının Azərbay-

candakı Nümayəndəliyinin rəhbəri Kestutis Yankauskas, həmçinin Avropa Şurasının İnsan Hüquqları və Qanunun Aliliyi üzrə Baş Direktorluğunun proqramın rəhbəri Oskar Alarkon Jimenez təqdimat mərasimində çıxış ediblər.

Həmçinin layihənin əhatə etdiyi əsas istiqamətlər tədbir iştirakçılarının diqqətinə çatdırılıb. Tədbir "SPERA 2" layihəsinin fəaliyyət planının müzakirəsi və mövzu ətrafında fikir mübadiləsi ilə davam edib.

# Penitensiar xidmətin nümayəndəsi beynəlxalq tədbirdə iştirak edib

**Mayın 14-15-də Avropa Şurası İnsan Hüquqları və Qanunun Aliliyi Baş Direktorluğunun təşkilatçılığı ilə Strasburqda "Məhbusların rejimlərinin idarə edilməsi" mövzusunda çoxtərəfli görüş keçirilib.**



Avropa Şurasının üzv və müşahidəçi ölkələrinin həbsxana və probasiya xidmətlərinin, beynəlxalq təşkilatların yüksək vəzifəli nümayəndələrinin, eləcə də penitensiar sahədə çalışan və beynəlxalq səviyyədə tanınmış ekspertlərin iştirak etdikləri tədbirdə ölkəmizi Ədliyyə Nazirliyi Penitensiar xidmətin rəis müavini Orxan Qasımov təmsil edib.

Görüşdə məhkumlara dair risklərin qiymətləndirilməsi, müvafiq təhlükəsizlik qaydalarının təmin olunması, habelə dinamik təhlükəsizlik məsələləri ətrafında məruzələr dinlənilib.

Məhkum kontingentinin həssas təbəqəsinə aid olan qadınlar, azyaşlılar, əcnəbilər, xəstələr, əlillər, ahıllar, habelə psixi pozğunluğu olanlarla davranışa həsr edilmiş çıxışlar ətrafında fikir mübadiləsi aparılıb.

Həbsxanalarda radikalizm və ek-stremizmin aşkarlanması və qarşısının alınmasının prioritet məsələlərdən biri olması xüsusilə vurğulanıb.

Tədbirdə çıxış edən məruzəçilər uzunmüddətli və ömürlük həbs cəzasına məhkum olunmuş şəxslər üçün tətbiq olunan rejim, eləcə də müvafiq saxlanma rejimlərinin idarə olunmasında işçi personalının rolu mövzusunda maraqlı fikirlər səsləndirib, təmsil etdikləri ölkələrin bu sahədəki təcrübəsi ilə bölüşüblər.

Sonda müzakirə olunmuş mövzular istiqamətində Avropa Şurasının üzv və müşahidəçi ölkələr arasında qarşılıqlı əməkdaşlığın davam etdirilməsi məqsədəmüvafiq hesab edilib.

# Avropa Şurasının konfransında Azərbaycan uğurlu siyasət aparan ölkə kimi qeyd olunub

**Avropa Şurası tərəfindən həyata keçirilən "Uşaqların onlayn istismarı və zorakılığının qarşısının alınması" üzrə layihə çərçivəsində Azərbaycan pilot ölkələrdən biri olaraq 10 ölkə arasından seçilib. Layihənin açılış konfransı Strasburqda keçirilib.**

Ailə, Qadın və Uşaq Problemləri üzrə Dövlət Komitəsinin layihə üzrə əlaqələndirici qurum olaraq iştirak etdiyi konfransda Azərbaycanı Milli Məclis, Xarici İşlər, Ədliyyə və Daxili İşlər nazirliklərinin əməkdaşlarından ibarət nümayəndə heyəti təmsil edib.

Ədliyyə Nazirliyinin insan hüquqları və ictimaiyyətlə əla-

qələr idarəsinin rəhbəri Aynur Sabitova tədbirdə iştirak edib.

Konfransda bu sahədə Azərbaycanda aparılan dövlət uşaq siyasəti, bu istiqamətdə həyata keçirilən layihələr, yaradılan qanunvericilik bazası barədə məlumat verilib, panellər üzrə təqdimatlar edilib.

İki gün davam edən konfransın sonunda Avropa Şurası Azərbaycanı üzv dövlət olaraq "Uşaqların zərərli informasiyadan qorunması haqqında" qanunun qəbuluna və həyata keçirilən preventiv tədbir və layihələrə görə uğurlu siyasət aparan müsbət ölkə adlandırıb. Layihə çərçivəsində Avropa Şurasından nümayəndə heyətinin Azərbaycana səfəri və aidiyyəti qurumlarla görüşlərin keçirilməsi də nəzərdə tutulub. İki il davam



edəcək layihə müddətində bu sahədə qanunvericiliyin analizi, müxtəlif qurumların nümayəndələri üçün təlimlərin keçirilməsi də nəzərdə tutulub.

Azərbaycan Avropa Şurasının Uşaq hüquqları ilə bağlı Ad-Hoc və Lanzarota komitələrində təmsil olunaraq Avropa Şurasının bu sahədə qəbul etdiyi tövsiyələrin yerinə yetirilməsi və Avropa Şurasının müvafiq komitələrinin hazırladığı maarifləndirici materialların Azərbaycan dilinə tərcüməsi və yayımlanması sahəsində də uğurlu addım atan tərəfdaş ölkə kimi qeyd olunur.

# Ədliyyə orqanlarında işləmək istəyən namizədlər üçün test imtahanı

**Ədliyyə orqanlarında mövcud vakant ştat vahidlərinin peşəkar kadrlarla komplektləşdirilməsi məqsədi ilə görülən ardıcıl tədbirlər çərçivəsində may ayının 11-də qulluğa qəbulla bağlı növbəti müsabiqə üzrə test imtahanı keçirilib.**

Dövlət İmtahan Mərkəzi ilə birlikdə Azərbaycan Texniki Universitetinin idman sarayında keçirilmiş imtahanı aidiyyəti dövlət orqanlarının və qeyri-hökumət təşkilatlarının nümayəndələri izləyib, həmçinin tədbirin gedişi Nazirliyin internet səhifəsi (www.justice.gov.az)



vasitəsilə "on-line" rejimində birbaşa canlı yayımlanıb.

"Ədliyyə orqanlarına qulluğa qəbul olunmaq üçün namizədlərlə müsabiqənin və müsahibənin keçirilməsi Qaydaları"na əsasən test imtahanında namizədin hüquqi biliklərini, məntiqi nəticələr çıxarmaq qabiliyyətini və

ümumi dünyagörüşünü müəyyən etmək üçün verilən test tapşırığı 100 sualdan ibarət olub.

301 namizədin iştirak etdiyi imtahanın nəticələrinə görə 165 nəfər keçid balı toplayaraq müvəffəqiyyət qazanıb (siyahı Nazirliyin və DİM-nin (www.dim.gov.az) internet səhifələrində yerləşdirilib).

Bildiririk ki, test imtahanında uğur qazanmış namizədlər müsabiqənin söhbət mərhələsində iştirak etmək üçün qanunvericilikdə nəzərdə tutulmuş sənədlərini 15 gün ərzində, saat 9-dan 18-dək Ədliyyə Nazirliyinin Kadrlar idarəsinə (Bakı şəhəri, İnşaatçılar prospekti 1) təqdim etməlidirlər. Kadr sənədlərinin siyahısını və müvafiq nümunələri Nazirliyin internet səhifəsindən əldə etmək mümkündür.

Xatırladırıq ki, "Ədliyyə orqanlarında qulluq keçmə haqqında" Qanunla müəyyən edilmiş bütün tələblərə cavab verən namizədlər növbəti mərhələyə buraxılacaq və onlarla fərdi qaydada söhbət aparılacaqdır. Söhbətin keçirilmə vaxtı və yeri barədə namizədlərə məlumat veriləcəkdir.

Əlavə informasiyanı Nazirliyin internet səhifəsindən, eləcə də (012) 538-01-62, (012) 538-08-85 nömrəli telefonlar vasitəsilə almaq olar.

# "Nəsimi ili" çərçivəsində "Kitab günü" keçirilib




**Bu il böyük Azərbaycan şairi və mütəfəkkiri İmadəddin Nəsiminin anadan olmasının 650 illiyi qeyd edilir. Prezident İlham Əliyev tərəfindən 2019-cu il ölkəmizdə "Nəsimi ili" elan olunaraq Nəsiminin həyat və yaradıcılığına həsr olunan silsilə tədbirlər keçirilir.**

Mayın 3-də paytaxtın Nəsimi rayonunda yerləşən Zabitlər bağında "Mən oxudum, sən də oxu" devizi altında Ədliyyə Nazirliyinin, Nəsimi rayon İcra Hakimiyyətinin və Azərbaycan Yazıçılar Birliyinin birgə təşkilatçılığı ilə "Kitab günü" keçirilib.

Tədbirdə Ədliyyə Nazirliyinin və Penitensiar xidmətin, Nəsimi rayon İcra Hakimiyyətinin rəhbər şəxsləri və məsul əməkdaşları, Yazıçılar Birliyinin, vətəndaş cəmiyyətinin təmsilçiləri, rayon ictimaiyyətinin nümayəndələri, yerli sakinlər, tələbələr və məktəblilər iştirak ediblər.

Rayon icra hakimiyyəti başçısının müavini Gülarə Verdiyeva, Ədliyyə Nazirliyi İnsan hüquqları və ictimaiyyətlə əlaqələr idarəsinin rəhbəri Aynur Sabitova, Penitensiar xidmətin ictimaiyyətlə əlaqələr şöbəsinin rəisi Mehman Sadıqov, Yazıçılar Birliyinin katibi, "525-ci qəzet"in baş redaktoru Rəşad Məcid, "Kons-





titusiya" Araşdırmaları Fondunun prezidenti Əlimәmmәd Nuriyev vә Milli QHT Forumunun prezidenti Rauf Zeyni çıxış edәrәk Nәsiminin 650 illik yubileyinә hәsr olunan "Kitab günü"nün әhәmiyyәtindәn danışıblar.

Bildirilib ki, ölkә Prezidentinin 2019-cu ilin Azәrbaycan Respublikasında "Nәsimi ili" elan edilmәsi haqqında Sәrәncamı ölkәmizdә humanitar fikrә, әdәbiyyatımıza göstәrilәn böyük diqqәt vә qayğının bariz nümunәsidir. Bu münasibәtlә keçirilәn silsilә tәdbirlәr Nәsimi irsinin öyrәnilmәsi vә tәbliği baxımından müstәsna önәm kәsb edir.

Çıxış edәnlәr Әdliyyә nazirliyi tәrәfindәn cәzaçәkmә müәssisәlәrinin kitabxana fondlarının zәnginlәşdirilmәsi mәqsәdilә aksiyanın keçirilmәsi tәşәbbüsünü humanist addım kimi dәyәrlәndirәrәk "Kitab günü" çәrçivәsindә toplanmış 4 minә yaxın müxtәlif bәdii, publisistik vә digәr elmi kitabların cәmiyyәtimizin hәssas tәbәqәsi olan azadlıqdan mәhrum edilmiş şәxslәrin istifadәsinә verilmәsini alqışlayıblar.

"Kitab günü"ndә hәmçinin, gәnclәrin mütaliә marağının artırılması mәqsәdilә "Müasir İnnovasiyalar Liseyi"nin şagirdlәrinin iştirakı ilә flәşmob tәşkil olunub. Tәdbir musiqili-bәdii proqramla davam edib.

# Beynәlxalq Ailә Gününә hәsr olunmuş tәdbir

**BMT Baş Assambleyasının 20 sentyabr 1993-cü il tarixli qәtnamәsinә müvafiq olaraq, 1994-cü ildәn başlanaraq, hәr il 15 may dünyada Beynәlxalq Ailә günü kimi qeyd olunur.**

Bu münasibәtlә Әdliyyә Nazirliyi tәrәfindәn Nәsimi Rayon İcra Hakimiyyәti ilә birgә Nizami Kino Mәrkәzindә "Sağlam ailә dövlәtin sosial dayağıdır" mövzusunda yığıncaq keçirilib.

Tәdbirdә Әdliyyә, Sәhiyyә nazirliklәrinin, Mәtbuat Şurasının, Nәsimi rayon İcra Hakimiyyәtinin nümayәndәlәri, vәtәndaş cәmiyyәtinin tәmsilçilәri, psixoloqlar, habelә regionlarda yaşayan 25-50 il birgә ömür sürmüş ailәlәr, ağsaqqallar vә ağbirçәklәr, gәnc ailәlәr iştirak ediblәr.

Yığıncaqda Nәsimi rayon İcra Hakimiyyәti başçısının birinci müavini Gülarә Verdiyeva vә Әdliyyә Nazirliyi İnsan hüquqları vә ictimaiyyәtlә әlaqәlәr idarәsinin rәhbәri Aynur Sabitova çıxış edәrәk bütün dünyada qeyd olunan Beynәlxalq Ailә Gününün ölkәmizdә dә geniş qeyd edildiyini bildirib, hazırkı tәdbirin planetimizdә yaşayan






bütün insanların diqqətini bir daha ailə problemlərinin həllinə yönəltməyə xidmət etdiyini vurğulayıblar.

Ölkəmizdə təməli ümummilli lider Heydər Əliyev tərəfindən qoyulmuş dövlət ailə siyasətinin uğurla həyata keçirildiyi, ailənin cəmiyyətin əsas özəyi kimi dövlətin daim himayəsində olduğu xüsusilə vurğulanıb, Azərbaycan Respublikasının Prezidenti cənab İlham Əliyevin və Birinci Vitse-prezidenti Mehriban xanım Əliyevanın hər bir ailəyə diqqət və qayğısı, ailə dəyərlərinin qorunub saxlanılması, ailələrin sosial müdafiəsinin gücləndirilməsi üzrə həyata keçirilən ardıcıl tədbirlər barədə məlumat verilib.

Nazirliyinin Vətəndaşlıq vəziyyəti aktlarının reyestri xidmətinin rəisi Reyhanə



Kərimova, Mətbuat Şurasının sədr müavini Umud Mirzəyev, "Konstitusiya" Araşdırmaları Fondunun prezidenti Əliməmməd Nuriyev və digər çıxış edənlər bildiriblər ki, Azərbaycanda ailə institutunun sütunları böyüyə hörmət, ailə başçısına sədaqət, qarşılıqlı sevgi və digər dəyərlərə söykənir.

Sonra zəngin və mənalı həyatı hər bir ailəyə örnək olan dahi öndər Heydər Əliyevin və akademik Zərifə xanım Əliyevanın ömür yolundan bəhs edən "Əsl məhəbbət haqqında" filmi nümayiş etdirilib.



Eyni zamanda dəvət olunmuş uzunömürlü ailələrin üzvləri də keçdikləri ömür-gün yolu barədə söhbət açaraq yeni ailə quran gənclərə öz tövsiyələrini veriblər. Daha sonra 25-50 il birgə ömür sürmüş ailələrə hədiyyələr təqdim olunub.

Tədbir Bakı Musiqi Akademiyasının, Azərbaycan Respublikası Milli Konservatoriyası nəzdində Musiqi Kollecinin və 3 nömrəli Uşaq Gənclər İnkişaf Mərkəzinin bədii kollektivlərinin konserti ilə davam edib.

# Notariat sahəsində beynəlxalq seminar keçirilib

**Ölkə Prezidenti İlham Əliyevin rəhbərliyi ilə ədliyyə sisteminin inkişafı üzrə aparılan islahatlar çərçivəsində notariat orqanlarının fəaliyyəti təkmilləşdirilir, səlahiyyətləri genişləndirilir. Beynəlxalq təcrübəyə uyğun olaraq xüsusi notariat institutu yaradılaraq səmərəli fəaliyyət göstərir.**

Həmçinin notariat ofisləri vahid şəbəkədə birləşdirən "Elektron notariat" informasiya sisteminin imkanları notariat hərəkətlərinin rəsmiləşdirilməsini xeyli sadələşdirib.

Notariat sahəsinin inkişafı və tətbiq olunan yeniliklər xarici ölkələrdə böyük maraq

doğurur, nümayəndə heyətləri Azərbaycan təcrübəsini öyrənmək məqsədilə ölkəmizə səfərlər edir, müxtəlif aktual mövzularda beynəlxalq konfranslarda, seminarlarda iştirak edirlər.

Mayın 2-də Bakıda, "Boulevard Hotel" mehmanxanasında "Notariat - qabaqcıl təcrübə və perspektivlər" adlı növbəti beynəlxalq elmi-praktiki seminar keçirilib.

Tədbirdə Rusiyanın Stavropol notariat palatasının prezidenti, bu və digər şəhərlərinin, eləcə də ölkəmizin notariusları iştirak ediblər.

Seminarda notariat sahəsində tətbiq olunan innovasiyalar, elektron ədliyyə köşkü, məsafədən videoyazı vasitəsilə göstərilən notariat xidmətləri, mobil notariatın tətbiqi, "Elektron notariat" informasiya sistemi vasitəsi ilə daşınmaz əmlaka dair mülkiyyət hüquqlarının dövlət qeydiyyatının elektron qaydada həyata keçirilməsi və müvafiq çıxarışların vətəndaşlara verilməsi, müqavilələr üzrə öhdəliklərin notariusun icra qeydi əsasında sadələşdirilmiş elektron qaydada həyata keçirilməsi imkanları barədə ətraflı məlumat verilib.



Qonaqlar Dövlət notariat arxivi, Bakı şəhərinin bir neçə notariat ofislərinin fəaliyyəti ilə yaxından tanış olublar.

Müzakirələr zamanı qarşılıqlı fəaliyyətin perspektivləri və notariat sahəsində maraq doğuran məsələlər ətrafında fikir mübadiləsi aparılıb.

# Alternativ icra mexanizmlərinin tətbiqi ilə bağlı beynəlxalq təcrübə öyrənilir





Ölkə Prezidenti İlham Əliyevin aprelin 3-də imzaladığı "Məhkəmə-hüquq sistemində islahatların dərinləşdirilməsi haqqında" Fərmanının icrası üzrə Ədliyyə Nazirliyi tərəfindən ardıcıl tədbirlər davam etdirilir, məhkəmə qərarlarının icrasının effektivliyinin artırılması, "Elektron icra" informasiya sisteminin tətbiqinin genişləndirilməsi, alternativ icra mexanizmləri, o cümlədən icranın özəl qurumlara həvalə edilməsi ilə bağlı beynəlxalq təcrübə öyrənilir. Bu məqsədlə nazirliyin nümayəndə heyəti Litvaya səfər edərək bu ölkənin təcrübəsi ilə tanış olub.

Bu günlərdə isə Ədliyyə Nazirliyin nümayəndə heyəti Bolqarıstanda tanışlıq səfərində olub. Səfər zamanı Bolqarıstanın Ədliyyə Nazirliyində, Özəl İcra Məmurları Palatasında görüşlər keçirilib, bu

ölkənin məhkəmə sistemi, icra xidmətinin işinin spesifik xüsusiyyətləri və Palatanın fəaliyyəti barədə faydalı müzakirələr aparılıb.

Görüşlərdə hər iki ölkədə ədliyyə və məhkəmə sistemində aparılan islahatlara, bu sahədə tətbiq olunan yeniliklərə qarşılıqlı maraq göstərilib.

Nümayəndə heyəti həmçinin, dövlət və özəl icra məmurlarının ofislərinə səfər edərək onların fəaliyyəti ilə yaxından tanış olub, özəl icra işinin təşkili və digər məsələlər barədə səmərəli fikir və təcrübə mübadiləsi aparılıb.

# Ədliyyə Akademiyasının məlumatları

## ◆ BQXK ilə birgə hakimlər və prokurorlar üçün təlim

**Mayın 2-3-də Beynəlxalq Qızıl Xaç Komitəsi və Ədliyyə Akademiyasının birgə təşkilatçılığı ilə "Ayrı-ayrı kateqoriyalara aid cinayətlərə baxılmasının xüsusiyyətləri: terrorizm cinayətləri beynəlxalq hüquq müstəvisində" mövzusunda hakimlər və prokurorlar üçün təlim keçirilib.**

Təlimdə BQXK-nın Azərbaycandakı Nümayəndəliyinin rəhbəri Elena Aymone Sessera açılış nitqi ilə çıxış edib.

45-dək hakim və prokurorluq işçilərinin qatıldığı təlimdə Moskva Ali İqtisadiyyat Məktəbinin Beynəlxalq hüquq kafedrası dosentinin, Kazan Federal Universitetinin Beynəlxalq və Avropa hüququ kafedrası professorunun, Bakı Dövlət Universitetinin və Sumqayıt Apelyasiya Məhkəməsi hakiminin təqdimatları dinlənilib.

İştirakçılara Beynəlxalq cinayət hüququ anlayışı: *stricto sensu* beynəlxalq cinayətlərinin "növbəti nəsil" beynəlxalq cinayətlərindən fərqləndirilməsi, terrorizm cinayətlərinin anlayışı, bcinayətlə bağlı istintaq aparılması və məhkəmə təqibinə dair praktiki cəhətlər, terrorizm və beynəlxalq humanitar hüquq, Cinayət Məcəlləsinin 283-cü maddəsi (Milli, irqi, sosial və ya dini nifrət vədüşmənçiliyin salınması) ilə bağlı nəzəri və praktiki məsələlər barədə məlumat verilib və müxtəlif kazusların müzakirəsi aparılıb.

Yekunda iştirakçılara sertifikatlar təqdim olunub.

Eyni zamanda hakimlər Probasiya xidmətində müasir avadanlıqlarla təchiz olunmuş Elektron monitorinq mərkəzi ilə tanış olub, elektron qolbaqdan istifadə qaydaları əyani şəkildə nümayiş etdirilib.

## ◆ Avropa Şurasının 70 illiyi ilə bağlı "Açıq gün"

**Mayın 5-də Avropa Şurasının 70 illiyi münasibətilə təşkilatın Bakı Ofisində Açıq Gün keçirilib.**

Tədbirdə Ədliyyə Nazirliyinin Ədliyyə Akademiyası, ADA, Bakı Dövlət və Bakı Slavyan universitetlərinin və Azərbaycan Gənclər Fondunun 50-dən çox tələbə, müəllim və nümayəndələri iştirak ediblər.

Ədliyyə Akademiyası əməkdaşlarının və Akademiyada icbari təlim keçən Penitensiar xidmətin orta rəis heyətinə namizədlərin




qatıldığı tədbirdə Avropa Şurasının qurulduğu gündən bəri əldə etdiyi əsas nailiyyətlər barədə məlumat verilib.

Təşkilatın Bakı Ofisinin rəhbəri səfir Zoltan Hernyes Avropa Şurasının 70 illiyi haqda danışıb, daha sonra çirkli pul-

ların yuyulması və ədliyyə sahəsində islahatlarla bağlı həyata keçirilən layihələrdən bəhs olunub, həmçinin tezliklə gender bərabərliyi və media azadlığı mövzularında layihəyə başlanılacağı bildirilib.

Tədbirdə iştirakçılar Avropa İnsan Hüquqları Konvensiyasının müxtəlif maddələrinin şərhi ilə bağlı nəşrlərlə tanış olublar.

## Vəkilliyə namizədlərin icbari təlimi





**Prezident İlham Əliyevin ölkədə vəkillərin sayının artırılması ilə bağlı tövsiyələri çərçivəsində Vəkillər Kollegiyasının üzvlüyünə qəbul üzrə tədbirlərin həyata keçirilməsi davam etdirilir. Bu məqsədlə hazırda tam şəffaf, obyektiv şəkildə ixtisas imtahanları keçirilir.**

Mayın 10-da Ədliyyə Akademiyasında yazılı və şifahi imtahanlarda müvəffəqiyyət qazanmış 87 vəkilliyə namizədlə bir ayadək davam edəcək icbari təlim başlayıb. Təlim zamanı namizədlərin lazımi biliyə və peşə hazırlığına yiyələnmələrinə, habelə beynəlxalq təcrübəni öyrənmələrinə xüsusi diqqət yetiriləcək, insan haqlarının qorunması, vəkil etikası və digər aktual məsələlərə dair mövzular nüfuzlu ekspertlərin iştirakı ilə tədris olunacaq.

İcbari təlimin birinci günündə namizədlərlə keçirilən görüşdə Ədliyyə Akademiyasının rektoru vəzifəsini icra edən Elçin Xələfov tədbirdə çıxış edərək, vəkillərin ilkin icbari və davamlı tədrisinin əhəmiyyətindən danışıb, Vəkillər Kollegiyası ilə birgə hazırlanmış tədris proqramının məzmun baxımından yeniliklərlə zəngin olması barədə namizədlərə məlumat verib və onlara uğurlar arzulayıb.

Azərbaycan Respublikası Vəkillər Kollegiyasının sədri Anar Bağırov vəkillik institutunun inkişafı ilə bağlı həyata keçirilən tədbirlər və gələcək planlar, Prezident İlham Əliyevin ötən il fevralın 22-də imzaladığı "Azərbaycan Respublikasında vəkilliyin inkişafı ilə bağlı əlavə tədbirlər haqqında" Sərəncamının bu baxımdan xüsusi əhəmiyyət kəsb etməsi, bu çərçivədə ölkədə fəaliyyət göstərən vəkillərin sayının savadlı və peşəkar hüquqşünaslar hesabına artırılmasının önəmi barədə danışıb, o cümlədən, vəkilliyə qəbulla bağlı keçirilən ixtisas imtahanlarının yazılı və şifahi mərhələsindən uğurla keçmiş namizədləri bu münasibətlə təbrik edərək, hazırkı icbari təlimin vəkilliyə namizədlərin gələcək peşə fəaliyyəti üçün əhəmiyyətini vurğulayıb.



Bildirilib ki, təlimçilərin tərkibi əsasən peşəkar vəkillərdən komplektləşdirilib, namizədlər üçün təcrübi dərslərin keçirilməsi, habelə muzeylərə və digər mədəni obyektlərə səfərlərin təşkil olunması nəzərdə tutulub.

Daha sonra Vəkillər Kollegiyasının sədri Anar Bağırovun vəkillik etikası mövzusunda mühazirəsi dinlənilib, vəkillik etikası ilə bağlı namizədləri maraqlandıran suallar cavablandırılıb.

***

Vəkilliyə namizədlərin icbari təlim proqramına uyğun olaraq mövzuların tədrisinə bir sıra yuxarı instansiya məhkəmələrinin hakimləri, vəkillər və praktiki hüquqşünaslar, digər yerli və beynəlxalq ekspertlər cəlb olunub.

Almaniya Beynəlxalq Əməkdaşlıq Cəmiyyətinin (GİZ) eksperti Rudolf Lauda "Vəkillik etikasının bəzi aspektləri - beynəlxalq təcrübə" mövzusunda namizədlər qarşısında mühazirə ilə çıxış edib, vəkil etikasının təhlili, beynəlxalq təcrübədə tətbiqi və digər məsələlər ətrafında fikir mübadiləsi aparıb.

## ◆ Akademiyanın nümayəndəsi Berlində "Yaxşı idarəetməyə dair proqram"da iştirak edib

**Almaniya Federativ Respublikasının Berlin şəhərində yerləşən Karl Fridrix Gördeler Kollecində "Yaxşı idarəetməyə dair proqram" təşkil olunub.**

Türkiyə, Rusiya, Moldova, Gürcüstan, Ermənistan, Ukrayna və Belarusun aidiyyəti dövlət və qeyri-dövlət sektoru təmsilçilərinin qatıldığı tədbirdə Azərbaycan Prezident Administrasiyasının Dövlət qulluğu və kadr məsələləri şöbəsinin, Vətəndaşlara Xidmət və Sosial İnnovasiyalar üzrə Dövlət Agentliyinin və Ədliyyə Nazirliyi Ədliyyə Akademiyasının nümayəndələri iştirak ediblər.

Sözügedən proqramın əsas məqsədi yaxşı idarəetmə naminə gənc liderlərə dəstək olmaqla onlara ictimai faydalı və innovativ layihələrin həyata keçirilməsində birbaşa yardım etmək və təcrübəli layihə mene-



cerlərinin himayəsi altında fərdi yaxşı idarəetmə layihəsinin həyata keçirilməsinə dəstəkdir.

Gördeler Kolleci istənilən təşkilat əməkdaşlarına beynəlxalq səviyyədə ixtisasartırma keçməsinə və şəbəkələşməyə daxil olmasına imkan verir.

İki hissədən ibarət olan tədbirdə Gördeler kollecinin direktoru, Mərkəzi-Şərqi Avropa və Berlin Valiliyi Altındakı Beynəlxalq Təşkilatın, Bolqarıstanın "Sərhədsiz təhsil" birliyinin, "Sərhədyanı ölkələri ilə əməkdaşlıq və Avropa işləri üzrə Büro"sunun nümayəndələri, Gördeler Kollecinin proqram üzrə koordinatoru və digər ekspertlər çıxış ediblər.

Konfransda təmsil olunan ölkələrdə vətəndaşların siyasi aktiv və passivliyinin səbəbləri müzakirə olunub, mövzu ilə bağlı təqdimatlar hazırlanıb. Tədbirin ikinci günü yaxşı idarəetməyə dair hazırlanmış layihələrin iştirakçılar tərəfindən təqdim edilməsi ilə davam etdirilib.

Ədliyyə Akademiyanın nümayəndəsi Gülnaz Qurbanova layihə çərçivəsində "Dövlət strukturunda kadr sisteminin yaxşılaşdırılması və işçilərin motivasiyasının gücləndirilməsi" mövzusunda təqdimatla çıxış edib.

## ◆ İnsan alverinə qarşı mübarizədə beynəlxalq təcrübə öyrənilir

Avropa İttifaqı və Beynəlxalq Miqrasiya Təşkilatının (BMqT) İnkişaf Fondu tərəfindən birgə maliyyələşdirilən "Azərbaycanda insan alverinə qarşı mübarizə üzrə milli potensialın gücləndirilməsi" layihəsi çərçivəsində BMqT-nin ölkəmizdəki Nümayəndəliyinin və regional ofisinin dəstəyi ilə mayın 13-16-da Azərbaycanın 11 nəfərlik nümayəndə heyəti Litvada dördgünlük tanışlıq səfərində olub.

Nümayəndə heyətinə Ədliyyə Nazirliyi Ədliyyə Akademiyasının, Daxili İşlər Nazirliyi İnsan alverinə qarşı mübarizə baş idarəsinin, Baş Prokurorluğun və Vəkillər Kollegiyasının təmsilçiləri, apelyasiya və rayon məhkəmələrinin hakimləri daxil edilib.

Səfərin əsas məqsədi insan alverinə qarşı mübarizədə hüquqi qərarların verilməsi, insan alveri qurbanlarının müdafiəsi sahəsində beynəlxalq və Avropa standartlarının tətbiqi, qanunvericiliyin təhlili və Litvada insan alveri ilə bağlı cinayətlərin təqibi halları, insan alveri sahəsində prosedur və qaydalarla tanış olmaqdır.

Litva Respublikasının Vilnüs və Kaunas şəhərlərində olan nümayəndə heyəti Litva Hökumətinin Kansleri Alqirdas Stonçaytis, Baş Prokurorunun müavini Rimvyadas Valentukeviçius, Sosial Təhlükəsizlik və Əmək nazirinin müavini Etvidas Binqales, Litva Baş Polis komissarı Linas Pernavas, Ali Məhkəmənin hakimləri ilə görüşlər keçirib, faydalı fikir və təcrübə mübadiləsi aparılıb.

Hökumətin kansleri ilə görüşdə ölkəmizin insan alveri ilə mübarizə haqqında qanunvericiliyi və hüquqi praktikası ilə bağlı əyani təqdimatla çıxış edilib. Həmçinin, bu sahədə müsbət təcrübələr, yanaşmalar və yeni tendensiyalar, insan alveri qurbanlarına yardım göstərilməsi prosedurları barədə maraqlı diskussiyalar keçirilib.





Səfər çərçivəsində nümayəndə heyəti İnsan alveri qurbanlarına yardım üzrə Vilnüs Böhran Mərkəzinin, Kaunasda yerləşən Kişilərin Böhran Mərkəzi Assosiasiyasının, Kaunas şəhər bələdiyyəsi nəzdində insan alverinə qarşı çoxşaxəli mübarizəyə dair komandanın fəaliyyəti ilə yaxından tanış olublar.

Eyni zamanda, Azərbaycanın Litvadakı Səfirliyinə baş çəkilib, fövqəladə və səlahiyyətli səfir Tamerlan Qarayev səfirliyin fəaliyyəti barədə geniş məlumat verib, maraq doğuran məsələlər müzakirə edilib.

## ◆ Beynəlxalq Maliyyə Korporasiyası ilə birgə hakimlər üçün təlim

Ölkəmizdə sahibkarlığın inkişafı, əlverişli biznes mühitinin yaradılması çərçivəsində orta və kiçik sahibkarların maliyyə çıxışının asanlaşdırılması, daşınar və daşınmaz əmlakın gəlir gətirməsi və girov kimi istifadə edilməsi imkanlarının təhlili, bankların gəlir gətirmə prosesində iştirak edən daşınar əmlaka girov kimi etibarın yüksəldilməsi istiqamətində konkret tədbirlər görülür, qanunvericilik təkmilləşdirilir.

Bu məqsədilə "Daşınar əmlakın yüklülüyü haqqında" 02.05.2017-ci il tarixli Qanun qəbul edilib, 2018-ci ilin mart ayından daşınar əmlakın yük-

lülüyü haqqında dövlət reyestri fəaliyyətə başlayıb.

Bu sahədə beynəlxalq təcrübənin öyrənilməsi və hüquqi maarifləndirmə məqsədilə Ədliyyə Nazirliyinin Ədliyyə Akademiyası tərəfindən Beynəlxalq Maliyyə Korporasiyasının Azərbaycandakı Nümayəndəliyi (IFC) və İsveçrənin İqtisadi məsələlər üzrə Dövlət Katibliyi (SECO) ilə birgə "Daşınar əmlakın yüklülüyü" mövzusunda silsilə təlimlər təşkil olunur.

Bu günlərdə keçirilmiş növbəti təlimin açılışında Akademiyanın rektor vəzifəsini icra edən Elçin Xələfov, IFC-nin Layihə təmsilçisi Teymur Heybətov və Maliyyə Bazarlarına Nəzarət Palatası idarə heyətinin üzvü vəzifəsini icra edən Əfqan Baxışov çıxış edərək bildiriblər ki, təlimlərin keçirilməsində məqsəd daşınar əmlakın yüklülüyü sahəsində mübahisələrə



baxacaq hakimlər tərəfindən yeni qanunvericilikdən və beynəlxalq təcrübədən irəli gələn məsələlərin öyrənilməsi, milli təlimçilərin hazırlanmasıdır.

Birinci instansiya məhkəmələri hakimlərinin cəlb olunduğu təlimdə IFC-nin və Palatanın nümayəndələri tərəfindən "Azərbaycanda maliyyə infrastrukturu sahəsində qanunvericilik və institusional islahatların qısa xülasəsi", "Daşınar əmlakın yüklülüyü ilə tanışlıq", "Daşınar əmlakın yüklülüyündə üstünlük qaydaları", "Məhkəmə baxışı", "Daşınar əmlakın yüklülüyünün yaranması (əqdlərin rəsmiləşdirilməsi)", "Daşınar əmlakın yüklülüyündə yüklülük predmetinə tutma yönəldilməsi" mövzuları üzrə mühazirələr tədris olunub, dinləyiciləri maraqlandıran suallar ətrafında faydalı fikir mübadiləsi aparılıb.

## ◆ İcra və probasiya şöbələrinin əməkdaşları üçün təlim



**Ədliyyə Akademiyası tər-əfindən ədliyyə işçilərinin bilik və bacarıqlarının artırılması tərəfindən mütəmadi seminarlar, ixtisasartırma kursları və digər tədbirlər keçirilir, bu sahədə digər dövlət qurumları və beynəlxalq təşkilatlarla səmərəli əməkdaşlıq edilir.**

Silsilə tədbirlər çərçivəsində Akademiyada mayın 18-də Daxili İşlər Nazirliyi nümayəndələrinin iştirakı ilə Gəncə, Sumqayıt və digər rayon (şəhər) icra və probasiya şöbələrinin əməkdaşları üçün təlim keçirilib.

Tədbiri giriş sözü ilə Ədliyyə Akademiyasının rektor əvəzi Elçin Xələfov və Probasiya xidmətinin rəis müavini Musa Hümbətov açaraq probasiya institutunun azadlıqdan məhrumetməyə alternativ cəzaların icrasında rolundan bəhs edib, bu sahədə işin səmərəli təşkili, icra və probasiya məmurlarının peşəkarlıqlarının artırılması baxımından təlimin əhəmiyyətindən danışıblar.

Təlimdə Daxili İşlər Nazirliyinin nümayəndələrinin "Mərkəzləşdirilmiş kriminal və axtarış uçotlarının təşkili və aparılması qaydaları barədə", "Cinayət törətməkdə şübhəli və ya təqsirləndirilən, məhkum olunmuş, habelə inzibati qaydada həbs edilmiş şəxslərin mərkəzləşdirilmiş fərdi uçotlarının təşkili və aparılmasına dair", "Dövlət daktiloskopik və genom qeydiyyatının aparılmasına dair" mövzular üzrə mühazirələri dinləyicilərin diqqətinə çatdırılıb.

Sonda iştirakçıları maraqlandıran suallar cavablandırılıb.

## Hakimlər və vəkillər üçün təlim təşkil olunub



Ölkə başçısının 2016-cı il 6 dekabr tarixli Fərmanı ilə təsdiq edilmiş "Azərbaycan Respublikasında maliyyə xidmətlərinin inkişafına dair Strateji Yol Xəritəsi"nin "Hüquqi çərçivəyə yenidən baxılması, məhkəmə qərarlarının qəbulu və icrası proseslərinin sürətləndirilməsi" prioritetinin tədbirlər planında nəzərdə tutulmuş maarifləndirmə işinin təşkili istiqamətində Ədliyyə Akademiyasının və Maliyyə Bazarlarına Nəzarət Palatasının birgə təşkilatçılığı ilə mayın 23-də hakimlərə və vəkillərə "Məhkəmə qərarlarının qəbulu və icrası proseslərinin sürətləndirilməsi" mövzusunda təlim keçirilib.

İnteraktiv metodlar və dialoq formasında keçirilən təlim çərçivəsində bank-kredit müqavilələrindən irəli gələn mübahisələrə baxılması, banklar və ləğvetmə prosesində olan banklarla bağlı məhkəmə işləri və vəkillərin rolu, məhkəmə qərarlarının icrası ilə bağlı hakimlər və vəkillərin qarşılıqlı münasibəti, o cümlədən cinayət yolu ilə əldə edilmiş pul vəsaitlərinin və ya digər əmlakın leqallaşdırılmasına və terrorçuluğun maliyyələşdirilməsinə qarşı mübarizəyə dair mövzuları əhatə edən təqdimatlar iştirakçılar tərəfindən maraqla qarşılanıb.

Təcrübə və diskussiyalarla zəngin olan təlimdə 40-dan çox vəkil və hakim iştirak edib.

## Ədliyyə və məhkəmə aparatı işçiləri üçün ixtisasartırma kursları

**Ədliyyə Akademiyasında ədliyyə və məhkəmə aparatı işçiləri üçün ardıcıl ixtisasartırma kursları keçirilir.**

May ayı ərzində Ədliyyə Nazirliyinin müxtəlif qurumlarından olan əməkdaşlar üçün "Korrupsiyaya qarşı mübarizə", "İKT-nin müasir imkanları və ədliyyə orqanlarında tətbiqi məsələləri" mövzularına həsr olunan təlimlər təşkil edilib.

Ümumilikdə 60-dək ədliyyə işçisinin cəlb edildiyi təlimlərdə "Ədliyyə orqanları işçilərinin etik davranış qaydalarının tələbləri və bu Qaydaların pozulmasına görə məsuliyyət", "Korrupsiyaya qarşı mübarizə və antikorrupsiya mədəniyyəti", "Korrupsiyaya qarşı mübarizə və ədliyyə işçisinin fəaliyyətində maraqların toqquşmasının qarşısının alınması", "Elektron imza və onun tətbiqi məsələləri", "Müasir İKT-dən istifadə və ədliyyə orqanları tərəfindən göstərilən elektron xidmətlər. Ədliyyə Nazirliyində tətbiq olunan informasiya sistemləri", "Ədliyyə orqanlarında elektron sənəd dövriyyəsi sisteminin təşkili və tətbiqi məsələləri" mövzuları üzrə mühazirələr dinləyicilərin diqqətinə çatdırılıb.

***

Mayın 30-da Ədliyyə Akademiyası tərəfindən Gəncə Şəhəri Nizami Rayon Məhkəməsində məhkəmə aparatı işçiləri üçün "Məhkəmə fəaliyyətinin səmərəliliyinin artırılmasına yönəlmiş tədbirlər" mövzusunda təlim keçirilib.



30-dan çox dinləyicinin qatıldığı təlimdə "Məhkəmə-hüquq sistemində islahatların dərinləşdirilməsi haqqında" Azərbaycan Respublikası Prezidentinin 03 aprel 2019-cu il tarixli Fərmanı", "Elektron məhkəmə" informasiya sistemindən məhkəmələrdə səmərəli istifadə məsələləri", "Dövlət qulluqçularının korrupsiyaya qarşı davranışı və maraqların toqquşması" barədə mövzular tədris olunub.

Sonda tədris olunan mövzulara, dərsləri tədris edən müəllimlərə, eləcə də təlimin təşkilinə münasibətləri öyrənmək məqsədilə dinləyicilər arasında anonim sorğu aparılıb.

## ◆ Bələdiyyə üzvləri və qulluqçuları üçün maarifləndirmə tədbirləri





**Ədliyyə Nazirliyinin Ədliyyə Akademiyası və Bələdiyyələrlə iş mərkəzi tərəfindən Gəncə və Xaçmaz şəhərlərində bələdiyyə üzvləri və bələdiyyə qulluqçularının hüquqi maarifləndirilməsi məqsədilə tədris kursları keçirilib.**

Ümumilikdə 115 nəfər dinləyicinin cəlb edildiyi hüquqi maarifləndirmə tədbiri Ədliyyə Akademiyası tərəfindən hazırlanmış və Bələdiyyələrlə iş mərkəzi ilə razılaşdırılmış proqrama əsasən həyata keçirilib.

Kurs zamanı "Bələdiyyə mülkiyyəti, əmlak təminatı və mülkiyyət toxunulmazlığı. Bələdiyyə mülkiyyətinə dair Avropa Şurasının sənədləri", "Strateji yol xəritəsinin icrasında bələdiyyələrin iştirakı", "Bələdiyyə qulluğuna qəbulun müsabiqə yolu ilə həyata keçirilməsi və bələdiyyə media münasibətlərinin hüquqi tənzimlənməsi", "Bələdiyyələrdə arxiv işinin təşkili", "Bələdiyyə torpaqlarının idarə olunmasında qanunçuluğun təmin edilməsi, bələdiyyə torpaqlarının qiymətləndirilməsi" mövzuları üzrə mühazirələr dinləyicilərin diqqətinə çatdırılıb.

## Gənc könüllülər və tələbələr üçün seminar



**Ədliyyə Nazirliyi tərəfindən əhalinin hüquqi maarifləndirilməsi, ədliyyə və məhkəmə fəaliyyəti barədə ictimaiyyətin mütəmadi məlumatlandırılması daim diqqətdə saxlanılaraq həyata keçirilən islahatlar və yeniliklər geniş işıqlandırılır, nazirliyin fəaliyyət istiqamətləri, vəzifələri barədə kütləvi informasiya vasitələrinin iştirakı ilə brifinqlər, seminar-müşavirələr, digər maarifləndirici tədbirlər təşkil olunur.**

Ədliyyə Akademiyasında nazirliyin əməkdaşlarının, ədliyyə və ASAN könüllülərinin, Bakı Dövlət Universiteti hüquq fakültəsinin və SABAH qruplarının tələbələrinin iştirakı ilə "Qeydiyyat və notariat baş idarəsinin əsas funksiyaları" mövzusunda maarifləndirici seminar keçirilib.

70-dən çox dinləyicinin qatıldığı tədbirdə nazirliyinin qeydiyyat və notariat fəaliyyəti, tətbiq olunan informasiya-kommunikasiya texnologiyaları, elektron sistemlər və müxtəlif reyestrlər barədə ətraflı məlumat verilib, "Ədliyyə sistemində innovasiyaların tətbiqi", "Sahibkarlıq sahəsində yoxlamaların aparılması" və "Ailə və nikah münasibətlərinin qorunub saxlanılmasında mediasiya xidmətlərinin əhəmiyyəti" mövzuları üzrə çıxışlar edilib.

Bildirilib ki, ölkə Prezidenti cənab İlham Əliyevin qanunvericilik təşəbbüsü ilə ötən ilin noyabrında qəbul edilmiş "Notariat haqqında" Qanuna edilən əsaslı dəyişikliklər daha müasir texnologiyaların və innovasiyaların tətbiqinə geniş imkan yaradıb. Məsafədən xidmətlərə tələbatın artması ilə əlaqədar və əhalinin məmnunluğunun təmin edilməsi üçün müasir avadanlıqla təchiz olunan və "Elektron notariat" informasiya sisteminə birbaşa çıxışı olan notariusların xüsusi səyyar çantaları hazırlanıb, elektron ədliyyə köşkü istifadəyə verilib.



İştirakçılar həmçinin, sahibkarlıq sahəsində həyata keçirilən islahatlar, bu sahədə yoxlamaların reyestri, dövlət başçısının "Məhkəmə-hüquq sistemində islahatların dərinləşdirilməsi haqqında" 2019-cu il 3 aprel tarixli Fərmanının sahibkarların məhkəmələrə müraciət imkanlarının asanlaşdırılmasında müstəsna əhəmiyyəti barədə məlumatlandırılıb.

Eyni zamanda, ailə-nikah münasibətlərinin qorunub saxlanmasına xidmət edən, vətəndaş cəmiyyəti institutları ilə birgə layihə çərçivəsində qeydiyyat şöbələrində təşkil olunan psixoloqların mediasiya xidmətlərinin sosial əhəmiyyəti qeyd olunub.

Seminarda dinləyiciləri maraqlandıran suallar cavablandırılıb, müzakirələr aparılıb.

# "Ədliyyə könüllüləri" layihəsi çərçivəsində tələbələr ədliyyə fəaliyyəti üzrə təcrübə keçiblər



**Naxçıvan Dövlət Universitetinin sosial idarəetmə və hüquq fakültəsinin hüquqşünaslıq ixtisasının II kurs tələbələri mayın 14-də "Ədliyyə könüllüləri" layihəsi üzrə Naxçıvan Muxtar Respublikası Ədliyyə Nazirliyinin Məhkəmə Ekspertizası Mərkəzində və Naxçıvan Şəhər icra və Probasiya şöbəsində istehsalat təcrübəsi keçiblər.**

Yaradılmış ekspert qrupunun üzvlərinin rəhbərliyi ilə gün ərzində tələbələr bu qurumların iş fəaliyyəti ilə tanış olub, gündəlik iş prosesində iştirak edib və maraq doğuran sahələr barədə ətraflı məlumat alıblar.

Bildirilib ki, həyata keçirilən bu tədbirlərin əsas məqsədi tələbələrin nazirliyin fəaliyyət prosesinə cəlb etməklə yeni layihələr üzə çıxarmaqdır. Bütün bunlar isə tələbələrin ədliyyə sahəsi üzrə nəzəri biliklərinin praktik şəkildə mənimsəmələrinə müsbət təsirini göstərəcək.

Tələbələr Məhkəmə Ekspertizası Mərkəzində Əlyazmaların, səslərin və sənədlərin texniki ekspertizası laboratoriyasında da ekspertin iş təcrübəsi ilə tanış olublar. Burada onlara pul nişanlarının və sənədlərin tədqiqatını aparmaq üçün video spektral komparator avadanlığı vasitəsilə saxta pulların və saxta sənədlərin müəyyən olunma metodikası əyani şəkildə göstərilib. Tələbələr bu biliklərini möhkəmlətmək üçün gördüklərini təcrübi şəkildə tədqiqat apararaq müvafiq biliklərə yiyələniblər.

Naxçıvan Şəhər İcra və Probasiya şöbəsində, Məhkəmə-ballistik ekspertizasında tələbələr təcrübi bilik əldə ediblər.

***

**Mayın 27-də "Ədliyyə könüllüləri" istiqamətverici layihəsi üzrə növbəti görüş olub.**

Tələbələr əvvəlcə nazirliyin İcra və probasiya şöbəsində probasiya üzrə müasir elektron nəzarət sistemi ilə tanış olublar. Burada onlara elektron nəzarət sisteminin istifadə qaydaları izah edilib, eləcə də məhkumlar üzərində tətbiq olunan elektron nəzarət vasitəsindən istifadə edərək sistemin işlənilmə qaydası öyrədilib.

Penitensiar Xidmətdə olarkən tələbələrə xidmətin əsas-fəaliyyət istiqamətləri barədə məlumat verilib. Qeyd olunub ki, xidmətin vəzifələri müəyyən müddətdə azadlıqdan məhrumetmə cəzasını, məhkumların islah işini, onların mühafizə və müşayiətini icra etmək, məhkumların reabilitasiyası və sosial adaptasiyasına kömək etmək, habelə hüquqi maarifləndirmə göstərməkdən ibarətdir.

Notariat və qeydiyyat şöbəsində tələbələr burada yerləşən arxiv ilə tanış olublar. Onlara arxiv işinin təşkili və tənzimlənməsi barədə geniş məlumat verilib, əməkdaşlarla birlikdə sənədlərin arxivləşdirilməsi proseduru əyani şəkildə öyrədilib.

Tələbələri maraqlandıran suallar cavablandırılıb.



# Azərbaycanın məhkəmə sistemi yeni çağırışlara adekvat olaraq müasirləşir

**İnkişafının keyfiyyətcə yeni mərhələsinə qədəm qoymuş müstəqil Azərbaycan Respublikası şəffaflığa və hesabatlılığa əsaslanan vətəndaş cəmiyyəti quruculuğu istiqamətində inamlı addımlar atır. Respublikamız demokratik və hüquqi dövlət quruculuğu yolunun dönməzliyini özü üçün tam müəyyənləşdirərək xalqın gələcək inkişafında bu mütərəqqi dəyərlərin rolunu və əhəmiyyətini daim önə çəkir. Bu mərhələnin ən səciyyəvi cəhəti səmərəli dövlət idarəçiliyi sisteminin yaradılması məqsədilə vətəndaş cəmiyyəti institutlarının inkişafı, liberal siyasi mühitin formalaşması, insan hüquq və azadlıqlarının aliliyinə xidmət edən kompleks tədbirlərin həyata keçirilməsidir.**



Xüsusilə qeyd etmək lazımdır ki, 2018-ci ilin 11 aprel seçkilərində inamlı qələbə qazanaraq səlahiyyətlərinin icrasına başlamış Azərbaycan Respublikasının Prezidenti cənab İlham Əliyevin ilk günlərdən əsaslı yeniliklərə start verməsi ölkəmizdə sistem xarakterli islahatların başlandığını deməyə ciddi əsaslar verir. Məqsəd islahatların miqyas və tempini sürətləndirmək, xidmət sahələrində vətəndaş məmnunluğunu, idarəçilikdə səmərəliliyi və şəffaflığı təmin etmək, eləcə də ədalət mühakiməsinin səmərəliliyini yüksəltmək, məhkəmələrin müstəqilliyini daha da möhkəmləndirməkdir.

İdarəçiliyin müasirləşdirilməsi, bütün fəaliyyət sferalarında ictimai rəy amilinin ciddiliklə nəzərə alınması, vətəndaşları narahat edən problemlərin operativ qaydada aradan qaldırılması, şəffaflıq, hesabatlılıq - bütün bunlar yeni mərhələdə dövlətimizin başçısı cənab İlham Əliyevin qarşıya qoyduğu ciddi tələblərdir. 2019-cu il 20 mart tarixində xalqa ənənəvi müraciətində cənab İlham Əliyev cəmiyyətin digər sahələri ilə yanaşı, məhkəmə-hüquq sistemində də islahatların davam etdiriləcəyini demişdir: "İslahatlar dərinləşəcək. İslahatlara alternativ yoxdur. Siyasi islahatlar, iqtisadi islahatlar, sosial sahədə islahatlar, məhkəmə-hüquq sistemində islahatlar - artıq müvafiq göstərişlər verilib və sənədlər paketi hazırlanır - təhsil, səhiyyə sahələrində, hər bir sahədə, Azərbaycan yeni dövrə qədəm qoyub. Azərbaycan yeniləşir, Azərbaycan güclənir və müasirləşir".

Xatırlatmaq lazımdır ki, son 15 ildə Prezident cənab İlham Əliyevin rəhbərliyi ilə məhkəmə-hüquq sistemində inqilabi xarakterli islahatlar həyata keçirilmiş, məhkəmələrin və hakimlərin müstəqilliyi gücləndirilmişdir. Zamanın inkişaf ahənginə adekvat olaraq ədalət mühakiməsinin səmərəliliyinin yüksəldilməsinə, bu sahədə qabaqcıl beynəlxalq təcrübənin öyrənilərək tətbiqinə əsaslanan bu mütərəqqi islahatlar statik xarakter daşımayıb, zamanla təkmilləşir, yeni məzmun və forma kəsb edir. Son 1 ildə dövlətimizin başçısının daha geniş miqyasda reallaşdırdığı sosialyönümlü islahatlar paketi cəmiyyətin bütün sferaları, o cümlədən məhkəmə-hüquq sistemi qarşısında da yeni çağırışları aktuallaşdırır.

Məhkəmə hakimiyyətinin özünüidarə funksiyasını uğurla həyata keçirən Azərbaycan Respublikasının Məhkəmə-Hüquq Şurasının məqsədyönlü fəaliyyəti nəticəsində bu sahədə infrastrukturun müasirləşdirilməsi, yeni regional məhkəmələrin yaradılması, habelə hakimlərin sosial müdafiəsinin gücləndirilməsi məsələləri xüsusi diqqət mərkəzində olmuşdur. Son 10 ildə məhkəmələrə müraciət imkanlarının yaxşılaşdırılması, bölgələrdə hüquq institutlarının inkişafı məqsədilə 20-dək yeni məhkəmələr, o cümlədən regional apelyasiya, ağır cinayətlər məhkəmələri, habelə dövlət orqanları tərəfindən vətəndaşların pozulmuş hüquqlarının bərpası məqsədilə 7 inzibati-iqtisadi məhkəmə yaradılaraq fəaliyyətə başlamışdır.

Hakimlərin seçiminə diqqət gücləndirilmiş, çoxmərhələli, şəffaf və obyektiv imtahanlar nəticəsində uğur qazanmış 400-dək namizəd hakim vəzifəsinə təyin olunmuşdur. Məhkəmə islahatları nəticəsində hakimlərin ən yüksək həddədək - müddətsiz təyinatı müəyyən olunmuş, habelə seçim prosedurları təkmilləşdirilmişdir. Avropa Şurası Ədalət mühakiməsinin səmərəliliyi üzrə Komissiyası (CEPEJ) Azərbaycanda hakimlərin seçimi prosesini bilavasitə izləməklə ölkəmizin təcrübəsini digər Avropa dövlətlərinə örnək kimi göstərmişdir.

Son illər məhkəmələrin fəaliyyətində müasir informasiya texnologiyalarının tətbiqi - "Elektron məhkəmə informasiya sistemi"nin yaradılması, məhkəmələr üçün yeni inzibati binaların inşası, mövcud binaların əsaslı təmir olunması, ölkədə ədalət mühakiməsinin səmərəliliyinin daha da yüksəldilməsinə xidmət etmişdir.

İnsan amilinin hökumətin fəaliyyətində daim prioritet olması həyata keçirilən islahatların davamlılığını və səmərəliliyini təmin edir. Dövlətimizin başçısının qanunvericilik təşəbbüsü ilə 2018-ci ilin 28 dekabrında Azərbaycan Respublikasının Mülki Prosessual Məcəlləsində və "Məhkəmələr və hakimlər haqqında" Qanununda dəyişikliklər edilərək iqtisadi mübahisələr üzrə işlərə kağızsız, elektron qaydada baxılmasına keçilmiş, hakim və sahibkar arasında münasibətlərin tamamilə elektron qaydada tənzimlənməsi təmin edilmişdir.

Azərbaycan Respublikasının Prezidenti cənab İlham Əliyevin 3 aprel 2019-cu il tarixli "Məhkəmə-hüquq sistemində islahatların dərinləşdirilməsi haqqında" Fərmanı keyfiyyətcə yeni mərhələdə məhkəmə sisteminin müasirləşdirilməsi, hakimlərin müstəqilliyinin daha da möhkəmləndirilməsi ilə bağlı yeni hədəflər müəyyən etmişdir. Fərmana əsasən, Azərbaycan Respublikasının bütün məhkəmə sədrlərinə və hakimlərinə məhkəmə hakimiyyətinin nüfuzunun artırılması və cəmiyyətdə məhkəmələrə etimadın möhkəmlənməsi üçün fəaliyyətlərində ədalət, qanunçuluq, qərəzsizlik, aşkarlıq, hər kəsin qanun və məhkəmə qarşısında bərabərliyi kimi prinsiplərə dönmədən riayət etmək tövsiyə edilmişdir. Eləcə də Ali Məhkəmə və Baş Prokurorluğa cəza siyasətinin humanistləşdirilməsi və cinayətlərin dekriminallaşdırılması üzrə tədbirlərin davam etdirilməsi məqsədilə müvafiq qanun layihələrini hazırlayıb üç ay müddətində Azərbaycan Respublikasının Prezidentinə təqdim etmək tövsiyə olunmuşdur.

Bundan başqa, fərmanla Ali Məhkəməyə, Məhkəmə-Hüquq Şurasına və Ədliyyə Nazirliyinə sahibkarlıqla bağlı mübahisələrə müvafiq sahədə daha dərin hüquqi bilik və təcrübəsi olan hakimlər tərəfindən baxılmasını təmin etmək məqsədilə vergi və gömrük ödənişləri, məcburi dövlət sosial sığorta haqlarının ödənilməsi ilə bağlı yaranan mübahisələrə, habelə sahibkarlıq fəaliyyəti ilə əlaqədar digər məsələlərə dair işlər üzrə ixtisaslaşmış məhkəmənin yaradılması tapşırılmışdır.

Fərmanda hakimlərin müstəqilliyini təmin etmək məqsədilə məhkəmələrin fəaliyyətinə müdaxilənin qarşısının alınması mexanizmlərinin təkmilləşdirilməsi və belə müdaxiləyə görə məsuliyyətin artırılması; hakimlərin sosial müdafiəsinin gücləndirilməsi məqsədilə onların maddi təminatının əhəmiyyətli dərəcədə artırılması; məhkəmələrdə baxılan işlər üzrə ödənilən dövlət rüsumunun müəyyən hissəsinin məhkəmə aparatları işçilərinin sosial müdafiəsinin gücləndirilməsinə və məhkəmələrin maddi-texniki bazasının möhkəmləndirilməsinə yönəldilməsi; bütün məhkəmə iclaslarının

fasiləsiz audioyazısının aparılması və s. məsələlərə dair normativ hüquqi aktların layihələrinin hazırlanıb iki ay müddətində Azərbaycan Respublikasının Prezidentinə təqdim edilməsi tapşırılmışdır.

Fərmanla Ədliyyə Nazirliyinə, həmçinin məhkəmələrin və digər orqanların qərarlarının qanunla müəyyənləşdirilən müddətdə icrasının təmin edilməsi, "Elektron icra" informasiya sisteminin tətbiqinin genişləndirilməsi, icra məmurlarının süründürməçilik və sui-istifadə hallarına yol vermələrinin qarşısının alınması məqsədilə ciddi tədbirlərin görülməsi, məhkəmələrin və digər orqanların qərarlarının icrasının sürətləndirilməsi və səmərəliliyinin artırılması məqsədilə bu sahədə qanunvericiliyin təkmilləşdirilməsi, eləcə də qabaqcıl beynəlxalq təcrübə barədə təkliflərini Azərbaycan Prezidentinə təqdim etmək tapşırılmışdlr.

Fərmanda "Elektron məhkəmə" informasiya sisteminin tətbiqi ilə əlaqədar təşkilati işlərin yekunlaşdırılması, mediasiya prosesinin tətbiqi ilə bağlı maarifləndirmə və təşviqat tədbirlərinin həyata keçirilməsi, Ədliyyə Nazirliyinin Məhkəmə Ekspertizası Mərkəzinin və Ədliyyə Akademiyasının fəaliyyətinin müasirləşdirilməsi, infrastrukturunun və maddi-texniki təchizatının yaxşılaşdırılması, birinci instansiya məhkəmələrində kargüzarlığın aparılması ilə bağlı dövlət büdcəsində nəzərdə tutulmuş vəsaitin birbaşa hakimlərin bank hesablarına köçürülməsi və digər məsələlərlə bağlı tövsiyə və tapşırıqlar verilmiş, məhkəmə hakimlərinin ümumi sayının 200 nəfər artırılması tapşırılmşdır.

Məhkəmə-hüquq sahəsində mühüm yeniliklərdən biri də mediasiya institutunun yaradılmasıdır. Cari ilin martın 29-da bununla bağlı müvafiq qanun Prezident tərəfindən imzalanmışdır. Qanunda mübahisələrin alternativ həlli üsullarından olan mediasiyanın təşkili məsələləri öz əksini tapmışdır. Ölkəmizdə mediasiya institutunun yaradılması daim gündəlikdə olmuş, bu məqsədlə ötən dövrdə bir sıra addımlar atılmış, o cümlədən beynəlxalq təcrübə öyrənilmiş və Azərbaycan üçün potensial mediasiya modelinə dair təkliflər hazırlanmışdır.

Hazırkı mərhələdə qarşıda duran aktual çağırışlardan biri də Azərbaycanın digər sahələrlə yanaşı, məhkəmə-hüquq sistemində insan amilini önə çəkməklə reallaşdırdığı islahatların mahiyyətini yerli və beynəlxalq ictimaiyyətə dolğun şəkildə çatdırmaq, respublikamız haqqında obyektiv təəssüratların daha da möhkəmlənməsini təmin etməkdir. Azərbaycanda ümumi məhkəmə hakimlərini birləşdirmək, onların müstəqilliyinin daha da möhkəmləndirilməsinə kömək etmək, müsbət meyilləri təbliğ etmək, habelə hüquqi maarifləndirmə işi aparmaq məqsədilə 2002-ci ildə yaradılmış Azərbaycan Respublikası Ümumi Məhkəmə Hakimlərinin İctimai Birliyi (Assosiasiyası) ötən dövrdə Azərbaycanda məhkəmə sisteminin inkişafı və müasirləşdirilməsi sahəsində görülən tədbirlərlə bağlı beynəlxalq səviyyədə təbliğat işi aparmış, bu sahədə ixtisaslaşmış mötəbər təşkilatlarla səmərəli əlaqələri genişləndirməyə çalışmışdır.

Müxtəlif ölkələrə səfərlər zamanı respublikamızın beynəlxalq nüfuzunun artdığının böyük qürur hissi ilə şahidi olmuşuq. Xüsusilə də Beynəlxalq Hakimlər Assosiasiyasının (BHA) və onun regional qrupu olan Avropa Hakimlər Assosiasiyasının (AHA) illik toplantıları ümumən dünyada respublikamız haqqında obyektiv rəyin formalaşdığına şübhə yeri qoymur.

AHA-nın bir qayda olaraq hər ilin may-iyun aylarına təsadüf edən yaz iclası bu dəfə Danimarkanın paytaxtı Kopenhagen şəhərində keçirilmişdir. Avropa qitəsinin özünəməxsus ənənə və mədəniyyətə malik dövləti olan Danimarka təşkilatçı kimi toplantının yüksək səviyyədə keçirilməsini təmin etmişdi. İştirakçıların beynəlxalq tədbir çərçivəsində normal işləməsi, şəhərlə tanış olması üçün lazımi şərait yaradılmışdı.

AHA-nın yaz iclasının iştirakçıları ilk olaraq Kopenhagen Universitetinin binasında toplaşmışdılar. Danimarka Hakimlər Birliyinin sədri, bu ölkənin Ali Məhkəməsinin hakimi Mikael Sjöberq qonaqları tədbirin proqramı ilə ətraflı tanış etdikdən sonra sözü AHA prezidenti Joze Manuel İgreja Matosa vermişdi. Cənab Joze Manuel İgreja Matos öz növbəsində tədbir iştirakçılarını səmimi salamlayaraq "Siyasilər və məhkəmələr - dəyişən münasibətlər?" mövzusunda məruzə

edib. İsveçrəli hakim Tomas Stadelman, danimarkalı parlamentar və digər nümayəndələr məruzə mövzusu ətrafında maraqlı çıxışlar ediblər. Çıxışların əsas məzmunu siyasətçilərlə məhkəmə hakimiyyəti arasındakı münasibətlər, yeni dünyada dəyişən qaydalar, hakimlərin cəmiyyətlə daha çox ünsiyyətdə olmasının zəruriliyi ilə bağlı olub.

Daha sonra söz "Amnesty İnternational" təşkilatının Danimarka üzrə nümayəndəliyinin başçısı Trine Kristenşenə verilib. O, təmsil etdiyi təşkilatın Avropanın bir sıra ölkələrinin məhkəmə hakimiyyətləri ilə sıx əlaqə saxladığını bildirərək xüsusilə Rusiya və Polşada durumun ürəkaçan olmadığını vurğulayıb.

Sonra Danimarka Milli Araşdırmalar Fondları Mərkəzinin nəzdində yaradılmış beynəlxalq məhkəmələrin təcrübələrini araşdıran "iCourts" mərkəzinin rəhbəri Mikael Rask Madsen məruzə edib. Araşdırma Mərkəzinin Kopenhagen Universitetində yerləşdiyini bildirən sədr beynəlxalq məhkəmə təcrübəsini dərindən araşdırdıqlarını və əsas diqqəti "Siyasilər və Məhkəmə hakimiyyəti" mövzusunun tədqiqinə, həmçinin beynəlxalq təcrübənin öyrənilməsi və geniş coğrafiyada yayılması vacibliyinə yönəltdiklərini bildirib. Albaniya, Azərbaycan və İngiltərə təmsilçiləri məruzəçiyə mövzu üzrə suallar veriblər və səmərəli müzakirələr aparılıb.

AHA-nın yaz iclasının rəsmi açılışı da Kopenhagen Universitetinin binasında olub. İclasda 44 üzv ölkədən 35-ni təmsil edən hakimlər iştirak ediblər. Azərbaycanı iclasda Ümumi Məhkəmə Hakimləri Assosiasiyasının sədri və Azərbaycan Respublikası Ali Məhkəməsinin hakimi Sənan Hacıyev təmsil ediblər.

Danimarka Hakimlər Birliyinin sədri, bu ölkənin Ali Məhkəməsinin hakimi Mikael Sjöberq, BHA Prezidenti cənab Pagone və AHA prezidenti Joze İgreja Matos giriş nitqi ilə çıxış ediblər.

AHA prezidenti gündəliyə müvafiq olaraq Mərakeş protokolunun təsdiqlənməsini təklif edib. Konfrans iştirakçıları adı çəkilən sənədi yekdilliklə təsdiq ediblər.

Daha sonra cənab Joze İgreja Matos AHA-nın il ərzində gördüyü işlər barədə məlumat verərək məruzəyə münasibət bildirilməsini xahiş edib. O, çıxışında Avropa məkanında hakimlərin müstəqilliyinin təmini sahəsindəki mövcud problemlərdən və bu problemlərin həlli yolunda beynəlxalq əməkdaşlığın zəruriliyindən söz açıb. Eyni zamanda, Polşa, Rumınya və Macarıstanda məhkəmə hakimiyyəti ilə bağlı ciddi problemlərin və gərginliyin hələ də qaldığını, bununla belə, Avropa məkanında milli assosiasiyalarla əməkdaşlığın daha gücləndirildiyini diqqətə çatdırıb. Sədr hesabat ili ərzində AHA daxilində keçirilmiş tədbirlər, təşkilatın Avropa və dünya səviyyəsində məhkəmə hakimiyyəti ilə bağlılığı, tədbirlərdə iştirakı, habelə digər təşkilatlarla əməkdaşlığı və birgə layihələr barədə ətraflı məlumat verib.

Sədr, həmçinin hesabatdakı "Üzv assosiasiyaların statusu üzrə işçi qrupunun işi", "Müxtəlif Avropa ölkələrində qarşıya çıxan çətinliklər", "AHA-nın büdcəsi", "AHA Dünya Hakimlər Assosiasiyası sırasında" mövzuları üzrə məlumatlar verib. Sədrin məruzəsində əsas diqqət çəkən məqam "Müxtəlif Avropa ölkələrində qarşıya çıxan çətinliklər" məsələsi olub. İsveçrə, İtaliya, Albaniya, Fransa və Avstriya nümayəndələri söz alaraq mövzu ətrafında fikirlərini bölüşüblər. Müzakirələrdən sonra məruzə qəbul edilib.

Sonra iclasda Polşada məhkəmə hakimiyyətinin üzləşdiyi problemlər ətraflı müzakirə edilib. Cənab Matos ölkədə gedən siyasi proseslərin məhkəmə hakimiyyətinə mənfi təsir göstərdiyini, məhkəmələr və hakimlərlə bağlı qəbul olunmuş müvafiq qanunun hakimlərin müstəqilliyini təmin edə bilmədiyini təəssüflə diqqətə çatdırıb. AHA-nın iclasına dəvət olunmasına baxmayaraq Polşa Ali Məhkəməsinin sədrinin iclasda iştirak etmədiyi də bildirilib. Polşalı hakim Krystian Markieviç söz alaraq dəstək üçün AHA və BHA rəhbərliyinə, eləcə də Polşaya dəstək verən milli birliklərə minnətdarlığını bildirib. Eyni zamanda, etiraf edib ki, Polşa Hakimlər Assosiasiyası beynəlxalq əməkdaşlıqdan yetərincə yararlana bilmir. Qeyd edib ki, ölkəsində məhkəmə hakimiyyətinə təzyiqlərin əsas səbəbi onun müstəqil olmasına yol verməməkdir. Müzakirələrdən

sonra Polşada məhkəmə hakimiyyətinin vəziyyəti ilə bağlı qətnamə qəbul edilib.

Sonra AHA-nın üzv assosiasiyalarındakı vəziyyəti ilə bağlı məlumatı dinlənilib. İclas iştirakçıları İşçi Qrupu sədrinin məruzəsi əvvəlcədən tanış olduqları üçün sənədin geniş müzakirə olunmadan qəbulu məqbul sayılıb. Məruzədə, həmçinin Türkiyə, Polşa, Macarıstan və Sloveniyada hakimlərin problemlərinin olduğu xatırlanıb. Sonra "Brüsselə gedən yollar" İşçi Qrupunun üzvü, fransalı hakim Selin Parisot qrupun işi ilə bağlı məlumat verib və onun hesabat xarakterli məlumatı müsbət dəyərləndirilib.

O da qeyd olunmalıdır ki, iclasda qardaş Türkiyə ilə yanaşı, Azərbaycanla bağlı da bəzi reallığa uyğun olmayan qərəzli iddialar səslənsə də, bu iddiaların əsassızlığı konkret faktlar əsasında ortaya qoyulub. Azərbaycan Ümumi Məhkəmə Hakimləri Assosiayasının təmsilçisi olaraq BHA və AHA-nın tərkibində 10 il səmərəli fəaliyyət göstərməyimiz, bir çox ölkələrlə qarşılıqlı faydalı əməkdaşlıq və dostluq münasibətləri qurmağımız iştirakçıların nəzərinə çatdırılıb. Azərbaycan Respublikası Ali Məhkəməsinin hakimi Sənan Hacıyev iclasda ətraflı çıxış edərək ölkəmizdə məhkəmə hakimiyyətinin mövcud vəziyyəti, aparılan mütərəqqi islahatlar, habelə məhkəmələrlə digər hakimiyyət qolları arasında qanuna əsaslanan sivil münasibətlər barədə məlumat verib. O, ötən iclasda Helsinki Komissiyasının Azərbaycan Hakimlər Assosiasiyası ilə bağlı qaldırdığı məsələlərə toxunaraq həmin komissiyanın suallarına ətraflı cavab verildiyini, cavabın BHA-nın katibliyi tərəfindən bütün üzv assosiasiyalara paylandığını diqqətə çatdırıb.

Helsinki Komissiyasının Azərbaycan Ümumi Məhkəmə Hakimləri Birliyinə ünvanladığı iradların müdafiəçisi, Niderland Hakimlər Assosiasiyasının nümayəndəsi Sənan Hacıyevin çıxışına münasibət bildirərək Azərbaycanda məhkəmə sistemində görülən işləri razılıqla vurğulayıb. Niderlandlı nümayəndənin Azərbaycan təmsilçisinə ünvanlanmış sual və replikalarına münasibət bildirən BHA prezidenti cənab Pagone birmənalı şəkildə bildirib ki, hansısa kənar təşkilatlar üzv assosiasiyalar barəsində intizam problemi qaldıra bilməzlər. O, həmçinin Qazaxıstan, Polşa və Macarıstandan fərqli olaraq, Azərbaycanda məhkəmələrin fəaliyyəti və hakimlərin müstəqiilliyi üçün hansısa ciddi problemin olmadığını vurğulayıb. Cənab Matos bu baxımdan BHA prezidenti cənab Pagonenin fikirlərinə dəstək verərək Niderland nümayəndəsinin replikasını yersiz hesab edib.

Daha sonra Yunanıstan, Rumıniya və İslandiya nümayəndələri öz ölkələrindəki durumla bağlı məlumat veriblər. Sonda AHA-nın növbəti iclasının 2020-ci ilin may ayında Portuqaliyanın Porto şəhərində keçiriləcəyi bildirilib və Portuqaliya nümayəndəsi təqdimatla çıxış edib. AHA-nın yaz iclasının iştirakçıları Danimarka Ali Məhkəməsinin fəaliyyəti ilə də yaxından tanış olublar.

Ümumilikdə, AHA-nın Kopenhagen şəhərində keçirilmiş yaz iclası Avropa dövlətlərinin ölkəmizin məhkəmə hüquq-sistemində həyata keçirilən mütərəqqi islahatlar barədə məlumatlandırılması, Azərbaycanla bağlı obyektiv rəyin formalaşdırılması, bəzi qərəzli iddiaların tamamilə zərərsizləşdirilməsi baxımından mühüm platforma olub.

Sonda qeyd etmək istərdik ki, Ümumi Məhkəmə Hakimləri Assosiasiyası bundan sonra da Azərbaycanın həm BHA, həm də AHA çərçivəsində maraqlarının qorunması, ölkəmizin məhkəmə-hüquq sistemi ilə bağlı həqiqətlərin dünyaya obyektiv şəkildə çatdırılması baxımından üzərinə düşən bütün vəzifələri layiqincə yerinə yetirməyə çalışacaqdır.

**Əlöddin CƏFƏROV,**
**Bakı şəhəri Nizami Rayon Məhkəməsinin sədri,**
**Azərbaycan Məhkəmə Hakimləri Assosiasiyaları İttifaqının sədri**

Azərbaycan Respublikasının İnzibati Xətalar Məcəlləsində dəyişiklik edilməsi haqqında

# AZƏRBAYCAN RESPUBLİKASININ QANUNU

Azərbaycan Respublikasının Milli Məclisi Azərbaycan Respublikası Konstitusiyasının 94-cü maddəsinin I hissəsinin 17-ci bəndini rəhbər tutaraq, "Daşınar əmlakın yüklülüyü haqqında" Azərbaycan Respublikasının 2017-ci il 2 may tarixli 667-VQ nömrəli Qanununun icrası ilə əlaqədar **qərara alır:**

Azərbaycan Respublikasının İnzibati Xətalar Məcəlləsində (Azərbaycan Respublikasının Qanunvericilik Toplusu, 2016, N 2 (I kitab), maddə 202, N 3, maddələr 397, 403, 429, N 4, maddələr 631, 647, 654, N 5, maddələr 835, 846, N 6, maddələr 997, 1010, N 7, maddələr 1247, 1249, N 10, maddə 1608, N 11, maddələr 1769, 1774, 1781, 1783, 1786, 1788, N 12, maddələr 1984, 2000, 2009, 2024, 2049; 2017, N 1, maddə 21, N 2, maddələr 139, 147, 152, 162, N 3, maddələr 331, 344, N 5, maddələr 698, 701, 734, 749, 754, N 6, maddələr 1020, 1033, 1036, N 7, maddələr 1273, 1296, 1297, 1299, N 11, maddələr 1964, 1966, 1969, 1979, N 12, maddələr 2214, 2217, 2220, 2233, 2237, 2240, 2253, 2256, 2266; 2018, N 1, maddə 19, N 2, maddələr 160, 162, 163, N 3, maddələr 383, 401, 404, N 4, maddə 646, N 5, maddələr 857, 860, 862, 876, 883, N 6, maddələr 1153, 1188; 2018, N 7 (I kitab), maddələr 1434, 1437, 1438, N 10, maddə 1963, N 11, maddələr 2188, 2191, 2214, 2217, 2231, N 12 (I kitab), maddələr 2473, 2475, 2499, 2507, 2512, 2522; Azərbaycan Respublikasının 2018-ci il 7 dekabr tarixli 1382-VQD, 1384-VQD nömrəli, 18 dekabr tarixli 1395-VQD, 1398-VQD nömrəli, 28 dekabr tarixli 1406-VQD, 1427-VQD nömrəli, 19 fevral tarixli 1516-VQD nömrəli qanunları) aşağıdakı dəyişikliklər edilsin:

1. 43.1-ci maddəyə "438.3," rəqəmlərindən sonra "440-1," rəqəmləri əlavə edilsin.

2. 54.2-ci maddəyə "410.3," rəqəmlərindən sonra "440-1.1 (dövlət orqanlarına (qurumlarına) və bələdiyyələrə münasibətdə), 440-1.2, 440-1.3," sözləri əlavə edilsin.

3. Aşağıdakı məzmunda 440-1-ci maddə əlavə edilsin:

**"Maddə 440-1. Daşınar əmlakın yüklülüyü haqqında qanunvericiliyin pozulması**

440-1.1. Daşınar əmlakın yüklülüyünün dövlət reyestrinə "Daşınar əmlakın yüklülüyü haqqında" Azərbaycan Respublikasının Qanununda nəzərdə tutulmuş məlumatların təqdim edilməməsinə, habelə reyestrə bilərəkdən yanlış və natamam məlumatların təqdim edilməsinə görə -

fiziki şəxslər yüz əlli manat məbləğində, vəzifəli şəxslər yeddi yüz manat məbləğində, hüquqi şəxslər iki min beş yüz manat məbləğində cərimə edilir.

440-1.2. Daşınar əmlakın yüklülüyünün dövlət reyestrini aparan qurumun vəzifəli şəxsləri tərəfindən məlumatların saxlanılması və reyestrin aparılması qaydalarının pozulmasına görə -

vəzifəli şəxslər min manat məbləğində cərimə edilir.

440-1.3. "Daşınar əmlakın yüklülüyü haqqında" Azərbaycan Respublikasının Qanunu ilə müəyyən edilmiş qaydada dövlət və bələdiyyə yüklülüyünün açıqlanmamasına görə -

vəzifəli şəxslər min beş yüz manat məbləğində cərimə edilir.".

**İlham ƏLİYEV,**
**Azərbaycan Respublikasının Prezidenti**

*Bakı şəhəri, 29 mart 2019-cu il*
*N 1534-VQD*

## Azərbaycan Respublikasının Mülki Prosessual Məcəlləsində və "İpoteka haqqında" Azərbaycan Respublikasının Qanununda dəyişiklik edilməsi barədə

# AZƏRBAYCAN RESPUBLİKASININ QANUNU

Azərbaycan Respublikasının Milli Məclisi Azərbaycan Respublikası Konstitusiyasının 94-cü maddəsinin I hissəsinin 6-cı və 13-cü bəndlərini rəhbər tutaraq, "Daşınar əmlakın yüklülüyü haqqında" Azərbaycan Respublikasının 2017-ci il 2 may tarixli 667-VQ nömrəli Qanununun icrası ilə əlaqədar **qərara alır:**

**Maddə 1.** Azərbaycan Respublikasının Mülki Prosessual Məcəlləsinin (Azərbaycan Respublikasının Qanunvericilik Toplusu, 2000, N 1, maddə 17; N 5, maddə 323; 2002, N 5, maddə 236; 2003, N 1, maddələr 23, 24, N 6, maddə 279; 2004, N 7, maddə 505, N 8, maddə 598, N 10, maddə 761; 2005, N 4, maddələr 277, 278; 2006, N 2, maddə 64, N 12, maddə 1006; 2007, N 1, maddələr 3, 4, N 2, maddə 68, N 5, maddə 439, N 6, maddə 560, N 7, maddə 712, N 8, maddə 756; 2008, N 6, maddə 462, N 7, maddə 602, N 12, maddə 1046; 2009, N 6, maddə 402; 2010, N 2, maddə 75, N 4, maddə 276; 2011, N 6, maddələr 471, 476, N 7, maddələr 583, 619, N 12, maddələr 1096, 1105; 2012, N 5, maddə 411, N 6, maddə 511; 2013, N 5, maddə 472, N 6, maddə 625, N 11, maddələr 1266, 1307; 2015, N 6, maddə 677, N 12, maddə 1435; 2016, N 5, maddə 836, N 6, maddə 1016, N 11, maddələr 1761, 1763, N 12, maddə 2047; 2017, N 2, maddə 155, N 4, maddə 523, N 5, maddələr 706, 750, N 11, maddələr 1935, 1975; 2018, N 5, maddə 879, N 8, maddə 1672, N 11, maddələr 2209, 2225, N 12 (I kitab), maddələr 2524, 2534) 158.1.6-cı maddəsinin sonunda nöqtə işarəsi nöqtəli vergül işarəsi ilə əvəz edilsin və aşağıdakı məzmunda 158.1.7-ci maddə əlavə edilsin:

"158.1.7. "Daşınar əmlakın yüklülüyü haqqında" Azərbaycan Respublikasının Qanununda müəyyən edilmiş hallarda debitor borcların xüsusi hesaba ödənilməsini və orada saxlanılmasını təmin etmək.".

**Maddə 2.** "İpoteka haqqında" Azərbaycan Respublikasının Qanununda (Azərbaycan Respublikasının Qanunvericilik Toplusu, 2005, N6, maddə 461; 2007, N5, maddə 436, N11, maddə 1053; 2008, N5, maddə 348; 2009, N12, maddə 948; 2011, N 7, maddə 591; 2017, N 10, maddə 1773, N 12 (I kitab), maddələr 2468, 2527) aşağıdakı dəyişikliklər edilsin:

2.1. Aşağıdakı məzmunda 7.4-cü maddə əlavə edilsin:

"7.4. Daşınmaz əmlakın ləvazimatı olan daşınar əmlaka dair həmin daşınmaz əmlakın ipoteka saxlayanı ilə daşınar əmlakın yüklülük sahibinin tələblərinin ödənilməsi "Daşınar əmlakın yüklülüyü haqqında" Azərbaycan Respublikasının Qanunu ilə müəyyən edilən üstünlük hüququ nəzərə alınmaqla həyata keçirilir.";

2.2. 36.1-ci maddədən "o cümlədən" sözləri çıxarılsın və həmin maddəyə "saxlayanlara" sözündən sonra ", habelə "Daşınar əmlakın yüklülüyü haqqında" Azərbaycan Respublikasının Qanunu ilə müəyyən edilən yüklülük sahiblərinə" sözləri əlavə edilsin.

**İlham ƏLİYEV,**
**Azərbaycan Respublikasının Prezidenti**

*Bakı şəhəri, 29 mart 2019-cu il*
*N 1535-VQD*

Azərbaycan Respublikası adından
Azərbaycan Respublikası Mülki Məcəlləsinin 1164-cü maddəsinin bəzi müddəalarının şərh edilməsinə dair

# AZƏRBAYCAN RESPUBLİKASI KONSTITUSIYA MƏHKƏMƏSİ PLENUMUNUN QƏRARI

Azərbaycan Respublikası Konstitusiya Məhkəməsinin Plenumu Fərhad Abdullayev (sədr),

Sona Salmanova (məruzəçi-hakim), Südabə Həsənova, Rövşən İsmayılov, Ceyhun Qaracayev, Rafael Qvaladze, İsa Nəcəfov və Kamran Şəfiyevdən ibarət tərkibdə,

məhkəmə katibi Fəraid Əliyevin,

maraqlı subyektlərin nümayəndələri Salyan Rayon Məhkəməsinin hakimi Muradağa Qasımovun, Azərbaycan Respublikası Milli Məclisi Aparatının İqtisadi qanunvericilik şöbəsinin böyük məsləhətçisi Fərid Hacıyevin, ekspert Bakı Dövlət Universitetinin Mülki proses və kommersiya hüququ kafedrasının dosenti, hüquq üzrə fəlsəfə doktoru Sərvər Süleymanlının,

mütəxəssis Bakı Apellyasiya Məhkəməsinin hakimi Elnur Həsənovun iştirakı ilə, Azərbaycan Respublikası Konstitusiyasının 130-cu maddəsinin VI hissəsinə müvafiq olaraq xüsusi konstitusiya icraatı qaydasında açıq məhkəmə iclasında Salyan Rayon Məhkəməsinin müraciəti əsasında Azərbaycan Respublikası Mülki Məcəlləsinin 1164-cü maddəsinin bəzi müddəalarının şərh edilməsinə dair konstitusiya işinə baxdı.

İş üzrə hakim S.Salmanovanın məruzəsini, maraqlı subyektlərin nümayəndələrinin çıxışlarını, ekspertin rəyini dinləyib, iş materiallarını araşdırıb müzakirə edərək Azərbaycan Respublikası Konstitusiya Məhkəməsinin Plenumu

**MÜƏYYƏN ETDİ:**

Salyan Rayon Məhkəməsi Azərbaycan Respublikasının Konstitusiya Məhkəməsinə (bundan sonra - Konstitusiya Məhkəməsi) müraciət edərək vəfat etməmişdən öncə nikahını pozmaq barədə məhkəmədə iradə ifadəsini bildirmiş şəxsin (miras qoyanın) arvadının (ərinin) vərəsəlik hüququndan məhrum edilmiş şəxslər sırasına aid olub-olmamasının Azərbaycan Respublikası Mülki Məcəlləsinin (bundan - sonra Mülki Məcəllə) 1164-cü maddəsinin tələbləri baxımından şərh edilməsini xahiş etmişdir.

Müraciətdən görünür ki, B.Bağırova qayınatası A.Bağırova qarşı iddia ərizəsi ilə Salyan Rayon Məhkəməsinə müraciət edərək miras əmlakın qəbul edilməsi faktının və vərəsələr arasında miras əmlakdan payların müəyyən edilməsini xahiş etmişdir.

A.Bağırov isə vəsatət verərək iddiaçının həmin tələbi irəli sürmək üçün subyektiv hüququnun mövcud olmadığını göstərmişdir. Vəsatət onunla əsaslandırılmışdır ki, A.Bağırovun oğlu Q.Bağırov ölməmişdən əvvəl B.Bağırovaya qarşı nikahın pozulması tələbinə dair Salyan Rayon Məhkəməsində iddia qaldırmış və həmin Məhkəmənin 8 iyun 2015-ci il tarixli qətnaməsi ilə iddia təmin edilmişdir. Şirvan Apellyasiya Məhkəməsinin 22 oktyabr 2015-ci il tarixli qətnaməsi ilə cavabdeh B.Bağırovanın apellyasiya şikayəti təmin edilməmiş, birinci instansiya məhkəməsinin qətnaməsi dəyişdirilmədən saxlanılmışdır. Azərbaycan Respublikası Ali Məhkəməsinin Mülki Kollegiyasının 16 mart 2016-

cı il tarixli qərarı ilə iddiaçı Q.Bağırov öldüyü üçün iş üzrə icraata xitam verilmişdir.

Salyan Rayon Məhkəməsi müraciətini onunla əsaslandırmışdır ki, mülki qanunvericiliyin tələbinə əsasən, ər-arvadın bir-birinin vərəsəsi olması üçün onların birgə nikahda olmaları mütləqdir. Əgər ər-arvaddan hər hansı biri nikahını pozarsa, o, ölümündən sonra digər tərəfi vərəsəsi olmaq hüququndan məhrum etmiş olur. Mülki Məcəllənin 1163-cü maddəsinə əsasən, nikahı ləğv etmiş ər-arvad bir-birindən sonra vərəsə sayıla bilməzlər. Həmçinin Mülki Məcəllənin 1164-cü maddəsinə görə, əgər arvadın (ərin) miras qoyanla nikahına mirasın açılmasından azı üç il əvvəl faktiki xitam verildiyi və ərlə arvadın ayrı yaşadıqları təsdiq edilərsə, məhkəmənin qərarı ilə arvad (ər) qanun üzrə vərəsəlik hüququndan məhrum edilə bilər.

Müraciətedən işə baxarkən sağlığında nikahını pozmaq barədə məhkəmədə iradə ifadəsini bildirmiş şəxsin (miras qoyanın) arvadının (ərinin) ölümündən sonra onun vərəsəsi olması və yaxud vərəsəlik hüququndan məhrum edilmiş şəxslər sırasına aid edilməsi məsələsinə aydınlıq gətirilməsinə zərurət yarandığı qənaətinə gəlmişdir.

Konstitusiya Məhkəməsinin Plenumu müraciətlə bağlı aşağıdakıların qeyd edilməsini zəruri hesab edir. Azərbaycan Respublikası Konstitusiyasının (bundan sonra - Konstitusiya) 29-cu maddəsinin VII hissəsinə əsasən, dövlət vərəsəlik hüququna təminat verir. Vərəsəlik hüququna təminat miras qoymağı, yəni bir tərəfdən vəsiyyət edə bilməyi, digər tərəfdən isə vərəsə olaraq mirası qəbul edib ona sahib olmanı nəzərdə tutur.

Vərəsəlik hüququnun reallaşdırılması zamanı mülkiyyətçinin sağlığında əldə etdiyi əmlak və digər maddi nemətlər (onların yüklülükləri ilə birlikdə) ölümündən sonra onun iradəsinə uyğun olaraq müəyyən etdiyi vərəsələrinə, iradəsini ifadə etmədiyi təqdirdə isə qanunla müəyyən edilən vərəsələrinə keçir.

Vəsiyyət edənin (mülkiyyətçinin) ona məxsus əmlaka dair sərəncam vermək imkanı Konstitusiyanın 29-cu maddəsinin III hissəsində təsbit edilmiş mülkiyyət hüququndan irəli gəlir və bu, vəsiyyət etmək azadlığının əsasını təşkil edir. Lakin miras qoyanın vəsiyyət etmək azadlığı qanunvericinin cəmiyyətin əsas özəyini təşkil edən ailənin qorunması və ailə münasibətlərinin cəmiyyətdə möhkəmlənməsinin təmin edilməsi məqsədi ilə vəhdətdə nəzərdən keçirilməlidir. Konstitusiya Məhkəməsi Plenumunun bununla bağlı formalaşdırdığı hüquqi mövqeyə görə, vərəsəlik institutu müəyyən dərəcədə həm ailə, həm də əmlak hüquq normaları qrupunun spesifik xüsusiyyətlərini özündə əks etdirir. Vərəsəlik hüquq institutunun bu xüsusiyyəti həm ona aid olan qaydaların xeyli hissəsinin məcburi xarakter daşımasında, həm də müqavilə azadlığının xüsusi şərtlərlə məhdudlaşdırılmasında özünü göstərir ("Azərbaycan Respublikası Mülki Məcəlləsinin 1203.1-ci maddəsinin şərh edilməsinə dair" 2011-ci il 13 dekabr tarixli Qərar).

Konstitusiya Məhkəməsinin Plenumu qeyd edir ki, müraciətdə qaldırılan məsələ vərəsəlik və ailə hüquq münasibətlərinin tənzimlənməsi ilə bağlı olduğundan mülki və ailə qanunvericiliyinin ər-arvadın hüquqi statusu və onların vərəsəlik hüquqları, bununla bağlı yaranan mübahisələrin məhkəmədə baxılması qaydalarını tənzimləyən müvafiq normaları əlaqəli şəkildə təhlil edilməlidir.

Vərəsəlik hüququnun əsasları və tərkibi, vərəsəlik münasibətləri, bu hüququn həyata keçirilməsi qaydaları və digər məsələlər mülki qanunvericiliklə tənzimlənir. Mülki Məcəllənin 1133-cü maddəsinə görə, vərəsəlik qanun və ya vəsiyyət üzrə və ya hər iki əsasla həyata keçirilir. Qanun üzrə vərəsəlik (ölmüş şəxsin əmlakının qanunda göstərilmiş şəxslərə keçməsi) o zaman qüvvədə olur ki, miras qoyan vəsiyyətnamə qoymur, yaxud vəsiyyətnamə tamamilə və ya qismən etibarsız sayılır. Maddənin mənasına görə, vərəsəlik münasibətlərinin yaranma əsası kimi mirasqoyanın vəsiyyəti daha üstün qüvvəyə malik olduğundan qanun üzrə vərəsəlik məhz belə bir vəsiyyətnamə olmadığı təqdirdə qüvvədə olur.

Qanun üzrə vərəsə sayılan şəxslərin dairəsi və onların vərəsəliyə çağırılması növbəliliyi Mülki Məcəllənin 1159-cu maddəsi ilə müəyyən edilmişdir. Həmin maddəyə uyğun olaraq, birinci növbə vərəsələrə ölənin uşaqları, miras qoy-

anın ölümündən sonra doğulmuş uşaq, arvad (ər), valideynlər (övladlığa götürənlər) aiddir.

Qeyd edilməlidir ki, birinci növbə vərəsələrə aid edilən ailə üzvlərinin mənafeyinin üstünlüyü vərəsəlik hüququnun əsasında duran ailə təminatı prinsipindən irəli gəlir. Bu prinsip vətəndaş cəmiyyətinin özəyini təşkil edən ailənin təminatı məqsədilə yaxın qohumluqla (uşaq, ər, arvad, valideynlər) miras qoyana bağlı olan şəxslərin mənafeyinin digər şəxslərin mənafeyindən üstün olmasını nəzərdə tutur. Ailə-təminat prinsipinin məntiqinə əsasən mülkiyyətçiyə yaşadığı dövrdə məxsus olan əmlak (əmlakın müəyyən hissəsi) üzərində sərəncam vermək hüququ onun vəfatından sonra yaxın ailə üzvlərinə məxsus olmalıdır. Bu prinsip qanun üzrə vərəsəlik zamanı növbəlilik, irsi transmissiya qaydalarında özünü göstərir və mirasın daha yaxın şəxslər dairəsinə çatmasına xidmət edir (Konstitusiya Məhkəməsi Plenumunun "Azərbaycan Respublikası Mülki Məcəlləsinin 1193-cü maddəsinin Azərbaycan Respublikası Konstitusiyasının 13-cü maddəsinin I və II hissələrinə, 29-cu maddəsinin I, II və III hissələrinə uyğunluğunun yoxlanılmasına dair" 2011-ci il 20 oktyabr tarixli Qərarı).

Mülki Məcəllənin yuxarıda qeyd edilən 1159-cu maddəsindən göründüyü kimi, ər (arvad) birinci növbə üzrə vərəsələr sırasına daxildir. Bununla bağlı qeyd olunmalıdır ki, yalnız miras qoyanla qanuni nikahda olan şəxs, yəni ər-arvad vərəsə ola bilər. Ər-arvad dedikdə, dövlətin tələb etdiyi qayda üzrə nikaha daxil olmuş şəxslər başa düşülür. Belə ki, ancaq qanuni nikah tərəflər üçün hüquq və vəzifələr, o cümlədən vərəsəlik hüququ yaradır.

Nikahın bağlanması, nikaha xitam verilməsi, onun etibarsız sayılması qaydaları və şərtləri, eləcə də ailə münasibətinin iştirakçılarının hüquq və vəzifələri Azərbaycan Respublikasının Ailə Məcəlləsi ilə tənzimlənir.

Həmin Məcəllənin 1.4-cü maddəsinə əsasən, Azərbaycan Respublikasında nikah və ailə münasibətlərinin hüquqi baxımdan tənzimlənməsi dövlət tərəfindən həyata keçirilir və yalnız müvafiq icra hakimiyyəti orqanında bağlanmış nikah tanınır.

Ailə hüquq münasibətlərini yaradan önəmli hüquqi fakt olan nikah kişi ilə qadının qanunla nəzərdə tutulan qaydada ailə qurmaq üçün bağladığı azad və könüllü ittifaqıdır. Nikahın bağlanması faktı ilə ər və arvadın şəxsi və əmlak xarakterli subyektiv hüquqları və vəzifələri yaranır.

Ər-arvadın qanunla nəzərdə tutulmuş qaydada bağlanmış nikahdan əmələ gələn münasibətlərinə müəyyən hüquqi faktlar əsasında son qoyulması nikahın xitamına səbəb olur. Nikaha xitam verilməklə ər-arvadın hüquqi statusu ləğv edilərək onun dövlət qeydiyyatına alındığı andan tərəflər arasında yaranan əmlak və şəxsi qeyri-əmlak hüquq və vəzifələrinə son qoyulur.

Nikaha xitam verilməsi əsasları Ailə Məcəlləsinin 14-cü maddəsində təsbit edilmişdir. Həmin maddəyə görə, ər (arvad) öldükdə, yaxud məhkəmə qaydasında ölmüş elan edildikdə nikaha xitam verilir. Ərin (arvadın) və ya onların hər ikisinin ərizəsi əsasında, eləcə də məhkəmə qaydasında fəaliyyət qabiliyyəti olmayan hesab edilən ərin (arvadın) qəyyumunun ərizəsi əsasında nikaha xitam verilə bilər.

Qanunverici Ailə Məcəlləsində nikaha xitam verilməsinin qaydalarını müəyyən edərkən nikahın könüllülüyü, ər-arvadın hüquq bərabərliyi, həmçinin nikahın pozulmasının azadlığı, ər- arvadın hüquqlarının maneəsiz həyata keçirilməsinin təmin olunması prinsipləri, habelə uşaqların hüquqlarının müdafiəsi baxımından çıxış etmişdir.

Qanunvericilikdə nikaha xitam verilməsinin 2 qaydası müəyyən edilmişdir:

- müvafiq icra hakimiyyəti orqanında;
- məhkəmə qaydasında.

Ailə Məcəlləsinin nikahın məhkəmə qaydasında pozulmasını tənzimləyən 19.1-ci maddəsinə görə, bu Məcəllənin 17.2-ci maddəsində nəzərdə tutulmuş hallar istisna olmaqla ər-arvadın yetkinlik yaşına çatmayan ümumi uşaqları olduqda və ya ər (arvad) nikahın pozulmasına razı olmadıqda nikah məhkəmə qaydasında pozulur.

Ailə Məcəlləsinin 23.1-ci maddəsinə görə, nikah məhkəmə qaydasında pozulduqda bu barədə məhkəmənin qətnaməsinin qanuni qüvvəyə mindiyi gündən nikaha xitam verilmiş sayılır. Nikahın pozulması haqda məhkəmə qətna-

məsinin qanuni qüvvəyə minməsi dedikdə, məhkəmənin işi mahiyyəti üzrə həll edərək qəbul etdiyi qərarın mülki-prosessual qanunvericiliklə müəyyən edilmiş qaydada (müddətlər çərçivəsində) hüquqi qüvvə əldə etməsi nəzərdə tutulur.

Mülki Məcəllənin boşanmış ər-arvadın vərəsəlik zamanı vəziyyətini müəyyən edən 1163-cü maddəsinin məzmununa uyğun olaraq, nikahı pozulmuş arvad (ər) miras qoyan ərin (arvadın) qanun üzrə vərəsəsi olmaq hüququndan məhrum olur. Belə ki, həmin maddəyə görə, nikahı ləğv etmiş ər-arvad bir-birindən sonra vərəsə ola bilməzlər. Göründüyü kimi, əgər ər (arvad) miras qoyanın öldüyü anda nikahı qanunvericiliklə nəzərdə tutulmuş qaydada ləğv etmiş olarsa, bu zaman o, qanun üzrə vərəsə olmaq hüququnu itirir.

Ərin (arvadın) nikahın pozulmasına dair iddia ilə məhkəməyə müraciət etməsindən sonra ölməsi ilə əlaqədar qeyd edilməlidir ki, tərəflərdən birinin şəxsi iştirakı olmadan icranın mümkünsüz olduğu, eləcə də şəxsi xarakter daşıyan və ölən tərəfin şəxsiyyəti ilə bilavasitə əlaqədar olan hüquq münasibətlərində prosessual hüquq varisliyinə yol verilmir. Bu cür hallarda Azərbaycan Respublikası Mülki Prosessual Məcəlləsinin 261.0.7-ci maddəsinə uyğun olaraq, iş üzrə tərəflərdən biri olan şəxs öldükdən sonra barəsində mübahisə edilən hüquq münasibəti hüquq varisliyinə yol vermədiyindən hakim iş üzrə icraata xitam verir. İş üzrə icraata xitam verilməsi isə işin mahiyyəti üzrə qətnamə çıxarılmadan başa çatdırılması üsullarından biridir.

Beləliklə, məhkəmədə nikahın pozulmasına dair iddia qaldırmış şəxsin məhkəmə qətnaməsi qanuni qüvvəyə minmədən ölməsi iş üzrə icraata xitam verilməsinə səbəb olur, bu isə nikahın pozulması haqda məhkəmə qərarının qanuni qüvvəyə minməməsi və tərəflərin ər-arvad statusunun ləğv edilməməsi, eləcə də onların bu statusdan irəli gələn hüquq və vəzifələrinin davam etməsi ilə nəticələnir.

Göründüyü kimi, nikaha xitam verilməsi üçün iş üzrə yekun məhkəmə qərarının qanuni qüvvəyə minməsi zəruri olduğundan, nikahın pozulması barədə məhkəmədə iddianın qaldırılması ər-arvadın bir-birini vərəsəlik hüququndan məhrum etməsi üçün kifayət deyildir. Belə ki, iş üzrə yekun məhkəmə qərarı qəbul edilənədək iddiaçı iddiadan imtina edə bilər, tərəflər barışa bilər və s. hallar baş verə bilər.

Həmçinin nəzərə alınmalıdır ki, qanunvericilikdə miras qoyanın bu və ya digər vərəsəni vərəsəlik hüququndan məhrum etməsi üçün xüsusi imkanlar nəzərdə tutulmuşdur. Bunlara vəsiyyətnamə qoymaq, məcburi paydan məhrum etmək üçün məhkəmədə iddia qaldırmaq və s. aiddir.

Göstərilənləri nəzərə alaraq Konstitusiya Məhkəməsinin Plenumu belə qənaətə gəlir ki, nikah qeydi ləğv edilməyincə, nikaha xitam verilməsi barədə məhkəmə qərarı qanuni qüvvəyə minməyincə və yaxud nikah etibarsız hesab edilməyincə nikahın həqiqiliyi prezumpsiyası qüvvədə olur.

Bəzi hallarda isə ər-arvad arasında qeydiyyata alınmış nikahın mövcud olmasına baxmayaraq, onların məhkəmə qaydasında vərəsəlik hüququndan məhrum edilməsinə yol verilir. Mülki qanunvericilik ər-arvadın rəsmi nikah münasibətlərində olmasına baxmayaraq, onların üç il ərzində nikaha faktiki xitam verilməsi və ayrı yaşamaları barədə iradə ifadəsini əsas götürərək, qanun üzrə vərəsəlik hüququndan məhrum edilməsinin mümkünlüyünü təsbit etmişdir. Belə ki, Mülki Məcəllənin 1164-cü maddəsinə əsasən, əgər arvadın (ərin) miras qoyanla nikahına mirasın açılmasından azı üç il əvvəl faktiki xitam verildiyi və ərlə arvadın ayrı yaşadıqları təsdiq edilərsə, məhkəmənin qərarı ilə arvad (ər) qanun üzrə vərəsəlik hüququndan məhrum edilə bilər.

Ərin (arvadın) miras qoyanın vərəsəsi olmaq hüququndan məhrum edilməsi barədə iddia ilə məhkəməyə Mülki Məcəllənin 1159-cu maddəsində müəyyən edilmiş növbəliliyə uyğun olaraq ölən şəxsin vərəsələri müraciət edə bilərlər.

Mülki Məcəllənin 1164-cü maddəsinin məzmununa uyğun olaraq, sağ qalmış ərin (arvadın) vərəsəlik hüququ olmayan şəxs hesab edilməsi üçün məhkəmə tərəfindən aşağıdakı halların məcmusu təsdiq edilməlidir:

- tərəflərin ailə münasibətlərinə faktiki xitam verilməsi;

- ər-arvadın ayrı yaşamaları;
- qeyd edilən halların mirasın açılmasından azı üç il əvvəl baş verməsi.

Konstitusiya Məhkəməsinin Plenumu qeyd edir ki, məhz göstərilən hallar hüquqi tərkib əmələ gətirərək rəsmi nikahda olmalarına baxmayaraq, ərin (arvadın) vərəsəlik hüququndan məhrum edilməsi üçün əsas ola bilər. Bu baxımdan məhkəmələr tərəfindən ərin (arvadın) nikaha faktiki xitam verilməsi səbəbindən qanun üzrə vərəsəlik hüququndan məhrum edilməsinə dair işlərə baxılarkən Mülki Məcəllənin 1164-cü maddəsində nəzərdə tutulmuş halların mövcud olub-olmamasına formal yanaşılmamalı, işin bütün halları, tərəflərin münasibətlərindəki əhəmiyyətli məqamlar diqqətə alınaraq məsələyə hüquqi qiymət verilməlidir. Belə ki, Mülki Məcəllənin qeyd edilən maddəsinə formal əsaslanmaqla arvadın (ərin) vərəsəlik hüququndan məhrum edilməsi vərəsəlik və ailə hüquqlarının ümumi prinsiplərinə uyğun olmazdı.

Mülki Məcəllənin 1164-cü maddəsində istifadə olunan "nikaha faktiki xitam verildiyi" ifadəsi isə mirasın açılmasından əvvəlki üç il ərzində tərəflərin məhz ailə-nikah münasibətlərində olmaq istəməmələri səbəbi ilə ayrı yaşamalarını, birgə təsərrüfat aparmamalarını nəzərdə tutur. Bu zaman nikah hüquqi cəhətdən pozulmasa da, nikahın pozulması müvafiq orqanda qeydə alınmasa da nikah real olaraq sonlanmış olur.

İnsan Hüquqları üzrə Avropa Məhkəməsi bununla bağlı qeyd etmişdir ki, nikah münasibətləri nikaha girən şəxslər üçün xüsusi status yaradır. Nikahda olan ər-arvadın bilərəkdən və şüurlu surətdə girdikləri münasibətin doğurduğu hüquqi nəticələr bu növ qarşılıqlı münasibətləri digər birgəyaşayış növlərindən fərqləndirir. Ər-arvadın qarşılıqlı münasibətlərində vacib məsələ qarşılıqlı öhdəliklərin mövcudluğudur. Tərəflərin münasibətlərinin uzunmüddətli olmasına baxmayaraq, onlar arasında məcburi hüquqi qüvvəyə malik olan qarşılıqlı öhdəliklərin olmaması onların birgə yaşayışını ərlə arvadın birgə yaşayışından tamamilə fərqləndirir (Börden Birləşmiş Krallığa qarşı iş üzrə 2008-ci il 29 aprel tarixli Qərar).

Qanunvericilikdə nəzərdə tutulmuş üç il müddət isə tərəflərin nikah münasibətlərinə faktiki xitam verilməsi qərarında israrlı olduqlarını, ailə münasibətlərini bərpa etmək istəklərinin olmamasını dəqiqləşdirmək üçün müəyyən edilmiş müddətdir.

Göstərilənləri nəzərə alaraq, Konstitusiya Məhkəməsinin Plenumu aşağıdakı nəticəyə gəlir:

Nikahın pozulması haqqında məhkəməyə ərizə ilə müraciət edərək iradə ifadəsini bildirmiş, lakin məhkəmə qətnaməsi qanuni qüvvəyə minənədək ölmüş şəxsin arvadı (əri) vərəsəlik hüququndan yalnız Mülki Məcəllənin 1164-cü maddəsinə uyğun olaraq, məhkəmə tərəfindən miras qoyanla nikahına mirasın açılmasından azı üç il əvvəl faktiki xitam verildiyi və ərlə arvadın ayrı yaşadıqları təsdiq edildiyi halda məhrum edilə bilər.

Azərbaycan Respublikası Konstitusiyasının 130-cu maddəsinin IV hissəsini və "Konstitusiya Məhkəməsi haqqında" Azərbaycan Respublikası Qanununun 60, 62, 63, 65-67 və 69-cu maddələrini rəhbər tutaraq, Azərbaycan Respublikası Konstitusiya Məhkəməsinin Plenumu

**QƏRARA ALDI:**

1. Nikahın pozulması haqqında məhkəməyə ərizə ilə müraciət edərək iradə ifadəsini bildirmiş, lakin məhkəmə qətnaməsi qanuni qüvvəyə minənədək ölmüş şəxsin arvadı (əri) vərəsəlik hüququndan yalnız Azərbaycan Respublikası Mülki Məcəlləsinin 1164-cü maddəsinə uyğun olaraq, məhkəmə tərəfindən miras qoyanla nikahına mirasın açılmasından azı üç il əvvəl faktiki xitam verildiyi və ərlə arvadın ayrı yaşadıqları təsdiq edildiyi halda məhrum edilə bilər.
2. Qərar dərc edildiyi gündən qüvvəyə minir.
3. Qərar "Azərbaycan", "Respublika", "Xalq qəzeti", "Bakinski raboçi" qəzetlərində, "Azərbaycan Respublikası Konstitusiya Məhkəməsinin Məlumatı"nda dərc edilsin.
4. Qərar qətidir, heç bir orqan və ya şəxs tərəfindən ləğv edilə, dəyişdirilə və ya rəsmi təfsir edilə bilməz.

**Sədr:**
**Fərhad Abdullayev**

*Bakı şəhəri, 1 may 2019-cu il*

Azərbaycan Respublikası adından
Azərbaycan Respublikası İnzibati Xətalar Məcəlləsinin
128-ci maddəsi baxımından həmin Məcəllənin 109-cu maddəsinin
şərh edilməsinə dair

# AZƏRBAYCAN RESPUBLİKASI KONSTITUSIYA MƏHKƏMƏSİ PLENUMUNUN QƏRARI

Azərbaycan Respublikası Konstitusiya Məhkəməsinin Plenumu Fərhad Abdullayev (sədr),

Sona Salmanova, Südabə Həsənova, Rövşən İsmayılov, Ceyhun Qaracayev (məruzəçi-hakim), Rafael Qvaladze, İsa Nəcəfov və Kamran Şəfiyevdən ibarət tərkibdə,

məhkəmə katibi Fəraid Əliyevin,

maraqlı subyektlərin nümayəndələri Sumqayıt Apelyasiya Məhkəməsinin hakimi Nazim Mövsümov, Azərbaycan Respublikası Milli Məclisi Aparatının İnzibati və hərbi qanunvericilik şöbəsinin baş məsləhətçisi Elnur Nuriyevin,

ekspert Bakı Dövlət Universitetinin Hüquq fakültəsinin Konstitusiya hüququ kafedrasının baş müəllimi Elşad Nəsirovun, mütəxəssislər Azərbaycan Respublikası Ali Məhkəməsinin Cinayət Kollegiyasının sədri Şahin Yusifov, Bakı Apellyasiya Məhkəməsinin Hərbi Kollegiyasının sədri Faiq Qasımov və Azərbaycan Respublikasının Maliyyə Bazarlarına Nəzarət Palatasının Hüquq və lisenziyalaşdırma departamentinin Hüquqi təminat idarəsinin aparıcı hüquqşünası Tural Hacıbəylinin iştirakı ilə,

Azərbaycan Respublikası Konstitusiyasının 130-cu maddəsinin VI hissəsinə müvafiq olaraq xüsusi konstitusiya icraatı qaydasında açıq məhkəmə iclasında Azərbaycan Respublikası İnzibati Xətalar Məcəlləsinin 109-cu maddəsi baxımından həmin Məcəllənin 128-ci maddəsinin şərh edilməsinə dair Sumqayıt Apelyasiya Məhkəməsinin müraciəti əsasında konstitusiya işinə baxdı.

İş üzrə hakim C.Qaracayevin məruzəsini, maraqlı subyektlərin nümayəndələrinin və mütəxəssislərin çıxışlarını, ekspertin rəyini dinləyib müzakirə edərək Azərbaycan Respublikası Konstitusiya Məhkəməsinin Plenumu

**MÜƏYYƏN ETDİ:**

Sumqayıt Apelyasiya Məhkəməsi Azərbaycan Respublikasının Konstitusiya Məhkəməsinə (bundan sonra - Konstitusiya Məhkəməsi) müraciət edərək Azərbaycan Respublikası İnzibati Xətalar Məcəlləsinin (bundan sonra - İnzibati Xətalar Məcəlləsi) 109-cu maddəsinə əsasən çıxarılmış qərardadlardan şikayət vermək hüququnun olub-olmaması baxımından həmin Məcəllənin 128-ci maddəsinin şərh olunmasını xahiş etmişdir.

Müraciətdən görünür ki, Sumqayıt Apellyasiya Məhkəməsinə İnzibati Xətalar Məcəlləsinin 109.1.6-cı maddəsinə əsasən, inzibati xəta haqqında iş üzrə "Az İmport" Məhdud Məsuliyyətli Cəmiyyəti (bundan sonra - "Az İmport" MMC) barəsində həmin Məcəllənin 430.4-cü maddəsinin pozulmasına dair tərtib edilmiş inzibati protokolun onu tərtib etmiş Azərbaycan Respublikasının Maliyyə Bazarlarına Nəzarət Palatasına (bundan sonra - Maliyyə Bazarlarına Nəzarət Palatası) geri qaytarılması barədə Sumqayıt Şəhər Məhkəməsinin 19 sentyabr

2018-ci il tarixli qərardadından şikayət daxil olmuşdur.

İnzibati xəta haqqında iş üzrə materiallardan məlum olur ki, "Az İmport" MMC 6 noyabr 2017-ci il tarixində qabaqcadan ödəniş etməklə 588.690 Rusiya rublu məbləğində pul vəsaitini Azərbaycan Respublikasından kənara köçürmüş və ödəniş aparılmasından 270 gündən artıq müddət keçsə də, həmin pul məbləğində alınan malların ölkəyə idxalını təsdiq edən sənədləri banka təqdim etməmişdir. Bunun nəticəsində Maliyyə Bazarlarına Nəzarət Palatası tərəfindən "Az İmport" MMC haqqında İnzibati Xətalar Məcəlləsinin 430.4-cü maddəsinə əsasən inzibati xəta haqqında 7 sentyabr 2018-ci il tarixli protokol tərtib edilmiş və həmin protokol toplanmış sənədlərlə birlikdə baxılması üçün Sumqayıt Şəhər Məhkəməsinə göndərilmişdir.

Sumqayıt Şəhər Məhkəməsi 19 sentyabr 2018-ci il tarixli qərardadı ilə İnzibati Xətalar Məcəlləsinin 109.1.6-cı maddəsini rəhbər tutaraq inzibati xəta haqqında protokolun düzgün tərtib edilmədiyini əsas gətirmiş və iş materiallarını Maliyyə Bazarlarına Nəzarət Palatasına geri qaytarmışdır.

Maliyyə Bazarlarına Nəzarət Palatası Sumqayıt Şəhər Məhkəməsinin qeyd edilən qərardadından apellyasiya şikayəti verərək həmin qərardadın ləğv edilməsini xahiş etmişdir.

Sumqayıt Apellyasiya Məhkəməsi Konstitusiya Məhkəməsinə ünvanladığı müraciətdə qeyd etmişdir ki, İnzibati Xətalar Məcəlləsində inzibati xətalar üzrə qəbul edilmiş qərardadlardan apellyasiya şikayətinin verilməsi nəzərdə tutulmamışdır. Belə ki, həmin qərardadlar inzibati xətalar haqqında işi mahiyyəti üzrə həll etmir.

Sumqayıt Apellyasiya Məhkəməsi müraciətdə qaldırılan məsələ ilə bağlı məhkəmə təcrübəsində fərqli yanaşmaların olduğunu nəzərə alaraq Konstitusiya Məhkəməsi tərəfindən İnzibati Xətalar Məcəlləsinin 128-ci maddəsinin şərh edilməsini məqsədə müvafiq hesab etmişdir.

Konstitusiya Məhkəməsinin Plenumu hesab edir ki, müraciətdə İnzibati Xətalar Məcəlləsinin 109-cu maddəsi baxımından həmin Məcəllənin 128-ci maddəsinin şərh olunması xahiş edilsə də, məsələnin daha dolğun həll edilməsinə nail olmaq üçün İnzibati Xətalar Məcəlləsinin məhz 128-ci maddəsi baxımından həmin Məcəllənin 109-cu maddəsinin şərh edilməsi daha məqsədəmüvafiqdir.

Konstitusiya Məhkəməsinin Plenumu qeyd edir ki, müraciətdə qaldırılan məsələyə aydınlıq gətirilməsi üçün, ilk növbədə, inzibati məsuliyyəti müəyyən edən inzibati xətalar qanunvericiliyinin mahiyyəti, vəzifəsi və prinsipləri nəzərdən keçirilməlidir.

İnzibati xətalar qanunvericiliyinin vəzifələri insan və vətəndaş hüquqlarını və azadlıqlarını, onların sağlamlığını, əhalinin sanitariya-epidemioloji salamatlığını, ictimai mənəviyyatı, mülkiyyəti, şəxslərin iqtisadi maraqlarını, ictimai qaydanı və ictimai təhlükəsizliyi, ətraf mühiti, idarəçilik qaydalarını qorumaqdan, qanunçuluğu möhkəmləndirməkdən və inzibati xətaların qarşısını almaqdan ibarətdir (İnzibati Xətalar Məcəlləsinin 2-ci maddəsi).

İnzibati Xətalar Məcəlləsinin 4-cü maddəsində inzibati qanunvericiliyin prinsiplərindən bəhs olunur. Belə ki, Məcəllə insan və vətəndaş hüquqlarına və azadlıqlarına hörmət edilməsi, qanunçuluq, qanun qarşısında bərabərlik, təqsirsizlik prezumpsiyası, ədalətlilik və inzibati xətaların qarşısının alınması prinsiplərinə əsaslanır.

Həmin Məcəllənin 6-cı maddəsində bəhs olunan qanunçuluq prinsipinə əsasən, inzibati xəta haqqında iş üzrə icraatın təmin olunması tədbirləri tətbiq edilərkən qanunvericiliyin tələblərinə əməl olunması yuxarı orqanların və vəzifəli şəxslərin idarə nəzarəti ilə, məhkəmə və prokuror nəzarəti ilə və şikayət etmək hüququ ilə təmin edilir. Bu prinsipə əsasən, inzibati xətalar haqqında işlərə baxmağa səlahiyyəti olan orqanlar insan hüquq və azadlıqlarının qanunsuz məhdudlaşdırılmasından çəkinməklə yanaşı, cəmiyyətdə inzibati sahədə qa-

nunçuluğun təmin edilməsini həyata keçirməlidirlər.

İnzibati Xətalar Məcəlləsinin qanunçuluq prinsipinin əsasını təşkil edən Konstitusiyanın 12-ci maddəsinin I hissəsinə, 71-ci maddəsinin I və X hissələrinə görə, insan və vətəndaş hüquqlarının və azadlıqlarının, Azərbaycan Respublikasının vətəndaşlarına layiqli həyat səviyyəsinin təmin edilməsi dövlətin ali məqsədidir. Konstitusiyada təsbit edilmiş insan və vətəndaş hüquqlarını və azadlıqlarını gözləmək və qorumaq qanunvericilik, icra və məhkəmə hakimiyyəti orqanlarının borcudur. Dövlət orqanları yalnız bu Konstitusiya əsasında, qanunla müəyyən edilmiş qaydada və hüdudlarda fəaliyyət göstərə bilərlər. Konstitusiyanın qeyd olunan normaları insan hüquq və azadlıqlarının müdafiə vasitələri ilə yanaşı, həmin hüquqların təminatı kimi cinayət, inzibati-delikt və digər repressiv və preventiv hüquq sahələrinin qoruyucu normalarının mövcudluğunu da nəzərdə tutur. Hər bir dövlət orqanı öz səlahiyyətləri çərçivəsində insan hüquq və azadlıqlarını qorumaq şərti ilə qanunçuluğu təmin etməlidir.

Beləliklə, inzibati xətalar qanunvericiliyi səlahiyyətli orqanla fiziki və hüquqi şəxslər arasında inzibati xətalarla bağlı yaranan münasibətləri tənzimləyir. Bu münasibətlərdə tərəflərdən biri kimi dövlət orqanı və ya qanunvericiliklə səlahiyyətlərinə aid edilmiş hər hansı bir publik subyekt çıxış edir.

Konstitusiya Məhkəməsi Plenumunun "Azərbaycan Respublikası İnzibati Xətalar Məcəlləsinin 332.1-ci maddəsinin bəzi müddəalarının şərh edilməsinə dair" 2015-ci il 5 mart tarixli Qərarında formalaşdırdığı hüquqi mövqeyə görə, inzibati xətalar sahəsində yaranan münasibətlər təbiətinə görə repressiv (tənbehləndirici) və preventiv (xəbərdaredici) xarakter daşıyır. Çünki səlahiyyətli orqan (vəzifəli şəxs) xəta törətmiş subyektə qarşı məsuliyyət tədbirlərini tətbiq edərkən inzibati xarakterli məcburetmə səlahiyyətlərinə malikdir. İnzibati xətalar qanunvericiliyi (inzibati-delikt hüququ) təbiətinə görə cinayət qanunvericiliyinə daha yaxındır. Bu hüquq sahələri müəyyən etdikləri qanun pozuntularının ictimai təhlükəliliyi dərəcəsinə görə fərqlənir. İnzibati-delikt normalarının cinayət qanunvericiliyi normalarından fərqi birincinin nisbətən yüngül ictimai təhlükəli əməlləri qadağan etməsi ilə əlaqədardır.

İnzibati Xətalar Məcəlləsinə uyğun olaraq, inzibati xətalar haqqında işlər üzrə icraat ümumi qaydada xüsusi mərhələlərlə aparılır. Bu mərhələlərə aşağıdakıları aid etmək olar:

- inzibati xəta haqqında iş üzrə icraatın başlanması;
- inzibati araşdırma;
- protokola (prokurorun qərarına) baxılması;
- inzibati xətalar haqqında işlərə apellyasiya qaydasında baxılması;
- qərarın icrası (inzibati tənbehin tətbiqinə dair icraat).

İnzibati xətalar haqqında işlərə baxmağa səlahiyyəti olan orqanların (vəzifəli şəxslərin) siyahısı İnzibati Xətalar Məcəlləsinin 40-cı maddəsində göstərilmişdir. Həmin maddəyə əsasən, inzibati xətalar haqqında işlərə:

- rayon (şəhər) məhkəmələri;
- yetkinlik yaşına çatmayanların işləri və hüquqlarının müdafiəsi üzrə komissiyalar (kollegial orqan);
- Azərbaycan Respublikasının müvafiq icra hakimiyyəti orqanları, Mərkəzi Bank, müvafiq icra hakimiyyəti orqanının yaratdığı qurum (vəzifəli şəxslər) baxırlar.

İnzibati Xətalar Məcəlləsinin 48-ci maddəsinə əsasən, bu icraatın vəzifələri şəxslərin hüquqlarını və azadlıqlarını, onların qanuni mənafelərini qorumaqdan, inzibati xəta haqqında hər bir işin hallarını vaxtında, hərtərəfli, tam və obyektiv surətdə aydınlaşdırmaqdan, inzibati xəta törətmiş şəxsi aşkar etməkdən və onu inzibati məsuliyyətə cəlb etməkdən, çıxarılmış qərarın icrasını təmin etməkdən, habelə inzibati xətanın törədilməsinə kömək edən səbəbləri və şəraiti aşkar etməkdən və inzibati xətaların qarşısını almaqdan ibarətdir.

İnzibati xətalar qanunvericiliyində göstərilən digər orqan və vəzifəli şəxslərdən

fərqli olaraq, rayon (şəhər) məhkəmələri tərəfindən nisbətən böyük ictimai təhlükəli olan və daha ağır sanksiya ilə nəticələnə biləcək inzibati xətalara dair işlərə baxılır.

İnzibati Xətalar Məcəlləsinin 43-cü maddəsi rayon (şəhər) məhkəmələri tərəfindən baxılan inzibati xətalar haqqında işlərin dairəsini müəyyən edir. Məcəllənin 43.3-cü maddəsinə görə, bu Məcəllənin 43.1-ci maddəsində göstərilən inzibati xətalar haqqında işlərə baxmaq hüququ müvafiq icra hakimiyyəti orqanı tərəfindən, həmçinin səlahiyyətli orqanlara (vəzifəli şəxslərə) aid edildikdə, icraatında inzibati xətalar haqqında iş olan səlahiyyətli orqan (vəzifəli şəxs) inzibati xətanın xarakterini, inzibati xəta törədənin şəxsiyyətini, onun təqsirinin dərəcəsini, məsuliyyəti ağırlaşdıran halların və müsadirə olunmalı malların mövcudluğunu nəzərə alaraq, şəxs barəsində müvafiq maddənin sanksiyasında nəzərdə tutulan xəbərdarlıq və ya cərimə inzibati tənbeh tədbirlərindən daha ağır tənbeh tədbirinin tətbiqi üçün əsasların olması qənaətinə gəldikdə, inzibati xəta haqqında protokolu baxılmaq üçün məhkəməyə göndərir.

İnzibati xətalar qanunvericiliyinə əsasən, inzibati xəta haqqında işə baxarkən məhkəmə qərar və ya qərardad qəbul edir. Məcəllənin 114-cü maddəsinə müvafiq olaraq, inzibati xəta haqqında işə baxılarkən aşağıdakı məsələlər barəsində qərar çıxarılır:

- inzibati tənbeh vermə haqqında;
- inzibati cərimənin şərti olaraq tətbiq edilməsi haqqında;
- inzibati xəta haqqında iş üzrə icraatın dayandırılması haqqında;
- inzibati xəta haqqında iş üzrə icraata xitam verilməsi haqqında.

Eyni zamanda, İnzibati Xətalar Məcəlləsinin 115-ci maddəsində inzibati xəta haqqında iş üzrə qərarda hansı məsələlərin dəqiq göstərilməsi əks olunmuşdur. Bunlara inzibati xətaya görə məsuliyyət nəzərdə tutan Məcəllənin müvafiq maddəsi və inzibati xətaya görə tətbiq edilən inzibati tənbeh növü, qərardan şikayət verilməsi qaydası, müddəti və s. aiddir.

Göründüyü kimi, inzibati xəta haqqında iş üzrə icraatın yekununda məhkəmə tərəfindən şəxsin hüquq və azadlıqlarını məhdudlaşdıra biləcək qərar qəbul olunur. Həmin qərarda şəxsin hansı inzibati xəta törətməsi müəyyən edilərək müvafiq inzibati tənbeh tədbiri (inzibati cəza) seçilir və bunun hüquqi nəticələri öz əksini tapır. Məhz bu baxımdan inzibati xəta törətmiş fiziki, hüquqi və vəzifəli şəxs barəsində seçilən tənbeh tədbiri həmin şəxsin hüquq və azadlıqlarını məhdudlaşdırdığına görə, qanunverici belə tədbirdən müdafiə mexanizmləri müəyyən etmişdir. Bunların sırasında əsas yeri inzibati tənbehin tətbiqi ilə bağlı məhkəmələr tərəfindən qəbul edilən qərardan şikayət verilməsi institutu tutur.

İnzibati Xətalar Məcəlləsində inzibati tənbehin tətbiqi ilə bağlı səlahiyyətli orqanlar və məhkəmələr tərəfindən qəbul edilən qərardan şikayət və ya protest verilməsinin prosessual qaydaları nəzərdə tutulmuşdur. Belə ki, Məcəllədə inzibati xətalar haqqında işlər üzrə icraatın qanuniliyini, inzibati tənbehin tətbiqinin ədalətliliyini təmin etmək, ilkin icraat mərhələsində yarana bilən səhvlərin qarşısını almaq və ya digər qanuni məqsədlərə nail olmaq üçün proses subyektlərinə yuxarı məhkəmə instansiyasına (apellyasiya məhkəməsinə) şikayət və ya protest vermək imkanı yaradılır.

Barəsində qərar çıxarılmış fiziki şəxs, yetkinlik yaşına çatmayanların qanuni nümayəndəsi, hüquqi şəxsin nümayəndəsi, zərər çəkmiş şəxs, müdafiəçi və nümayəndə, həmçinin bu Məcəllənin 43.2-ci maddəsində nəzərdə tutulan vəzifəli şəxs inzibati xəta haqqında iş üzrə qərardan şikayət, prokuror isə protest verə bilər.

İnzibati xəta haqqında iş üzrə qərardan şikayət və ya protest aşağıdakı qaydada məhkəməyə və ya səlahiyyətli orqana (vəzifəli şəxsə) verilir:

- hakimin qərarından - apellyasiya instansiyası məhkəməsinə;
- kollegial orqanın qərarından - kollegial orqanın

olduğu yerin məhkəməsinə;

- səlahiyyətli orqanın (vəzifəli şəxsin) qərarından - yuxarı səlahiyyətli orqana (vəzifəli şəxsə) və ya məhkəməyə (İnzibati Xətalar Məcəlləsinin 128-ci maddəsi).

İnzibati Xətalar Məcəlləsinin 129.1-ci maddəsində isə inzibati xəta haqqında iş üzrə qərardan şikayət və ya protestin verilmə qaydası müəyyən edilmişdir.

Beləliklə, qanunverici inzibati xəta haqqında iş üzrə qəbul edilən yekun sənəd olan qərardan şikayət verilməsinin qaydasını və belə şikayəti verə bilən subyektlərin dairəsini dəqiq müəyyən edərək bu hüququ prosesin bütün iştirakçılarına aid etmişdir.

İnzibati xətalar haqqında işlərə baxılarkən qəbul edilən qərardadlarla bağlı isə aşağıdakılar qeyd edilməlidir.

İnzibati Xətalar Məcəlləsinin 109-cu maddəsinə görə, inzibati xəta haqqında işin baxılmağa hazırlanması zamanı aşağıdakı məsələlər barəsində qərardad qəbul edilir: işin baxılması tarixinin və yerinin təyin edilməsi, işin baxılmasında iştirak etmək üçün bu Məcəllənin 61-67-ci, 69-72-ci maddələrində göstərilən şəxslərin çağırılması, iş barəsində zəruri olan əlavə materialların tələb edilməsi, ekspertizanın təyin edilməsi, işə baxılmanın təxirə salınması, protokol və digər materiallar səlahiyyəti olmayan şəxslər tərəfindən tərtib edildikdə, protokol və digər sənədlər düzgün tərtib olunmadıqda, yaxud təqdim edilmiş materiallar natamam olduqda, işə baxılarkən tamamlamaq mümkün olmadıqda, inzibati xətalar haqqında protokolun və ya digər sənədlərin onu tərtib etmiş orqana, vəzifəli şəxsə geri qaytarılması, əgər bu məsələnin baxılması hakimin, orqanın (vəzifəli şəxsin) səlahiyyətinə aid deyildirsə, yaxud hakimə, kollegial orqanın üzvünə, vəzifəli şəxsə etiraz etmə barədə qərardad çıxarılmışdırsa, inzibati xəta haqqında protokolun və ya digər materialların baxılması üçün aidiyyəti üzrə göndərilməsi. Həmçinin qanunvericiliklə müəyyən edilmiş hallarda inzibati xətanın baxıldığı yer üzrə məhkəmə şəxslərin gətirilməsi barədə qərardad qəbul edə bilər.

İnzibati Xətalar Məcəlləsinin qərardadın mahiyyətini əks etdirən yuxarıda qeyd edilən ümumi normaları ilə yanaşı, konkret hallarda qərardadın qəbul olunması qaydaları həmin Məcəllənin ayrı-ayrı xüsusi normalarında nəzərdə tutulmuşdur. Məsələn, inzibati xətalar haqqında işlərin qapalı baxılmasına zərurət olduğu halda, vəsatətin təmin olunmasından imtina edildikdə, bu barədə; özü-özünə etiraz etmə və ya etiraz etmə haqqında ərizəyə baxaraq hakim, səlahiyyətli orqan (vəzifəli şəxs) etirazın təmin edilməsi və ya təmin edilməməsi barədə; icraatında inzibati xəta haqqında iş olan hakim, səlahiyyətli orqan (vəzifəli şəxs) işin həll edilməsi üçün zəruri olan əlavə məlumatların tələb edilməsi barədə qərardad qəbul edə bilər. Fiziki şəxsin gətirilməsi inzibati xətanın baxıldığı yer üzrə məhkəmənin qərardadı əsasında onun yaşadığı və ya olduğu yer üzrə müvafiq icra hakimiyyəti orqanı tərəfindən həyata keçirilir (İnzibati Xətalar Məcəlləsinin 50.2, 52, 74.3, 82.1, 83.3 və 87.3-cü maddələri).

Yuxarıda qeyd edilən normalarda müəyyən olunduğu kimi, inzibati xəta haqqında iş üzrə icraat zamanı məhkəmə inzibati xətalar qanunvericiliyinin prinsiplərinin, xüsusilə də qanunçuluq prinsipinin qorunmasının təmin edilməsi, habelə Məcəllənin tələblərinə uyğun olan ədalətli qərarın qəbul edilməsi məqsədi ilə prosesin zəruri etdiyi hallardan çıxış edərək qərardadlar qəbul edir. Bu qərardadlarla məhkəmə etirazların və vəsatətlərin təmin edilib-edilməməsi, ekspertizanın təyin edilməsi, işlərin qapalı baxılması, əlavə materialların tələb edilməsi, inzibati xətalar haqqında protokolun və ya digər sənədlərin onu tərtib etmiş orqana, vəzifəli şəxsə geri qaytarılması və s. məsələləri həll edir.

Göründüyü kimi, İnzibati Xətalar Məcəlləsinin qərardadlardan bəhs edən nə ümumi, nə də xüsusi normalarında məhkəmə qərardadlarından şikayət verilməsi nəzərdə tutulmamışdır.

Qanunvericinin belə yanaş-

ması onunla izah olunur ki, qərardad məsələni mahiyyəti üzrə həll etmir, şəxsin hüquq və azadlıqlarını məhdudlaşdırmır, mübahisənin gələcəkdə davam etdirilməsini istisna etmir, o, yalnız işin ədalətli həll olunmasına xidmət edir. Eyni zamanda, qanunverici, "prosessual qənaət" prinsipini rəhbər tutaraq məhkəmə prosesinin lüzumsuz olaraq uzanmasının qarşısını almaq məqsədi ilə hər bir qərardad üzrə şikayətin verilməsini mümkünsüz hesab etmişdir.

Konstitusiya Məhkəməsinin Plenumu Sumqayıt Apellyasiya Məhkəməsi tərəfindən müraciətin verilməsinə səbəb olmuş inzibati xəta haqqında işlə bağlı qeyd edir ki, İnzibati Xətalar Məcəlləsinin 106-cı maddəsi inzibati xəta haqqında işin baxılmağa hazırlanması mərhələsində hakim, səlahiyyətli orqanın (vəzifəli şəxsin) hazırlıq mərhələsində həll etməli olduğu məsələlərin dairəsini müəyyən edir. Həmin maddəyə əsasən, hakim, səlahiyyətli orqan (vəzifəli şəxs) inzibati xətalar haqqında işlərə baxarkən aşağıdakı məsələləri həll edir: işin baxılması onun səlahiyyətinə aiddirmi; işin hakim, kollegial orqanın üzvü, vəzifəli şəxs tərəfindən baxılmasını istisna edən hallar mövcuddurmu; inzibati xəta haqqında protokol və işin digər materialları bu Məcəllənin tələblərinə müvafiq olaraq tərtib edilmişdirmi; işin icraatını rədd edən hallar mövcuddurmu; mahiyyəti üzrə baxılması üçün işdə kifayət qədər sübutlar toplanmışdırmı; işə baxılmasının yeri və vaxtı barədə işdə iştirak edən şəxslər məlumatlandırılıbmı; iş üzrə vəsatətlər və etiraz etmə vardırmı.

Həmin Məcəllənin 109.1.6-cı maddəsinə əsasən isə inzibati xətalar haqqında işə baxılmasına hazırlıq mərhələsində hakim tərəfindən protokol və digər materiallar səlahiyyəti olmayan şəxslər tərəfindən tərtib edildikdə, protokol və digər sənədlər düzgün tərtib olunmadıqda, yaxud təqdim edilmiş materiallar natamam olduqda işə baxılarkən tamamlamaq mümkün olmadıqda, inzibati xətalar haqqında protokol və ya digər sənədlər onu tərtib etmiş orqana, vəzifəli şəxsə geri qaytarıla bilər. Bu halda məhkəmə tərəfindən müvafiq qərardad qəbul edilir.

İnzibati Xətalar Məcəlləsində inzibati xəta haqqında protokolun tərtib olunmasının qaydası dəqiq göstərilmişdir və inzibati xəta haqqında işin baxılmağa hazırlanması zamanı hakim həmin protokolun məhz bu normanın tələblərinə uyğun tərtib edilib-edilmədiyini yoxlayır. Belə ki, İnzibati Xətalar Məcəlləsinin 100.1-ci maddəsinə əsasən, inzibati xəta haqqında protokolda aşağıdakılar göstərilir: protokolun tərtib edildiyi tarix və yer, protokolu tərtib etmiş şəxsin vəzifəsi, soyadı, adı, atasının adı, barəsində inzibati xəta haqqında iş üzrə icraat aparılan şəxs haqqında məlumat, o cümlədən vətəndaşın fərdi identifikasiya nömrəsi, inzibati xətanın törədildiyi yer, vaxt və bu xətanın mahiyyəti, inzibati xətaya görə məsuliyyət nəzərdə tutan bu Məcəllənin müvafiq maddəsi və s.

Qeyd olunan maddələrin təhlilindən belə qənaətə gəlmək olar ki, protokol və digər sənədlərin düzgün tərtib olunmamasının, yaxud təqdim edilmiş materialların natamam olmasının elə halları mövcud ola bilər ki, hakim belə qüsurlu protokola ümumiyyətlə mahiyyəti üzrə baxa bilməsin. Məsələn, protokolda barəsində inzibati xəta haqqında iş üzrə icraat aparılan şəxs haqqında məlumatın, o cümlədən vətəndaşın fərdi identifikasiya nömrəsinin göstərilməməsi həmin protokola baxılmasını mümkünsüz edə bilər. Bu halda hakim protokolun və ya digər sənədlərin onu tərtib etmiş orqana, vəzifəli şəxsə qaytarılması barədə əsaslandırılmış qərardad qəbul etməkdə haqlıdır. Eyni zamanda, inzibati xətalar qanunvericiliyində həmin protokolun bu Məcəlləyə uyğun tərtib edilərək yenidən məhkəməyə göndərilməsi istisna edilməmişdir.

Lakin protokolda xüsusi əhəmiyyət kəsb etməyən səhvlər olduqda və işə baxılarkən onları tamamlamaq mümkün olduqda məhkəmə protokolu geri qaytarmamalıdır. Bu zaman məhkəmə protokolu və ya digər sənədləri tərtib etmiş orqandan, vəzifəli

şəxsdən bunu düzəltməsini tələb edə bilər. Bu, İnzibati Xətalar Məcəlləsinin 109.1.6-cı maddəsinin tələblərindən də irəli gəlir.

Konstitusiya Məhkəməsinin Plenumu hesab edir ki, qanunvericinin məsələyə belə yanaşması məhz "prosessual qənaət" prinsipinin qorunmasına, inzibati xəta haqqında işin əsassız olaraq uzanmamasına, işlərə ağlabatan müddətlərdə baxılması prinsipinin və son nəticədə ədalətli məhkəmə araşdırılmasının təmin edilməsinə xidmət edir. Bu, öz növbəsində, inzibati xətalar qanunvericiliyinin prinsiplərinə də uyğundur.

Göstərilənləri nəzərə alaraq Konstitusiya Məhkəməsinin Plenumu qeyd edir ki, inzibati protokolu tərtib etmək səlahiyyəti olan orqan (vəzifəli şəxs) həmin protokolu tərtib edərkən İnzibati Xətalar Məcəlləsinin tələblərinə dəqiq riayət etməlidir. Məhkəmələr protokol və ya digər sənədlərin düzgün tərtib olunmadığını və ya təqdim edilmiş materialların natamam olduğunu müəyyən etdikdə "prosessual qənaət" və "işlərə ağlabatan müddətdə baxılması" prinsiplərini rəhbər tutaraq sənədləri onu tərtib etmiş orqana, vəzifəli şəxsə qərardadla qaytarmazdan əvvəl, həmin qüsur və natamamlıqların aradan qaldırılması üçün bütün imkan və vasitələrdən istifadə etməlidir.

Qeyd edilənlərə əsasən Konstitusiya Məhkəməsinin Plenumu belə nəticəyə gəlir ki, İnzibati Xətalar Məcəlləsinin 128-ci maddəsinin tələbləri baxımından həmin Məcəllənin 109-cu maddəsində nəzərdə tutulmuş inzibati xətalar haqqında işin baxılmasına hazırlanması zamanı qəbul edilən qərardadlardan apelyasiya şikayəti vermək hüququ istisna edilir.

Yuxarıda göstərilənləri nəzərə alaraq, Azərbaycan Respublikası Konstitusiyasının 130-cu maddəsinin VI hissəsini, "Konstitusiya Məhkəməsi haqqında" Azərbaycan Respublikası Qanununun 60, 62, 63, 65-67 və 69-cu maddələrini rəhbər tutaraq, Azərbaycan Respublikası Konstitusiya Məhkəməsinin Plenumu

**QƏRARA ALDI:**

1. Azərbaycan Respublikası İnzibati Xətalar Məcəlləsinin 128-ci maddəsinin tələbləri baxımından həmin Məcəllənin 109-cu maddəsində nəzərdə tutulmuş inzibati xətalar haqqında işin baxılmasına hazırlanması zamanı qəbul edilən qərardadlardan apellyasiya şikayəti vermək hüququ istisna edilir.

2. İnzibati protokolu tərtib etmək səlahiyyəti olan orqan (vəzifəli şəxs) həmin protokolu tərtib edərkən Azərbaycan Respublikası İnzibati Xətalar Məcəlləsinin tələblərinə ciddi riayət etməlidir.

Məhkəmələr protokol və ya digər sənədlərin düzgün tərtib olunmadığını və ya təqdim edilmiş materialların natamam olduğunu müəyyən etdikdə "prosessual qənaət" və "işlərə ağlabatan müddətdə baxılması" prinsiplərini rəhbər tutaraq sənədləri onu tərtib etmiş orqana, vəzifəli şəxsə qərardadla qaytarmazdan əvvəl, həmin qüsur və natamamlıqların aradan qaldırılması üçün bütün imkan və vasitələrdən istifadə etməlidir.

3. Qərar dərc edildiyi gündən qüvvəyə minir.

4. Qərar "Azərbaycan", "Respublika", "Xalq qəzeti", "Bakinski raboçi" qəzetlərində, "Azərbaycan Respublikası Konstitusiya Məhkəməsinin Məlumatı"nda dərc edilsin.

5. Qərar qətidir, heç bir orqan və ya şəxs tərəfindən ləğv edilə, dəyişdirilə və ya rəsmi təfsir edilə bilməz.

**Sədr:**
**Fərhad Abdullayev**

*Bakı şəhəri, 3 may 2019-cu il*